## “Statistika xəbərləri” elmi-praktik jurnalının redaksiya heyəti


**Baş redaktor**

| | |
|---|---|
| **Sakit YAQUBOV** | *iqtisad elmləri doktoru, professor* |

**Redaksiya heyəti:**

| | |
|---|---|
| **Ziyad SƏMƏDZADƏ** | *iqtisad elmləri doktoru,*<br>*Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü* |
| **Şahin SADIQOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Ədalət MURADOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Vahid NOVRUZOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Nazim İMANOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Süleyman QASIMOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Səlim MÜSLÜMOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Tahir BUDAQOV** | *tibb üzrə fəlsəfə doktoru* |
| **Azər ƏMİRASLANOV** | *iqtisad üzrə fəlsəfə doktoru* |
| **Mehman TAĞIYEV** | *iqtisad üzrə fəlsəfə doktoru* |
| **Saleh MÖVLAMOV** | *iqtisad üzrə fəlsəfə doktoru* |
| **Aleksey PONOMARENKO** | *iqtisad elmləri namizədi, dosent* |
| **Roumen VESSELİNOV** | *iqtisad üzrə fəlsəfə doktoru, dosent* |
| **Alxan MANSUROV** | *məsul katib* |

***"Statistika xəbərləri" elmi-praktik jurnalının rubrikaları***

- Statistikanın inkişaf strategiyası və taktikası
- Statistik təsnifatlar, standartlar və registrlər
- Statistik müşahidə metodları
- Statistik məlumatların toplanması, işlənməsi, saxlanması və yayılması texnologiyası
- İnformasiya şəbəkəsi, məlumat bazası, məlumat bankları
- Statistik informasiya sisteminin təkmilləşdirilməsi
- Milli Hesablar Sistemi
- Statistik tədqiqatlar
- Statistika sahəsində beynəlxalq əməkdaşlıq
- Statistika: xronika, informasiya
- Biblioqrafiya: yeni nəşrlər
- Oxucuların rəy və təklifləri
- Statistika: rəsmi sənədlər
- Statistika: metodoloji təminat (metodoloji əlavələr)
- Statistika: faktlar və proqnozlar (statistik əlavələr)

# Mündəricat


səh.

**İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR**

***Elşən İbrahimov***
Dayanıqlı iqtisadi inkişafın təmin edilməsində dövlət büdcəsindən səmərəli istifadə yolları....... 4

***Yaşar Paşa***
Həyat keyfiyyəti və innovasiyalar arasında qarşılıqlı əlaqənin statistik tədqiqi.......................... 12

***Saleh Mövlamov, Şahin Mustafayev***
Enerji təhlükəsizliyinin statistik tədqiqi........................................................................................ 21

***Famil Niftiyev***
Quba-Xaçmaz iqtisadi rayonunda təhsil müəssisələrinin inkişafının statistik təhlili.................. 30

***Elnur Rüstəmov***
Gəncə-Qazax iqtisadi rayonunun sosial-iqtisadi inkişafında əmək bazarının rolu....................... 36

***Əbdülrəhim Dadaşov***
Fermer təsərrüfatlarının kredit resurslarına çıxış imkanlarının qiymətləndirilməsi.................... 45

**NƏZƏRİYYƏ VƏ METODOLOGİYA**

***Sədi Əbdürəhmanov, Nigar Teymurzadə***
Kənd təsərrüfatında iqtisadi mənafelərin optimal əlaqələndirilməsi........................................... 55

***Həsən Məmmədov***
Davamlı iqtisadi inkişafın nəzəri əsasları..................................................................................... 64

***Юсиф Байрамов***
Социальное предпринимательство – мировая практика и пути развития в Азербайджане.................................................................................................... 74

***Rəşad Məmmədov***
Dünya iqtisadiyyatının qloballaşması şəraitində sahibkarlıq fəaliyyəti və onun marketinq strategiyaları.................................................................................................... 84

**2019-cu İLİN BİRİNCİ YARISININ YEKUNU ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR**

Makroiqtisadi göstəricilər.................................................................................................... 92
Ümumi Daxili Məhsul istehsalı.................................................................................................... 94
Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər....................................................... 94
İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri.................................. 95
Pərakəndə ticarət dövriyyəsinin məhsullar üzrə strukturu.......................................................... 96
İqtisadiyyata kredit qoyuluşu.................................................................................................... 96
Dövlət büdcəsinin gəlirləri.................................................................................................... 96
Dövlət büdcəsinin xərcləri.................................................................................................... 97
Nəqliyyat sektorunda yük dövriyyəsi.................................................................................................... 97
Nəqliyyat sektorunda sərnişin dövriyyəsi.................................................................................................... 98
Azərbaycanın tərəfdaş ölkələrlə xarici ticarət göstəriciləri.......................................................... 98
İxrac olunan mühüm növ məhsullar.................................................................................................... 99
İdxal olunan mühüm növ məhsullar.................................................................................................... 100

**BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Parisdə keçirilən Avropa statistikləri konfrasında iştirak etmişdir.............................................................. 101

**RƏSMİ STATİSTİKANIN İNKİŞAFI**

Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının təqdimat mərasimi keçirilmişdi.................................................................................................... 102
“Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi” mövzusunda yazı müsabiqəsi elan edilmişdir..............................................................

**AZƏRBAYCANIN STATİSTİKA TARIXİNİN SƏHİFƏLƏRİNDƏN** 104

Əliyev İsgəndər Məmməd Tağı oğlu (anadan olmasının 120 illiyinə)...................................... 107

“Statistika xəbərləri, № 3/2019”
İl 5, Cild 3, İyul-sentyabr, səh. 4-11

**İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR**

UOT: 33:005
DOI: 10.33870/1012-1211-2019-3-2490

# DAYANIQLI İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ DÖVLƏT BÜDCƏSİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

***Elşən İbrahimov***
*Azərbaycan Kooperasiya Universitetinin*
*“İqtisadiyyat” fakültəsinin dekanı, iqtisad elmləri namizədi, dosent*
*AZ 1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93*
*e-poçt: elwen.1977@mail.ru*

**Açar sözlər**: dövlət büdcəsi, Davamlı İqtisadi İnkişaf Konsepsiyası, ÜDM, sosial-iqtisadi siyasət, təkrar istehsal prosesi.
**Ключевые слова:** государственный бюджет, Концепция Устойчивого Экономического Развития, ВВП, социально-экономическая политика, процесс воспроизводства.
**Keywords:** state budget, Sustainable Economic Development Conception, GDP, social-economic policy, reproduction process.

Aparılmış tədqiqatlar və təhlillər göstərir ki, dövlət büdcəsinin dayanıqlı iqtisadi inkişafın sürətləndirilməsinə təsiri iqtisadi metodlara əsaslanaraq dövlətin tənzimləyici rolunun reallaşdırılması və genişləndirilməsi formasında özünü büruzə verir. Belə ki, dövlət büdcəsi bütün ölkələrdə geniş təkrar istehsal prosesinin gedişinin, dayanıqlı iqtisadi inkişafın və əhalinin sosial-iqtisadi vəziyyətinin normal, müvazinətli qaydada inkişaf edə bilməsinin əsasını təşkil edir. Bu baxımdan, təsadüfi deyil ki, büdcə istər dövlətin öz əsas funksiyalarını yerinə yetirə bilməsinin, istərsə də cəmiyyətin inkişaf etdirilməsinin iqtisadi əsasını təşkil edir. Hansı ki əmtəə-pul münasibətlərinin hakim olduğu müasir sivil ölkələrdə bu proses başqa cür ola da bilməz.

Məlumdur ki, dövlət büdcəsi-müvafiq dövlət hakimiyyəti və yerli özünü idarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir. Sosial-iqtisadi siyasətin həyata keçirilməsində ən mühüm vasitələrdən biri də maliyyə sisteminin tərkib hissəsi kimi maliyyə münasibətlərini özündə əks etdirən və tarixi iqtisadi kateqoriya olan dövlət büdcəsidir. Dövlət büdcəsinin yaranması və inkişafı dövlətin yaranması ilə bilavasitə bağlı olmaqla eyni dövrə təsadüf edir. İqtisadi kateqoriya kimi maliyyə sisteminin tərkib hissəsi olan büdcə dövlətin mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaranması və istifadəsini xarakterizə edir. Büdcə dövlətin əsas maliyyə dayağı olmaqla sosial-iqtisadi siyasətin, dövlət tənzimlənməsinin, müdafiə və təhlükəsizlik tədbirlərinin və s. həyata keçirilməsini təmin edir [10, 4, 6].

Müasir dövrdə bütün dünyada xüsusi aktuallıq kəsb edən məsələlərdən biri kimi dayanıqlı inkişaf konsepsiyası gündəmdədir. Daha doğrusu, XX əsrin sonlarından etibarən təbiət-cəmiyyət münasibətlərində yaranmış disbalans iqtisadi proseslərə yeni yanaşmanı zəruri etdi ki, bu da 1992-ci ildə BMT-də qəbul edilmiş “XXI əsrin gündəliyi” sənədinin əsasında hazırlanmış Davamlı İnkişaf Konsepsiyasının meydana gəlməsi üçün əsas oldu. Dayanıqlı inkişaf əsasən sosial, iqtisadi və ekoloji istiqamətləri əhatə edir. Belə ki, dayanıqlı inkişafın təmin edilməsinə yönəldilmiş tədbirlər əsas etibarilə sosial şəraitin yaxşılaşdırılması, iqtisadi inkişafın təmin edilməsi və ekoloji vəziyyətin stabilləşdirilməsini əhatə edir. Dayanıqlı inkişafın təmin edilməsində hər üç istiqamət eyni əhəmiyyət kəsb edir və yekun iqtisadi nəticələrlə qiymətləndirilir. Yəni istər sosial, istərsə də ekoloji tədbirlərin nəticəsi iqtisadi göstəricilərlə xarakterizə edilir. Bu nöqteyi nəzərdən yanaşaraq qeyd etmək olar ki, dayanıqlı inkişafın təmin edilməsində iqtisadi aspektlər xüsusilə mühüm əhəmiyyət kəsb edir. Əslində isə dayanıqlı inkişaf iqtisadi proseslərə keyfiyyətcə yeni bir yanaşma olmaqla ayrı-ayrı

milli dövlətlər qarşısında da müvafiq tələb və tövsiyələr qoyur. O cümlədən ölkəmizdə də bazar münasibətlərinə keçidi uğurla başa vuraraq, dayanıqlı inkişaf mərhələsinə daxil olmaqla bu sahədə bir sıra tədbirlər həyata keçirilmişdir.

Belə ki, qloballaşma və inteqrasiya proseslərində səmərəli iştirak etmək, bu proseslərin təsiri ilə formalaşan çətin rəqabət mübarizəsində davam gətirmək, həmçinin qlobal iqtisadi məkanda milli və dövlətçilik maraqlarını təmin etmək, modern milli iqtisadiyyatın formalaşdırılması məqsədilə ölkəmizdə həyata keçirilmiş mühüm tədbirlərdən biri də ölkə prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasıdır. İnkişaf Konsepsiyasının əsas strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla ölkəmizdə dayanıqlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdan ibarət idi. Göstərilən məqsədə çatmaq üçün iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, makroiqtisadi sabitliyin qorunması, monetar və fiskal siyasətin koordinasiyasının gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və özəl təşəbbüsün dəstəklənməsi, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi kimi vəzifələr müəyyənləşdirilmişdir [2]. Bu vəzifələrin reallaşdırılması məqsədilə dövlətin əsas maliyyə dayağı olan büdcə ilə milli iqtisadiyyatın dayanıqlı inkişaf tələblərinin uzlaşdırılması da əsas vəzifə kimi müəyyənləşdirilmişdir. Daha konkret ifadə etsək, dövlət büdcəsinin xərcləri dayanıqlı inkişafa dair seçilmiş hədəflərə doğru istiqamətlənmişdir. Təsadüfi deyildir ki, hər hansı sahədə və ümumilikdə milli təsərrüfatda seçilmiş hədəfə çatmaq üçün müəyyən maliyyə təminatının olması zəruridir. Başqa sözlə desək, maliyyə-investisiya resursları dayanıqlı inkişafın da zəruri şərti kimi qəbul edilə bilər [1; 4; 5; 6].

Eyni zamanda nəzərə almaq lazımdır ki, dövlət büdcəsi ölkənin maliyyə sisteminin mərkəzi həlqəsi olduğuna görə maliyyə kateqoriyasına aid bütün keyfiyyət cəhətlərini özündə əks etdirir. Bununla belə, maliyyə daha geniş əhatə dairəsi olan pul münasibətləri sistemini özündə əks etdirir, büdcə isə dövlətin mərkəzləşdirilmiş pul vəsaiti fondunun yaranması və istifadəsi ilə əlaqədar olan pul münasibətlərini ifadə edir. Əslində büdcənin formalaşmasına dair nəzəri yanaşmalardan da aydın olur ki, büdcənin gəlir mənbələri müxtəlif olduğu kimi xərc istiqamətləri də fərqlidir. Bunların hər ikisi isə dövlətin sosial-iqtisadi, təşkilati-hüquqi və siyasi baxışları əsasında formalaşır. Bu baxışlar isə dövrün tələblərinə uyğun olaraq formalaşır. Büdcənin formalaşmasına dair iqtisadi baxışlar, alternativ məktəblər fərqli fikirlər irəli sürmələrinə baxmayaraq, ümumilikdə büdcənin əsas vəzifəsi dövlətin məqsəd və funksiyalarının reallaşmasına maliyyə dəstəyi göstərmək və bununla yanaşı, büdcə gəlirlərinin daimi artımını təmin etməkdir [5; 6].

Bütün hallarda isə büdcə dövlətin fəaliyyəti ilə sıx əlaqədə olan tarixi-iqtisadi kateqoriya kimi nəzərdən keçirilməli, onun rol və vəzifələri dövlətin tarixi inkişaf dinamikasına uyğun olaraq büdcənin rol və vəzifələri müəyyən edilməlidir. XVIII əsrin axırlarından başlamış sənaye cəmiyyəti dövründə şəxsi maraq və şəxsi kapital üstünlük təşkil etdiyindən bazarın "görünməz əl"i qəbul edilir və öz fərdiliyi ilə seçilən mikroiqtisadiyyata üstünlük verilirdi. Büdcənin rolu ənənəvi olaraq alkoqollu içkilərin, tütünün, silahın, qızılın istehsalı və satışı sahəsində dövlətin inhisarçılığı ilə seçilmiş, eyni zamanda bu sahələr dövlət xəzinəsinin doldurulmasının əsas mənbəyi kimi cəmiyyətin sosial məsələlərinin həllində də mühüm rol oynayırdı [7].

Bütün bunlarla yanaşı, araşdırmalar göstərir ki, Avropa ölkələrində dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 50 faizdən yuxarı olduğu halda, Azərbaycanda 2005-2018-ci illərdə 17-33 faiz həddində tərəddüd etmişdir. Belə ki, ölkəmizdə ÜDM-ə nisbətən dövlət büdcəsi xərclərinin xüsusi çəkisi 2006-cı ildə 17.1 faiz olduğu halda, 2010-cu ildə 27.7 faiz, 2015-ci ildə 32.7 faiz, 2017-ci ildə isə 25.0 faiz təşkil etmişdir. Bu baxımdan, tədqiqatlar göstərir ki, iqtisadi artımla ÜDM-in dövlət tərəfindən yenidən bölüşdürülən hissəsi arasında olan asılılığı daha geniş tarixi planda nəzərdən keçirmək lazımdır ki, ümumi bir qanunauyğunluq müəyyən edilmiş olsun. Belə ki, istehsal amilləri təklifi və onlardan istifadənin səmərəliliyi ilə müəyyən olunan dövlət büdcəsi xərcləri və iqtisadi artım templəri arasında müəyyən mürəkkəb qarşılıqlı dialektik asılılıq mövcuddur. Bu asılılıq birincisi, mütərəqqi vergi sistemi və sosial ödəmələr vasitəsi ilə gəlirləri yenidən bölüşdürməklə

dövlət tərəfindən istehlak tələbini artırmış olur ki, bu yolla da bazar təsərrüfatının ən mühüm ziddiyyəti - istehsal artımı ilə istehlak artımı arasında olan disproporsiya aradan götürülmüş olur. İkincisi isə dövlət iqtisadi artımın strateji amillərinin təmin edilməsi funksiyasını öz üzərinə götürür ki, bu funksiya da getdikcə daha mühüm əhəmiyyət kəsb edir [4;5].

Ümumiyyətlə, dövlət büdcəsi vasitəsilə ÜDM-in yenidən bölgüsü eyni vaxtda fəaliyyət göstərən və bir-biri ilə sıx əlaqədə olan iki mərhələdə həyata keçirilir:

- büdcənin gəlirlərinin yaradılması;
- büdcə vəsaitlərindən istifadə (büdcənin xərcləri).

Buradan da büdcənin gəlir və xərc hissələri formalaşır, yəni gəlirlərin hesabına xərclər həyata keçirilir ki, bu zaman da dövlət məqsədlərinin reallaşması təmin edilməklə funksiyaların və vəzifələrin yerinə yetirilməsi təmin edilir. Həm də istər gəlirlər, istərsə də xərclər konkret iqtisadi-ictimai şəraitdən asılı olaraq dəyişir. Məlumdur ki, dövlət cəmiyyət miqyasında ümumi təsərrüfat subyekti kimi çıxış edir və bu zaman istehsalçıların ümumi mənafeyini nəzərə alır. Buna görə də dövlət büdcəsi ölkənin bütün iqtisadi sisteminin inkişaf mənafeyi nəzərə alınmaqla iqtisadi proseslərin tənzimlənməsinə təsir göstərir. Milli təsərrüfatda makroiqtisadi proporsiyaların gözlənilməsi üçün qeyri-istehsal və xidmət sahələrinin inkişaf etdirilməsi, əhalinin ümumi tələbatının ödənilməsi, müxtəlif mülkiyyət formalarının iqtisadi inkişafı və s. büdcənin ümumi ölkənin mənafeyi üçün istifadə olunmasını zərurətə çevirir. Bu baxımdan, Azərbaycan Respublikasında dövlət büdcəsinin xərcləri üzrə aşağıdakı istiqamətlər nəzərdə tutulur ki, bu istiqamətlərdə iqtisadiyyatın və cəmiyyətin dayanıqlı inkişafında mühüm rola malikdir:

- ardıcıl sosial siyasətin, əhalinin ayrı-ayrı təbəqələrinin rifahının və yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlərin davam etdirilməsi;
- əməkhaqları, pensiya və digər ödənişlər üzrə islahatların davam etdirilməsi;
- ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün ordu quruculuğunun beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə sabit maliyyə ehtiyatlarına malik olunması;
- ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin əsas ərzaq məhsulları ilə təminatı üçün aqrar sektora dövlət qayğısının artırılması, dövlət tərəfindən fermerlərin dəstəklənməsi, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi və bu sahələrə birbaşa subsidiyaların verilməsinin davam etdirilməsi;
- sahibkarlığın və lizinqin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması;
- qeyri-neft sektorunda yeni istehsal və xidmət müəssisələrinin yaradılması ilə sənayeləşmənin sürətləndirilməsi və sənaye istehsalının artırılması;
- ölkənin enerji potensialının gücləndirilməsi və bərpa olunan enerji növlərinin yaradılması üçün dövlətin maliyyə dəstəyinin təmin edilməsi;
- informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, elektron hökümətin genişləndirilməsi məqsədilə maliyyə təminatının yaradılması;
- ölkə ərazisində keçirilməsi nəzərdə tutulan beynəlxalq əhəmiyyətli tədbirlərin dəstəklənməsi;
- dövlətin borc və öhdəliklərinin maliyyə təminatı üçün müvafiq məbləğin ayrılması;
- dövlət borclarının idarə olunmasında səmərəliliyin daha da artırılması;
- dövlət əsaslı vəsait qoyuluşu xərclərinin strukturunu daha da təkmilləşdirməklə sosial-istehsal infrastrukturlarının tikintisinin dəstəklənməsi, vəsaitlərdən istifadənin səmərəliliyinin daha da yüksəldilməsi;
- dövlət büdcəsi xərclərinin strukturunun daha da təkmilləşdirilməsi, şəffaflığın artırılması və s.

Göründüyü kimi, ölkəmizdə büdcə xərclərinin əsas məqsədini sosial-iqtisadi inkişaf, insanların rifah halının yüksəldilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması təşkil edir ki, bu da Davamlı İnkişaf Konsepsiyasının başlıca tələblərindən biridir. Eyni zamanda büdcənin xərcləri də onun gəlirləri kimi müəyyən şərtlərə əsaslansa da, gəlirlərə nisbətən xərclərin istiqamətinin, quruluşunun dəyişilməsi daha çevikdir. Sosial-iqtisadi və siyasi vəziyyətdən asılı olaraq büdcə xərcləri

hərbi, sosial, iqtisadi-siyasi məqsədlərin mənafeyinə uyğun dəyişir. Belə ki, büdcə xərclərinin hərbi və sosial məqsədlərə bölünməsi nisbətləri ayrı-ayrı hallarda kəskin dəyişə bilər. O cümlədən iqtisadi böhranlar, hərbi münaqişələr zamanı büdcə xərcləri hərbi ehtiyacları ödəmək üçün daha çox dəyişilir. Nəticədə isə büdcənin sosial-iqtisadi məzmunu onun gəlirləri və xərclərinin tərkibi və quruluşu ilə müəyyən olunur. Bu quruluş isə öz növbəsində dayanıqlı inkişaf tələbləri ilə uzlaşdırılır.

Təsadüfi deyil ki, 2015-ci il 25-27 sentyabr tarixlərində BMT-nin Dayanıqlı İnkişaf üzrə Sammitində də dünyanın 150 ölkəsinin liderlərinin iştirakı ilə 193 ölkə ilə razılaşdırılmış 2016-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf Məqsədləri qəbul edilmişdir. Burada qarşıya qoyulmuş 17 məqsədin hamısı müvafiq dövr üçün hədəflərə çatmağı nəzərdə tutmuşdur. Konsepsiyada 2030-cu ilədək olan dövrdə dayanıqlı iqtisadi inkişafın regional və beynəlxalq səviyyələrdə etibarlı və strateji istiqamətlərinin reallaşdırılması hesabına yoxsulluğun bütün formalarının və aclığın ləğv edilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi və qidalanmanın yaxşılaşdırılması, kənd təsərrüfatının inkişafına, dayanıqlı iqtisadi artma, tam və məhsuldar məşğulluğa, hamı üçün layiqli işlə təminata yardım etmək, bütövlükdə cəmiyyəti əhatə edən və keyfiyyətli təhsili təmin etmək tədbirlərinə investisiyaların artırılmasının vacibliyi vurğulanmışdır. Aparılmış tədqiqatlar göstərir ki, milli iqtisadiyyatların inkişafının sürətləndirilməsi və davamlılığının təmin edilməsi ilk növbədə insanların layiqli əməklə təminatında, əmək hüquqlarının qorunmasında, insanların maddi rifahının yaxşılaşdırılmasında müstəsna əhəmiyyət kəsb edəcəkdir. Bu baxımdan, dünya ölkələrinin qarşılıqlı əməkdaşlığı əsasında qlobal problemlərin həllinə birgə yanaşmaları dayanıqlı iqtisadi inkişafın təmin edilməsində başlıca meyarlardan biri hesab olunur [13;7;11].

Yuxarıda qeyd etdiyimiz BMT-yə üzv olan ölkələrin 2015-ci il 25-27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə Azərbaycan da qoşulmuşdur. Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq, ölkə Prezidenti cənab İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə “Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası öz fəaliyyətinə elmi müəssisələrin cəlb edilməsini məqsədəuyğun hesab etmiş və bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir.

Şübhəsiz ki, Davamlı İnkişaf Konsepsiyasının və Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılmasında hər bir ölkənin dövlət büdcəsi əsas maliyyə mənbəyi kimi özünü büruzə verir. İnkişaf etmiş dövlətlərin büdcə siyasəti təcrübəsində çoxdan sübut olunmuşdur ki, büdcə vasitəsilə bütün iqtisadiyyat sahələrinə təsir göstərilməklə bir çox mütərəqqi struktur dəyişiklikləri edilir. Büdcənin iqtisadiyyata göstərdiyi bu təsir müxtəlif metodlarla həyata keçirildiyindən istər onun mədaxil və istərsə də məxaric hissəsini əhatə edir. Mədaxil hissəsinin istehsala təsiri müxtəlif vergi, imtiyaz növlərinin artırılıb-azaldılması, məxaric hissəsi vasitəsilə isə müxtəlif istehsal sahələrinin inkişafına yönəldilən investisiyaların maliyyələşdirilməsi, kreditləşdirilməsi və s. vasitəsilə həyata keçirilir. Beləliklə, büdcənin xərc hissəsinin istehsala göstərdiyi təsir əsasən birbaşa metodlarla, gəlir hissəsinin təsiri isə dolayısı yollarla həyata keçirilir. Deməli, büdcə xərclərinin istehsala təsiri daha dərin, tezgörünən olduğu üçün büdcə maddələrindəki struktur dəyişikliklərinin istehsala təsiri də çoxcəhətli olur. Təkrar istehsal prosesinin normal, tarazlıq şəraitində keçməsinin başlıca şərti olan bu amillər dövlətin büdcə siyasətinin əsasını təşkil edir.

Dövlətin iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına əsaslı təsir göstərən vergi siyasətinin, investisiya və sosial siyasətinin nəticələri öz əksini büdcənin gəlirləri və xərclərinin quruluşunda tapır. Amma büdcənin gəlir və xərclərinin quruluşundakı fərqlər onun hər bir maddəsi üzrə dövlət siyasətinin illər üzrə dəyişməsi nəticəsində əmələ gəlir. Başqa sözlə desək, dövlətin nəinki iqtisadi, həm də sosial, hərbi və s. siyasəti büdcənin gəlir və xərclərinin quruluşunun ildən-ilə dəyişməsinə gətirib çıxarır və iqtisadiyyata göstərdiyi təsirdə də öz əksini tapmış olur. Məsələn, ölkəmizin son 15 ildə büdcə quruluşundakı dəyişikliklərə nəzər salsaq, bunların hansı dərəcədə iqtisadiyyatda əks olunduğunu aydın görmək olar.

**Cədvəl 1**

**Azərbaycan Respublikası dövlət büdcəsinin gəlir və xərclərinin məbləği və ÜDM-də xüsusi çəkisi [9,12]**

| İllər | ÜDM-in həcmi, milyon manat | Büdcənin gəlirləri, milyon manat | Büdcənin xərcləri, milyon manat | Gəlirlər üzrə xüsusi çəki, %-lə | Xərclər üzrə xüsusi çəki, %-lə | Defisit, -Profisit,+ ÜDM-də xüsusi çəkisi, %-lə |
|---|---|---|---|---|---|---|
| 2003 | 7146,5 | 1220,9 | 1234,5 | 17,1 | 17,3 | -0,2 |
| 2005 | 12522,5 | 2055,2 | 2140,7 | 16,4 | 17,1 | -0,7 |
| 2010 | 42465,0 | 11403,0 | 11765,9 | 26,9 | 27,7 | -0,9 |
| 2013 | 56182,0 | 19496,3 | 19143,5 | 33,5 | 32,9 | 0,6 |
| 2014 | 59014,1 | 18400,6 | 18709,0 | 31,2 | 31,7 | -0,5 |
| 2015 | 54380,0 | 17498,0 | 17784,5 | 32,2 | 32,7 | -0,5 |
| 2016 | 60425,2 | 17505,7 | 17751,3 | 29,0 | 29,4 | -0,4 |
| 2017 | 70135,1 | 16516,7 | 17538,0 | 23,5 | 25,0 | -1,5 |
| 2018 | 79795,3 | 22508,9 | 22723,2 | 28,2 | 28,5 | -0,3 |

Cədvəldən göründüyü kimi, ölkənin dövlət büdcəsinin gəlirləri 2003-cü ildə 1220,9 milyon manat, 2005-ci ildə 2055,2 milyon manat, 2010-cu ildə 11403,0 milyon manat, 2015-ci ildə 17498,0 milyon manat olduğu halda, 2018-ci ildə 22723,2 milyon manat təşkil etmişdir ki, bu da 2003-cü illə müqayisədə 18,6 dəfə çoxdur ki, onun da Ümumi Daxili Məhsulda xüsusi çəkisi 28,2 faiz təşkil etmişdir. Həmçinin dövlət büdcəsinin xərcləri 2003-cü ildə 123,5 milyon manat, 2005-ci ildə 2140,7 milyon manat, 2010-cu ildə 11765,9 milyon manat, 2015-ci ildə 17784,5 milyon manat olduğu halda, 2018-ci ildə 22723,2 milyon manat təşkil etmişdir ki, bu da 2003-cü ilə nisbətən 18,4 dəfə çoxdur ki, onun da ÜDM-də xüsusi çəkisi 28,5 faiz təşkil etmişdir.

Ümumiyyətlə, dövlət büdcəsindən ayrı-ayrı sahələrə yönəldilən vəsaitlərin dinamikası aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl 2**

**Azərbaycan Respublikasının 2005-2018-ci illərdə dövlət büdcəsi xərclərində struktur dəyişikliklərinin dinamikası (yekuna görə faizlə) [9,12]**

| Göstəricilər | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
| Xərclərin cəmi | 100.0 | 100.0 | 100.0 | 100.0 | 100.0 | 100.0 | 100.0 |
| o cümlədən: İqtisadiyyata | 20.9 | 41.6 | 40.6 | 36.0 | 23.2 | 25.0 | 34.4 |
| Sosial mədəni tədbirlərə | 39.4 | 24.7 | 24.0 | 25.0 | 32.6 | 28.8 | 22.6 |
| onlardan: Təhsilə | 17.4 | 10.0 | 8.3 | 9.0 | 9.4 | 9.9 | 8.6 |
| Mədəniyyət, incəsənət, informasiya və digər fəaliyyətə | 2.1 | 1.2 | 1.3 | 1.3 | 1.3 | 1.2 | 1.2 |
| Bədən tərbiyəsi | 0.2 | 0.2 | 0.2 | 0.2 | 2.5 | 0.2 | 0.2 |
| Səhiyyə | 5.4 | 3.6 | 3.5 | 4.0 | 4.0 | 4.0 | 3.1 |
| Sosial müdafiə | 10.2 | 9.5 | 10.4 | 10.3 | 14.7 | 11.8 | 9.2 |
| Sosial təminat | 4.1 | 0.13 | 0.13 | 0.2 | 0.18 | 1.6 | 0.3 |
| Elm xərcləri | 1.3 | 0.8 | 0.7 | 0.6 | 0.6 | 0.7 | 0.5 |
| Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarına | 9.6 | 5.7 | 5.9 | 6.2 | 6.3 | 6.8 | 5.8 |
| Qanunvericilik və icra hakimiyyəti, yerli özünü idarəetmə orqanlarının saxlanılmasına | 5.8 | 2.6 | 2.4 | 2.4 | 2.6 | 3.1 | 2.8 |
| Sair xərclər | 23.0 | 24.7 | 26.4 | 29.7 | 34.6 | 35.6 | 33.9 |

Cədvəldən göründüyü kimi, dövlət büdcəsinin xərclərinin strukturunda baş vermiş bir sıra ciddi dəyişikliklərdən biri də sosial-mədəni tədbirlərə yönəldilən büdcə xərclərinin faiz nisbətində gah azalması, gah da yüksəlməsi meyli olmuşdur. Əgər 1990-cı ildə büdcənin xərc hissəsində bu xərclərin xüsusi çəkisi 44,3 faiz təşkil edirdisə, 1995-ci ildə 35,3%-ə enmiş, sonra 2000-ci ildə xeyli artaraq (50,1%) 1990-cı ilin səviyyəsini də ötüb keçmiş, 2005-2018-ci ildə isə yenə də müəyyən qədər azalmağa meyil (39,4% və 22,6%) göstərmişdir. Bu da respublikamızın dövlət büdcəsinin sosialyönümlü büdcədən investisiyayönümlü büdcəyə çevrilməsinə dəlalət etməklə ümumi iqtisadi inkişafımızı təcəssüm etdirir. Əgər bu faizlərin əsaslandığı mütləq rəqəmlərə nəzər salsaq, onda faiz göstəricisinin azalması səbəblərinin müsbət bir hal, yəni büdcənin ümumi xərcləri məbləğinin daha çox artmış olduğunu görmək olar. Əslində isə (mütləq rəqəmlərlə götürsək) son 15 ildə sosial-mədəni tədbirlərə yönəldilən büdcə xərcləri daim stabil olaraq artaraq 2005-ci ildə 843,3 milyon manat (35,8%), 2010-cu ildə 2901,4 milyon manat (24,7%), 2015-ci ildə 4442,9 milyon manat (29,2%), 2017-ci ildə 5051,0 milyon manat (28,8%), 2018-ci ildə isə 5126,7 milyon manat (22,6%) təşkil etmişdir. Ümumiyyətlə, 2005-ci ilə nisbətən 2018-ci ildə dövlət büdcəsindən sosial-mədəni tədbirlərə yönəldilən büdcə xərcləri 6,1 dəfə, ümumi xərclər isə 10,6 dəfə artmışdır.

Büdcə xərclərinin tərkibində iqtisadiyyat xərcləri də 2014-cü ilə qədər həm faiz nisbəti ilə, həm də mütləq rəqəmlərlə artmış, 2014-2017-ci illərdə nisbətən azalmış, 2018-ci ildə isə yenidən artmışdır. Belə ki, iqtisadiyyata yönəldilən xərclər 2005-ci ildə 444.7 milyon manat (20.8%), 2010-cu ildə 4889,9 milyon manat (41.6%), 2014-cü ildə 7598.7 milyon manat (40.6%) olduğu halda 2015-ci ildə 6408,7 milyon manat (36,0%), 2017-ci ildə isə 4394.3 milyon manat (25.0%) təşkil etmiş və 2018-ci ildə həm faiz nisbətində, həm də mütləq rəqəmlərlə artaraq 7822,7 milyon manat (34,4%) təşkil etmişdir.

Fikrimizcə, 2014-2017-ci illərdə dövlət büdcəsi xərclərində iqtisadiyyata yönəldilən hissənin azalmasının əsas səbəbi qlobal və regional səviyyədə gedən mürəkkəb iqtisadi proseslərin, neftin qiymətinin aşağı düşməsinin dünya iqtisadiyyatına inteqrasiya olunmuş Azərbaycan iqtisadiyyatına müəyyən təsirlərindən ibarətdir. Bu dövrdə xarici iqtisadi və maliyyə təzyiqləri nəticəsində müəyyən layihələrin icrasının nisbətən ləngidilməsi zərurəti yaranmışdır. Lakin respublikamızda həyata keçirilən çevik, məqsədyönlü və ardıcıl tədbirlər nəticəsində sonrakı illərdə makroiqtisadi sabitliyin bərpası, maliyyə dayanıqlığının təmin edilməsi, valyuta bazarının tarazlaşdırılması 2018-ci ildə dövlət büdcəsindən iqtisadiyyata yönəldilən xərclərin həm faiz, həm də mütləq rəqəmlərlə həcminin artmasına səbəb olmuşdur.

Bütövlükdə aparılmış araşdırmalar və təhlillər göstərir ki, 2018-ci il ölkəmiz üçün dərin iqtisadi islahatlar ili kimi yekunlaşmışdır. Belə ki, ölkədə makroiqtisadi sabitlik təmin olunmuş və iqtisadi artım 1.4 faiz təşkil etmişdir. Həmçinin qeyri-neft sektorunda artım 1.8 faiz olmuş, qeyri-neft sənaye məhsulu isə 9.1 faiz artmışdır. Əsas kapitala yönəldilmiş 17.2 milyard manat vəsaitin 11 milyard manatdan çoxu və ya 65.5 faizi qeyri-neft sektorunun payına düşmüş, cəmi kapitalın 69.7 faizini daxili sərmayələr təşkil etmişdir. Təqdirəlayiq haldır ki, beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin reallaşdırdığı islahatları yüksək qiymətləndiriblər. Belə ki, dünya Bankının "Doing Business-2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilmiş, biznes mühitinin əlverişliliyinə görə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb ki, bu mövqeyinə görə də bir çox ölkələri geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlmişdir [3,12].

Bazar münasibətləri şəraitində dövlət büdcəsinin formalaşması istiqamətlərinin araşdırılmasından aydın olur ki, büdcənin əsas gəlir mənbələrindən birini, məhz vergilər təşkil edir. Qeyd etmək yerinə düşər ki, 2018-ci ildə Azərbaycan Respublikası Vergilər Nazirliyinin xətti ilə büdcəyə daxilolmalar 7.4 milyard manat təşkil edib ki, bu da 2017-ci illə müqayisədə 6.4 faiz çox olmuşdur. Həmçinin Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə 3.4 milyard manat və ya 2017-ci illə müqayisədə 31.6 faiz çox vəsait daxil olmuşdur. Eyni zamanda digər gəlir mənbələri olsa da, büdcənin xərc istiqamətləri də daha genişdir ki, bu da dövlət məqsədlərinin reallaşdırılmasından irəli gəlir.

## Nəticə

Qlobal iqtisadi məkana sürətlə inteqrasiya olunan dövlətlərin sosial-iqtisadi məqsədləri dayanıqlı inkişaf tələblərindən, dayanıqlı inkişafa dair beynəlxalq sənədlərin tələblərindən qaynaqlanır. Başqa sözlə desək, ölkənin sosial-iqtisadi və digər məqsədləri əsasən dövlətin əsas maliyyə dayağı olan büdcə vəsaitləri hesabına reallaşır ki, bu da onun xərc istiqamətlərinin dayanıqlı inkişaf məqsədləri ilə uzlaşdırılmasını tələb edir. Dövlət büdcə vəsaitlərindən daha səmərəli istifadə edərək inkişafı daha zəruri olan sahələri bu və ya digər formada maliyyələşdirir, stimullaşdırır, dəstək verir və son nəticədə dayanıqlı iqtisadi inkişafa nail olur. Bu isə ona dəlalət edir ki, büdcə dövlətin əsas maliyyə dayağı kimi dayanıqlı iqtisadi inkişafın da başlıca təminatçısı rolunda çıxış edir. Müasir şəraitdə strateji məqsədlərin reallaşdırılması məqsədilə dövlət büdcəsi xərclərində dayanıqlı inkişafa yönəldilən hissənin artırılması iqtisadi sahələrin normal inkişafı üçün bir zərurət olmaqla iqtisadi tərəqqimizin və nəticə etibarilə isə dövlət büdcəsi gəlirlərinin formalaşmasının da mühüm şərtidir.

**Elşən İbrahimov**

**Dayanıqlı iqtisadi inkişafın təmin edilməsində dövlət büdcəsindən səmərəli istifadə yolları**

**Xülasə**

Məqalədə dayanıqlı iqtisadi inkişafın təmin edilməsində və geniş təkrar istehsal prosesində dövlət büdcəsinin rolu əsaslandırılmış, dövlətin əsas maliyyə sənədi kimi onun əhəmiyyəti şərh edilmişdir. Dövlətin əsas maliyyə dayağı olmaqla dövlət büdcəsinin sosial-iqtisadi siyasətin, dövlət tənzimlənməsinin və s. həyata keçirilməsində xüsusi rolu vurğulanmışdır. Qeyd edilmişdir ki, qloballaşma və inteqrasiya proseslərində səmərəli iştirak etmək, bu proseslərin təsiri ilə formalaşan çətin rəqabət mübarizəsində davam gətirmək, həmçinin qlobal iqtisadi məkanda milli və dövlətçilik maraqlarını təmin etmək, modern milli iqtisadiyyatın formalaşmasında dövlət büdcəsi xüsusi əhəmiyyət kəsb edir. Davamlı İqtisadi İnkişaf Konsepsiyasının reallaşdırılmasında dövlət büdcəsindən səmərəli istifadə istiqamətləri tədqiq edilmiş, müvafiq ümumiləşdirmələr əsasında təklif və tövsiyələr verilmişdir.

**Эльшан Ибрагимов**

**Пути рационального использования государственного бюджета в обеспечении устойчивого экономического развития**

**Резюме**

В статье обоснована роль государственного бюджета в обеспечении устойчивого экономического развития и в процессе широкого воспроизводства, изложено его значение, как основного финансового документа государства. Особо подчеркнута роль государственного бюджета в введении социально-экономической политики, государственного регулирования и т.д., являющегося основной финансовой опорой государства. Отмечено, что в вопросах активного участия в процессах глобализации и интеграции, противостояния в трудной конкурентной борьбе, складывающейся под влиянием этих процессов, а также обеспечения национальных интересов в глобальном экономическом пространстве, формирования модернизованной национальной экономики государственный бюджет приобретает особое значение. Исследованы направления рационального использования государственного бюджета в реализации концепции устойчивого экономического развития, на основе общих выводов даны предложения и рекомендации.

**Elshen Ibrahimov**

**The ways of efficient use of the state budget in the provision of sustainable economic development**

**Summary**

The role of the state budget in the provision of sustainable economic development and in the expanded reproduction process has been justified, its sense as the financial document of the

government has been explained in the article. A special role of the state budget in implementing social-economic policy, state regulation and etc. was emphasized, being a main financial support for the government. It has been mentioned that the state budget has a great importance in the efficient participation in the globalization and integration processes, standing in competitive fighting hardly formed due to the influence of this process as well as providing in the global economic sphere the national and governmental interest and forming of modern national economy. Rational use of the state budget in the realization of Sustainable Economic Development Concept has been researched and proposals and recommendations based on relevant general conclusions have been given in the article.

**Ədəbiyyat**

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 dekabr 2012-ci il.
2. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. https://president.az/files/future_az.pdf
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı. www.stat.gov.az
4. E.Ə.İbrahimov. "İqtisadiyyatın davamlı inkişafının maliyyə-büdcə tənzimlənməsi və stimullaşdırılması problemləri". Bakı-2018
5. İ.H.Alıyev və b. "Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf". Bakı: "Avropa nəşriyyatı. 2013
6. İ.Bayramov. "Azərbaycan iqtisadiyyatının diversifikasiyasının maliyyə təminatının gücləndirilməsi məsələləri". Bakı-2018
7. Azərbaycanın statistik göstəriciləri 2018. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2018
8. http://www.maliyye.gov.az
9. B.Ş.Qurbanov. "Büdcə gəlirləri və xərclərinin formalaşdırılmasının bəzi problemləri". AMEA İqtisad İnstitutu. Elmi əsərlər, 2009, № 4 səh.
10. C.Bulut, E.Süleymanov. "Dövlət maliyyəsi". Qafqaz Universiteti. Bakı-2013
11. Ə.X.Nuriyev. "Davamlı və tarazlı regional inkişaf". Bakı-2017
12. www.who.int.ru

Məqalə redaksiyaya daxil olmuşdur: 19.04.2019
Təkrar işlənməyə göndərilmişdir: 26.04.2019
Çap üçün qəbul olunmuşdur: 30.05.2019

"Statistika xəbərləri, № 3/2019"
İl 5, Cild 3, İyul-sentyabr, səh. 12-20

UOT: 338.5; 33:005

DOI: 10.33870/1012-1211-2019-3-2491

# HƏYAT KEYFİYYƏTİ VƏ İNNOVASİYALAR ARASINDA QARŞILIQLI ƏLAQƏNİN STATİSTİK TƏDQİQİ

***Yaşar Paşa***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Həyat keyfiyyətinin statistikası şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti, 81*
*e-poçt: yashar@azstat.org*

**Açar sözlər:** həyat keyfiyyəti, əhalinin həyat səviyyəsi, həyat keyfiyyətinin müəyyən edilməsinin metodoloji yanaşmaları, innovasiya, insan inkişafı indeksi, korrelyasiya əlaqəsi, reqressiya modeli.
**Ключевые слова:** качество жизни, уровень жизни населения, методологические подходы определения качества жизни, инновация, индекс человеческого развития, корреляционные отношения, регрессионная модель.
**Keywords:** quality of life, population living standards, methodological approaches in determining the quality of life, innovation, human development index, correlation relation, regression model.

İnkişaf etmiş ölkələrdə olduğu kimi iqtisadiyyatın normal inkişafının şərti texnoloji geriliyin aradan qaldırılmasıdır. Bütün dünyada baş verən dəyişikliklər yeni texnologiya və innovasiyalara əsaslanan iqtisadi inkişaf modelinə keçidin zəruri olduğu sübut etmişdir. İnnovativ iqtisadiyyat (bilik iqtisadiyyatı, elmtutumlu intellektual iqtisadiyyat) - innovasiya axını, sabit texnoloji tərəqqi, çox yüksək əlavə dəyər və texnoloji özülü olan yüksək texnologiyalı məhsulların istehsalı və ixracına əsaslanan iqtisadiyyatın bir növüdür. Bu halda, əsasən, mənfəəti maddi istehsal (sənaye iqtisadiyyatı), maliyyə təmərküzləşməsi (kapital) deyil, novatorluq və tədqiqatçı alimlərin intellekti, informasiya sferası yaradır [1]. Yüksək texnologiyalar və yeni innovativ qərarlar əhalinin həyat səviyyəsini yüksəltməklə ictimai həyatın bir çox istiqamətlərinə əhəmiyyətli təsirini göstərir. Belə ki, innovasiyalar ilə həyat səviyyəsi arasında əlaqə birtərəfli deyil. Yüksək həyat səviyyəsi öz növbəsində dövlətin və cəmiyyətin innovasiyalara olan marağının mühüm şərtlərindən biridir. Yalnız insanların bütün əsas tələbatlarının ödənildiyi cəmiyyətdə yeniliklərin mühüm olmasının dərk edilməsi mümkündür. Yeni texnologiyaların yaranması inkişaf etmiş infrastrukturu, əlverişli təhsil və insan kapitalının yüksək səviyyədə inkişafını tələb edir. Ölkənin inkişafı üçün təhsilə və elmə çəkilən xərclər zəruri olduğu kimi, innovasiyaların işlənməsi və tətbiqi üçün iqtisadi və sosial institutların da eyni zamanda yüksək inkişaf səviyyəsi tələb olunur. İnnovasiyalı iqtisadiyyatda yaşayan ölkələrdə yeni həyat tərzinə keçid, inkişaf etmiş infrastruktur və yüksək daxili tələbat şəraitində, mütərəqqi və yüksək mexanikləşdirilmiş istehsal fonunda baş vermişdir. Buradan belə nəticə çıxır ki, cəmiyyətin inkişafı innovativ texnologiyaları stimullaşdırır, bunlar isə öz növbəsində həyat keyfiyyətini daha yüksək səviyyəyə qaldırır [2].

Ölkənin dayanıqlı sosial-iqtisadi inkişaf strategiyasının məqsədini iqtisadi, sosial və mənəvi sahələrin intellektual-innovasiya inkişafı, indiki və gələcək nəsillər üçün ətraf mühitin qorunması əsasında həyat səviyyəsinin dinamik inkişafı, əhalinin mədəni irsinin, mənəviyyatının zənginləşdirilməsi təşkil edir. Dayanıqlı inkişafın əsas mənbələrindən biri insan kapitalı hesab edilir. Maddi nemətlərin və xidmətlərin istehlakçısı və istehsalçısı, yeni ideyaların yaradıcısı və onların həyata keçirilməsinin əsas subyekti olan insan bir şəxsiyyət kimi dayanıqlı sosial-iqtisadi inkişaf modelində mərkəzi yeri tutur.

Əhalinin həyat keyfiyyətinin yüksəldilməsi hər bir mütərəqqi cəmiyyətin əsas məqsədidir. Burada əsas strategiya insan inkişafına yönələn xərclərin artırılmasıdır. Həyat keyfiyyəti və insan inkişafı iqtisadiyyat və siyasət sahəsində qərarların qəbul edilməsinin başlıca meyarına çevrilir.

Dövlətin innovasiya siyasəti innovasiya fəaliyyətinin inkişafına və stimullaşdırılmasına yönəldilmiş sosial-iqtisadi siyasətin tərkib hissəsi olub, elmi tədqiqatlardan, işləmələrdən, təcrübi konstruktor işlərindən, elmi-texniki nailiyyətlərdən istifadə etməklə yeni məhsulların, habelə texnoloji prosesin yaradılması deməkdir. Bu siyasət yerli məhsullara mövcud rəqabətqabliyyətliliyinin yüksəldilməsi, dayanıqlı iqtisadi artımın təmin olunması, əhalinin həyat səviyyəsi və keyfiyyətinin, ölkənin müdafiə texnoloji və ekoloji təhlükəsizliyinin təmin edilməsi üçün formalaşdırılır və həyata keçirilir [3].

Müasir elmi təcrübədə əhalinin həyat səviyyəsi və keyfiyyətinin qiymətləndirilməsinin əhəmiyyətli sayda nümunəsi toplanmış olsa da, onu əks etdirən göstəricilər sistemi zaman etibarilə köhnəlir. Əhalinin həyat keyfiyyəti və səviyyəsini obyektiv, etibarlı və doğru əks etdirən ümumiləşdirici göstəricilərin və indikatorların əldə olunması həmişə aktual problem olaraq qalmışdır. Bu səbəbdən əhalinin həyat səviyyəsi və keyfiyyətinin qiymətləndirilməsinin müxtəlif üsullarının hansı potensiala malik olduğunu aydınlaşdırmaq böyük əhəmiyyət kəsb edir. Dar çərçivədə bu qiymətləndirmə dövlət tərəfindən məhdud ölçüdə ehtiyatların hansı uğurla bölüşdürüldüyünü göstərir. Daha geniş çərçivə anlayışında bu qiymətləndirmələr bütövlükdə cəmiyyətin idarə olunması və inkişafında dövlət siyasətinin effektivliyini əks etdirir [4]. Hazırda əhalinin həyat səviyyəsi və keyfiyyətinin qiymətləndirilməsinin çox sayda üsulları mövcuddur. Həyat səviyyəsi və keyfiyyətinin müəyyən edilməsinin iki əsas metodoloji yanaşması qeyd olunur: subyektiv və obyektiv.

Birinci yanaşma fərdlərin özləri tərəfindən həyatdan məmnunluq dərəcəsinin subyektiv qiymətləndirməsinə əsaslanır. Subyektiv olaraq təyin olunan bu yanaşma insanların rifahının qiymətləndirilməsinə əsaslanaraq, insanların öz həyatlarına olan subyektiv məmnuniyyətini göstərir. Bu vəziyyətdə insan bu və ya digər meyar əsasında həyatının yaxşı və ya pis olduğunu qiymətləndirir. Bu səbəbdən hər bir insanın rifahı yalnız sosioloji tədqiqatların nəticələrindən əldə edilə bilər. Nəticədə, həyat səviyyəsinin qiymətləndirilməsi həyatın bu və ya digər tərəfləri nəzərə alınmaqla əhalinin rəyi əsasında müəyyən edilir. Həyat keyfiyyətinin qiymətləndirilməsinin nəzəriyyə və praktikasında şəxsin subyektiv özünü qiymətləndirmə əsasında həyat keyfiyyəti indeksinin qurulması, ümumiyyətlə, daha perspektivli və reallığa uyğun olduğu hesab edilir. Fərz edilir ki, fərdin özü tərəfindən tələbatının ödənilməsi dərəcəsi və həyat şəraitinin təsviri daha düzgün mənzərəni əks etdirir. Aydındır ki, bu halda həyat keyfiyyəti indeksinin müəyyən edilməsi üzrə tədqiqatlar əhəmiyyətli sayda sorğuların nəticələrinə əsaslanır. Bu isə öz növbəsində tədqiqatın aparılması üçün böyük maliyyə vəsaitini nəzərdə tutur. Əhalidən bu məlumatların toplanması üçün aparılan müayinələr böyük maliyyə vəsaiti tələb etdiyindən bir sıra ölkələrdə həyat keyfiyyətinin qiymətləndirilməsi obyektiv yanaşmaya əsaslanır.

Obyektiv yanaşmadan istifadə zamanı həyat səviyyəsi obyektiv göstəricilər əsasında ekspert rəyi ilə qiymətləndirilir. Bu yanaşma əhalinin rifahının müxtəlif tərəflərini daha dolğun əks etdirən göstəricilər sisteminin, yaxud sosial-iqtisadi indikatorların qurulmasını nəzərdə tutur. Təyin olunmuş normativ və sosial standartlar əhalinin rifahının formalaşmasının faktiki şərtləri ilə müqayisə edilir. Obyektiv yanaşmadan istifadə geniş tətbiqinə baxmayaraq, daha az etibarlı sayılır. Belə ki, bu yanaşma rəsmi statistika məlumatlarına əsaslansa da, həyat keyfiyyətinin qiymətləndirilməsi üçün göstəricilərin sayına görə, hətta çox həcmli olmasına baxmayaraq, vəziyyəti dolğun əks etdirə bilmir. Müxtəlif metodikalarda həyat keyfiyyətini əks etdirən indeksin hesablanmasında istifadə olunan göstəricilər dəsti fərqlidir. Bu fərq həmçinin konkret ölkənin xüsusiyyəti ilə səciyyələnir. BMT-nin İnkişaf Proqramı və Dünya Bankının birgə layihələrində bir sıra göstəricilər tətbiq edilir. Həyat keyfiyyətinin daha dolğun qiymətləndirilməsi iki elmi-praktik istiqamət üzrə xarakterikdir. Bir istiqamət insan inkişafının ayrı-ayrı göstəricilərinə (dezaqreqasiya), digər istiqamət isə aqreqasiya olunmuş, sintetik göstəricilərə əsaslanır [4]. BMT-nin İnkişaf Proqramı mütəxəssisləri tərəfindən həyat keyfiyyətinin ümumi göstəricisi olan insan potensialının inkişaf indeksi işlənib hazırlanmışdır. Bu göstərici 1990-cı ildən etibarən hər il BMT-nin İnkişaf Proqramı tərəfindən "İnsan İnkişafı Hesabatı"nda nəşr olunur [5]. İnsan inkişafı indeksi müxtəlif ölkə və regionların həyat səviyyəsinin ümumi müqayisəsində standart vasitədir.

İnsan İnkişafı İndeksinin qiymətləndirilməsi üç indeksin (gözlənilən ömür uzunluğu, təhsil

indeksi, gəlir indeksi) həndəsi ortası şəklində həyata keçirilir və aşağıdakı düsturla ifadə olunur [6]:

$$HDI = \sqrt[3]{LEI * E \;\; * I} \qquad (1)$$

Burada, *LEİ* - gözlənilən ömür uzunluğu;

*Eİ* - təhsil indeksi;

*İİ* - gəlir indeksidir.

Əhalinin gəlir səviyyəsinə görə differensiasiya dərəcəsini səciyyələndirən göstəricilər innovasiya fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. İnnovasiya fəaliyyəti elmi tədqiqatların və işləmələrin nəticəsi hesab edilir.

Müasir iqtisadi və sosial inkişaf innovasiya fəaliyyətinin fəallaşdırılması texnologiyaların, məhsul və xidmətlərin geniş yayılmasını tələb edir. Buna görə innovasiya fəaliyyəti xüsusi metod və modellərin tətbiqini tələb edən kifayət qədər mürəkkəb bir prosesdir. İnnovasiyalar sosial-iqtisadi inkişafın adekvat modellərinin və proqnozlarının tərtib edilməsini, investisiyaların artırılmasını şərtləndirir. Dünya təcrübəsində innovasiya potensialının səviyyəsinin qiymətləndirilməsi müxtəlif üsullarla həyata keçirilir [2]:

- Ölkənin rəqabət qabiliyyətinin qiymətləndirilməsinin inteqral göstəricisinin tərkib hissəsi kimi elmi və texniki potensial indeksi;
- Avropanın innovasiya şkalası göstəricilərinə uyğun olaraq ölkənin innovativ fəaliyyətinin qiymətləndirilməsi sistemi;
- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının metodologiyasına əsasən ölkələrin innovasiya fəaliyyətinin qiymətləndirilməsi üçün göstəricilər sistemi;
- Biliyin qiymətləndirilməsi metodologiyası (KAM - the Knowledge Assessment Methodology);
- Global innovasiya indeksi;
- Beynəlxalq innovasiya indeksi;
- İnnovasiya səviyyəsinə görə ölkələrin reytinqi.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının metodoloji tövsiyələrinə uyğun olaraq əhalinin həyat səviyyəsi ilə innovasiyalar arasında qarşılıqlı əlaqəni tədqiq etmək üçün Dünya bankının hazırladığı aşağıdakı göstəricilərdən istifadə olunur [7]:

1. Ölkə daxilində əməkqabiliyyətli hər şəxsə düşən il ərzində açılan yeni müəssisələrin sayı (qeydiyyata alınmış yeni müəssisələrin sayı / əməkqabiliyyətli yaşda əhali, cəmi);
2. Tədqiqat və işləmələrə çəkilən xərclər, ÜDM-ə nisbətən faizlə;
3. Yüksək texnologiyalı məhsul ixracının payı, istehsal edilən məhsulların ixracına görə faizlə;
4. Xidmət sektorunda müəssisələrin gəlirlərinin payı, ÜDM-ə nisbətən faizlə;
5. Sənaye müəssisələrinin gəlirlərinin payı, ÜDM-ə nisbətən faizlə;
6. Şəxsi biznesə ayrılmış kreditlərin həcmi, ÜDM-ə nisbətən faizlə;
7. Qanunların hüquqi qüvvə əmsalı (xüsusi göstərici, burada 0 – hüquqi qanunlara həddindən artıq zəif riayət etmə, 10 – güclü riayət etmə);
8. Gəlir vergisi, mənfəət və kapital artımı, ümumi vergi yığımına nəzərən faizlə.

Bu göstəricilər üzrə məlumatlar aşağıdakı cədvəldə verilir [8].

**Cədvəl 1**

**Ölkə üzrə həyat keyfiyyəti və innovasiyaları əks etdirən göstəricilər [11;8]**

| İllər | İnsan inkişafı indeksi (İİİ) | Ölkə daxilində əmək-qabiliyyətli hər şəxsə düşən il ərzində açılan yeni müəssisələrin sayı | Tədqiqat və işləmələrə çəkilən xərclər, ÜDM-ə nisbətən, %-lə | Yüksək texnologiyalı məhsul ixracının payı, istehsal edilən məhsulların ixracına nəzərən %-lə | Xidmət sektorunda müəssisələrin gəlirlərinin payı, ÜDM-ə nisbətən %-lə | Sənaye müəssisələrinin gəlirlərinin payı, ÜDM-ə nisbətən %-lə | Şəxsi biznesə ayrılmış kreditlərin həcmi, ÜDM-ə nisbətən %-lə | Hüquqi qanun- ların gücü (xüsusi göstərici, burada 0 - hüquqi qanunlara həddindən artıq zəif riayət etmə, 10 - güclü riayət etmə) | Gəlir vergisi, mənfəət və kapital artımı, ümumi vergi yığımına nəzərən %-lə |
|---|---|---|---|---|---|---|---|---|---|
| | y | $X_1$ | $X_2$ | $X_3$ | $X_4$ | $X_5$ | $X_6$ | $X_7$ | $X_8$ |
| 2008 | 0,719 | 6130 | - | 0,9233 | 23,6589 | 4,7056 | 15,5934 | - | 17,6790 |
| 2009 | 0,736 | 4676 | - | 0,9831 | 31,3212 | 5,5259 | 19,0662 | - | 13,1926 |
| 2010 | 0,740 | 3535 | 0,2 | 1,0839 | 27,9336 | 4,7378 | 17,8848 | - | 10,1890 |
| 2011 | 0,741 | 4170 | 0,2 | 1,3477 | 27,3238 | 3,9883 | 17,2814 | - | 12,0772 |
| 2012 | 0,745 | 4652 | 0,2 | 7,2685 | 29,2083 | 4,2412 | 19,8113 | - | 13,5923 |
| 2013 | 0,752 | 7159 | 0,2 | 13,4232 | 30,9140 | 4,2157 | 25,2116 | 2 | 13,8126 |
| 2014 | 0,758 | 6785 | 0,2 | 7,0025 | 33,6159 | 4,7070 | 30,6380 | 2 | 13,9837 |
| 2015 | 0,758 | 5210 | 0,2 | 2,5339 | 39,9960 | 4,9908 | 38,5208 | 2 | 17,2933 |
| 2016 | 0,757 | 7218 | 0,2 | 2,0835 | 38,6925 | 4,9299 | 32,8689 | 2 | - |
| 2017 | 0,757 | | 0,2 | 1,9537 | 37,4841 | 4,7212 | 22,1635 | 2 | - |

Tədqiqat və işləmələrə çəkilən xərclər, ÜDM-ə nisbətən, faizlə

Əhalinin həyat keyfiyyəti ilə innovasiyalar arasında qarşılıqlı əlaqəni tədqiq etmək üçün ilk növbədə cədvəl 1-də təsvir olunmuş göstəricilər arasında korrelyasiya əlaqəsini yoxlamaq lazımdır. Microsoft Excel proqram paketi vasitəsilə 2008-2015-ci illəri əhatə edən göstəricilər üzrə korrelyasiya əlaqəsi hesablanmışdır:

**Cədvəl 2**

**Göstəricilər arasında korrelyasiya əlaqəsi**

| | **Y** | **$X_1$** | **$X_3$** | **$X_4$** | **$X_5$** | **$X_6$** | **$X_8$** |
|---|---|---|---|---|---|---|---|
| *Y* | 1 | | | | | | |
| $X_1$ | 0,24 | 1 | | | | | |
| $X_3$ | 0,54 | 0,67 | 1 | | | | |
| $X_4$ | 0,82 | 0,17 | 0,19 | 1 | | | |
| $X_5$ | -0,11 | -0,09 | -0,45 | 0,36 | 1 | | |
| $X_6$ | 0,82 | 0,39 | 0,30 | 0,94 | 0,20 | 1 | |
| $X_8$ | -0,09 | 0,54 | -0,01 | 0,26 | 0,21 | 0,42 | 1 |

Korrelyasiya təhlili göstərir ki, *Y* göstəricisinin (insan inkişafı indeksinin) $X_1$, $X_5$ və $X_8$ göstəriciləri ilə korrelyasiya əlaqəsi çox zəif (uyğun olaraq 0.24, -0.11 və -0.09), $X_3$ göstəricisi ilə orta (0.54), $X_4$ və $X_6$ göstəriciləri ilə yüksəkdir (0.82). Bu səbəbdən həyat keyfiyyətini əks etdirən insan inkişafı indeksinin innovasiyalarla əlaqəsinin xətti model əsasında statistik tədqiqini aparmaq üçün aşağıdakı faktor göstəriciləri istifadə oluna bilər:

$X_3$ - yüksək texnologiyalı məhsul ixracının payı, məhsulların ixracına nəzərən %-lə;

$X_4$ - xidmət sektorunda müəssisələrin gəlirlərinin payı, ÜDM-ə nisbətən %-lə;

$X_6$ - şəxsi biznesə ayrılmış kreditlərin həcmi, ÜDM-ə nisbətən %-lə.

Məlumdur ki, modelə daxil olan faktorların öz aralarında yüksək korrelyasiya əlaqəsi olmamalıdır. Cədvəl 2-dən göründüyü kimi, $X_3$ göstəricisi ilə $X_4$ və $X_6$ göstəriciləri arasında korrelyasiya əmsalı müvafiq olaraq 0.19 və 0.30 təşkil edir. Digər tərəfdən $X_4$ ilə $X_6$ arasında bu

əmsal 0.94 təşkil etdiyindən bu göstəricilərdən yalnız biri, $X_4$ göstəricisi modelə daxil edilir.

Beləliklə, çoxölçülü xətti reqressiya modelini qurmaq üçün 2 amil göstəricisindən, yəni yüksək texnologiyalı məhsul ixracının payı ($X_3$), xidmət sektorunda müəssisələrin gəlirlərinin payı ($X_4$) istifadə olunur, tədqiq olunan nəticə göstəricisi isə insan inkişafı indeksidir ($Y$).

Modelə daxil olan göstəricilərin statistik xarakteristikaları aşağıdakı cədvəldə verilir.

**Cədvəl 3**

**Əhalinin həyat keyfiyyəti və innovasiyaları əks etdirən göstəricilər üzrə təsviri statistika**

| Göstəricilər | Orta qiymət | Standart xəta | Median | Standart kənar-laşma | Disper-siya | Mini-mum | Maksi-mum | Cəmi | Variasiya əmsalı |
|---|---|---|---|---|---|---|---|---|---|
| İnsan inkişafı indeksi | 0,746 | 0,004 | 0,749 | 0,013 | 0,0002 | 0,719 | 0,758 | 7,463 | 1,704 |
| Yüksək texnologiyalı məhsul ixracının payı, istehsal edilən məhsulların ixracına görə %-lə | 3,860 | 1,301 | 2,019 | 4,115 | 16,935 | 0,923 | 13,423 | 38,603 | 106,603 |
| Xidmət sektorunda müəssisələrin gəlirlərinin payı, ÜDM-ə nisbətən %-lə | 32,015 | 1,696 | 31,118 | 5,363 | 28,758 | 23,659 | 39,996 | 320,148 | 16,750 |
| Şəxsi biznesə ayrılmış kreditlərin həcmi, ÜDM- ə nisbətən %-lə | 23,904 | 2,435 | 20,987 | 7,699 | 59,268 | 15,593 | 38,521 | 239,040 | 32,206 |

2008-2017-ci illər üzrə hesablanmış statistik xarakteristikaların təhlili göstərir ki, bu illər ərzində ən çox tərəddüd edən göstərici yüksək texnologiyalı məhsul ixracının payı (variasiya əmsalı 106.603) üzrə müşahidə edilir. Digər göstəricilər üzrə böyük variasiya baş verməmişdir. Aşağıdakı şəkildə bu göstəricinin qrafiki təsvir olunmuşdur.




Şəkil 1. Göstəricilərin 2008-2017-ci illər üzrə dinamikası

Şəkildən göründüyü kimi, xidmət sektorunda müəssisələrin gəlirlərinin payı ($X_4$) və şəxsi biznesə ayrılmış kreditlərin həcmi ($X_6$) göstərkiciləri üzrə 2011-ci ildən 2015-ci illədək artım, 2015-ci ildən etibarən azalma müşahidə olunmuşdur. Yüksək texnologiyalı məhsul ixracının payı ($X_3$) üzrə 2011-ci ildən 2013-cü ilədək artım qeyd olunmuşdur. 2013-cü ildən etibarən bu göstərici üzrə də azalma müşahidə olunmuşdur.

Reqressiya modeli SPSS proqram paketindən istifadə etməklə çoxölçülü xətti tənlik vasitəsilə həll olunur:

$$Y=a_0+a_1*X_3+a_2*X_4 \qquad (2)$$

Aparılmış hesablamaların nəticəsi aşağıdakı cədvəllərdə verilir.

**Cədvəl 4**

| *Modelin xülasəsi* [b] | | | | | |
|---|---|---|---|---|---|
| Model | Çoxölçülü R | R-kvadratı | Normalaşdırılmış R-kvadratı | Standart xəta | Darbin-Uotson |
| 1 | 0,928[a] | 0,861 | 0,821 | 0,00538 | 1,510 |
| a. Proqnoz dəyişənlər: (Sabit kəmiyyət) $X_4$, $X_3$ | | | | | |
| b. Asılı dəyişən: Y | | | | | |

**Cədvəl 5**

| *Dispersiya təhlili* [b] | | | | | | |
|---|---|---|---|---|---|---|
| Model | | SS | df | MS | F | F-in əhəmiyyəti |
| 1 | Reqressiya | 0,001 | 2 | 0,001 | 21,673 | 0.001[b] |
| | Qalıq | 0,000 | 7 | 0,000 | | |
| | Yekun | 0,001 | 9 | | | |
| a. Proqnoz dəyişənlər: (Sabit kəmiyyət) $X_4$, $X_3$ | | | | | | |
| b. Asılı dəyişən: Y | | | | | | |

**Cədvəl 6**

| *Əmsallar* [a] | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Model | | Standartlaşdırılmamış əmsallar | | Standartlaşdırılmış əmsallar | *t-statistika* | *P-qiymәti* | Kolleniarlıq statistikası | |
| | | B | *Standart xəta* | Beta | | | Tolerantlıq | VIF |
| 1 | Sabit əmsal *($a_0$)* | 0,677 | 0,011 | | 61,839 | 0,000 | | |
| | X3 *dəyişəni ($a_1$)* | 0,001 | 0,000 | 0,359 | 2,546 | 0,038 | 1,000 | 1,000 |
| | X4 *dəyişəni ($a_2$)* | 0,002 | 0,000 | 0,853 | 6,049 | 0,001 | 1,000 | 1,000 |
| a. Asılı dəyişən: *Y* | | | | | | | | |

Bu modelin və onun parametrlərinin nə dərəcədə etibarlı olması reqressiya tənliyinin nəticələrinə əsaslanır [9].

Modelin keyfiyyətinin mühüm xarakteristikalarından biri çoxölçülü determinasiya və korrelyasiya əmsalı hesab olunur. Cədvəl 4-dən göründüyü kimi, korrelyasiya əmsalının R=0.928 qiyməti əlaqənin sıx olmasını əks etdirir. Determinasiya əmsalının ($R^2$=0.86) yüksək olması modelin adekvat olduğunu bildirir. Belə ki, (2) modelində asılı dəyişənlərin variasiyasının 86%-i modelə daxil olan amillərlə, 14%-i (1- $R^2$=1-0.86=0.14) isə modeldə nəzərə alınmayan amillərlə izah olunur.

Çoxölçülü standart xəta (S=0.00538) 0-a yaxın olduğundan modelin daha yaxşı təmsil olunduğunu ifadə edir.

Modelin dəyişənlər arasında statistik asılılığı adekvat şəkildə əks etdirdiyini yoxlamaq üçün Darbin-Uotson meyarlarından istifadə olunur. Yuxarıdakı cədvəl 4-də Darbin-Uotson statistikasının qiyməti: DW=1.51 verilmişdir. Asılı olmayan dəyişənlərin sayı k=2, vahidlərin sayı n=10 olduğundan xətanın α=0.01 qiymətində Darbin-Uotson meyarı üçün kritik sərhədlər cədvəlindən $d_L$=0.466 (aşağı sərhədi) və $d_U$=1.333 (yuxarı sərhədi) qiymətləri tapılır [10]. Buradan göründüyü kimi, DW=1.51>$d_L$ şərti ödənildiyindən xətaların paylanması statistik qeyri-asılıdır, yəni reqressiya modeli dəyişənlər arasında statistik asılılığı adekvat şəkildə əks etdirir.

Çoxölçülü reqressiya modelinin statistik əhəmiyyətinin digər meyarı *F-statistika* adlanan Fişer meyarıdır. Cədvəl 5-də model əsasında alınmış *F*- Fişer meyarının qiyməti (*F*=21.673) onun nəzəri qiymətilə müqayisə olunur.

Fişer meyarının kritik həddi sərbəstlik dərəcələri əsasında müəyyən edilir:

$$df1=k=2 \text{ və } df2=n-k-1=10-2-1=7$$

Burada, *k* – faktorların sayı; *n* – müşahidələrin sayıdır. α=0.01 qiymətində Fişer meyarının cədvəl üzrə kritik qiyməti $F_{0.01,2,7}$=9.55 olmuşdur.

Fişer meyarının hesablanmış qiymətinin (F=21.673) cədvəl üzrə verilmiş nəzəri qiymətindən ($F_{0.01,2,7}$=9.55) böyük olması modelin statistik əhəmiyyətinin (adekvatlılığın) olduğunu təsdiqləyir.

Reqressiya əmsallarının etibarlılığının statistik qiymətləndirilməsi *t*-Stüdent meyarı vasitəsilə həyata keçirilir. Cədvəl 6-da *t*-statistikanın qiymətləri verilir:

$$|t_1| =2,546, \ |t_2|=6,049.$$

*t*-Stüdent paylanmasının nəzəri qiyməti isə $t_{0.05,10-2-1}$=2.365 kimi qiymətləndirilir. Yuxarıda verilmiş $t_1$, $t_2$ əmsalları nəzəri qiymətdən böyük olduğundan həmin əmsallar statistik olaraq əhəmiyyətli hesab olunur.

Çoxölçülü reqressiya modelinin qurulmasında mühüm şərtlərdən biri faktorun təsirinin bir-birindən asılı olmamasıdır. Faktorların multikollinearlığı bu şərti pozur. Cədvəl 2-dən göründüyü kimi, modelə daxil olan faktorlar arasında korrelyasiya əlaqəsi zəifdir. Bu multikollinearlığın olmadığını ifadə edir. Digər şərtlərdən biri Cədvəl 6-da verilmiş kollinearlıq statistikası ilə müəyyən edilir. Tolerantlıq əmsalının qiymətinin 0.2, yaxud 0.1-dən böyük, VİF-in isə 5, yaxud 10-dan kiçik olması multikollinearlığın olmadığını şərtləndirir. Cədvəldən göründüyü kimi, hər iki şərt ödəndiyindən faktorlar arasında multikollinearlıq müşahidə olunmur.

Modelin keyfiyyəti haqqında fikir irəli sürmək üçün aproksimasiyanın orta xətası düsturundan da istifadə olunur:

$$A=\frac{1}{n}\sum\left|\frac{(Y_{fakt}-Y_{nezeri})}{Y_{fakt}}\right|*100\% \qquad (3)$$

Göründüyü kimi, alınan nəticə (0.52%) xətti reqressiya modelinin ilkin məlumatlarına uyğunluğunu təsdiq edir.

Aparılmış təhlil göstərir ki, qurulmuş model həyat keyfiyyətinə (insan inkişafı indeksinə) təsir edən amillərin tədqiqi üçün yararlıdır. Cədvəl 6-dan göründüyü kimi, $a_0$=0.677, $a_1$=0,001, $a_2$=0,002 əmsallarını (2) tənliyində nəzərə alsaq:

$$Y= 0.677+0.001* X_3+0.002 *X_4$$

Reqressiya təhlilinin son mərhələsini bu modelin iqtisadi mənasının şərh edilməsi təşkil edir. Bu məqsədlə onun statistik və riyazi mahiyyəti müəyyən edilir. İqtisadi izahı modelə daxil olan hər bir amil əlamətinin nəticə əlamətinə nə şəkildə təsir etdiyini aydınlaşdırmaqdan başlayır. Reqressiya əmsalları nə qədər böyük olarsa, amillərin nəticə əlamətinə təsiri bir o qədər güclü olar. Reqressiya əmsallarının işarəsi nəticə əlamətinə təsirin xarakterini müəyyən edir. Əgər əmsal müsbət işarəlidirsə (+), amilin artması nəticə əlamətinin də artmasına səbəb olur. Əgər əmsal mənfi işarəlidirsə (–), amilin artması ilə nəticə əlaməti azalmış olur.

Tərtib edilmiş model göstərir ki, yüksək texnologiyalı məhsul ixracının payının ($X_3$) 10 faiz artması (digər amilin dəyişməz qalması şərti ilə) insan inkişafı indeksinin orta hesabla 0,01 vahid artmasına, xidmət sektorunda müəssisələrin gəlirlərinin payının ($X_4$) 10 faiz artması isə insan inkişafı indeksinin orta hesabla 0,02 vahid artmasına səbəb olur.

Reqressiya modelini standartlaşdırılmış şəklə gətirməklə bu amillərdən hansının insan inkişafı indeksinə daha çox təsir etdiyini müəyyən etmək olar. Yuxarıdakı cədvəldə (cədvəl 6) standartlaşdırılmış əmsalların qiyməti hesablanmışdır:

$X_3$ dəyişəni üzrə: $\beta_1$ = 0,359, $X_4$ dəyişəni üzrə: $\beta_2$ = 0,853.

Bu halda standartlaşdırılmış üsulla tərtib edilmiş reqressiya tənliyi aşağıdakı şəkildə olur:

$$t_y = \beta_1 t_{X3} + \beta_2 t_{X4} = 0.359\, t_{X3} +0.853\, t_{X4}.$$

Reqressiya modelinin standartlaşdırılmış əmsallarını müqayisə etsək, belə nəticəyə gəlmək olar

ki, insan inkişafı indeksinə daha çox təsir edən göstərici xidmət sektorunda müəssisələrin gəlirlərinin payıdır. Belə ki, hesablanmış əmsallardan mütləq qiymətcə böyük olan (0.853) göstəricidir.

## Nəticə

Aparılan tədqiqatın nəticəsi iqtisadiyyatda innovasiya fəaliyyətinin gücləndirilməsinin həyat keyfiyyətinə müsbət təsirinin olduğunu göstərir. Bu sahədə əsas məsələlərdən biri elm ilə istehsalın vəhdətidir. Məlumdur ki, tədqiqat və işləmələr əsas etibarilə dövlət tərəfindən maliyyələşdirilir. Özəl sektor tərəfindən innovasiyalara çəkilən xərclər sahibkarlara kommersiya mənfəətinin artırılması, tədqiqat və araşdırmalar isə praktiki məqsədlər üçün faydalı olardı. Belə ki, müəssisələrin elmi təşkilatlarla əməkdaşlığı konkret istehsal məsələlərinin həllinə böyük yardım göstərə bilər. Texnoloji tərəqqiyə nail olmuş ölkələrin təcrübəsi bunu əyani şəkildə sübut edir. Əhalinin həyat səviyyəsinin yüksəldilməsində qarşıya qoyulan məsələlərə innovasiya mühitinin daha da yaxşılaşdırılması, texnologiyaların transferinin inkişaf etdirilməsi, kiçik innovasiya (startap) şirkətlərinin fəaliyyətinin stimullaşdırılması, əhalinin səhiyyə və sosial problemlərinin həlli daxil edilir. Mövcud problemlərin yalnız kompleks həlli ölkənin beynəlxalq aləmdə layiqli mövqe tutmasına imkan yaradar.

**Yaşar Paşa**

**Həyat keyfiyyəti və innovasiyalar arasında qarşılıqlı əlaqənin statistik tədqiqi**

**Xülasə**

Məqalədə əhalinin həyat keyfiyyəti və onunla sıx bağlı olan həyat səviyyəsi haqqında ümumi məlumat verilmişdir. Əhalinin həyat səviyyəsi və keyfiyyətinə siyasi, iqtisadi, sosial, təbii, ekoloji və mənəvi amillərin, eləcə də elmi-texniki inkişafın təsiri vurğulanmışdır. Bununla yanaşı, məqalədə həyat keyfiyyətinin müəyyən edilməsinin metodoloji yanaşmaları öz əksini tapmışdır. Həyat keyfiyyətinin ümumiləşdirici göstəricisi kimi insan inkişafı indeksi göstərilmişdir. İnnovasiya fəaliyyəti haqqında məlumat verilmiş və həyat keyfiyyətinin innovasiyalarla qarşılıqlı əlaqəsinin statistik tədqiqi aparılmışdır. Statistik tədqiqat Dünya Bankının hazırladığı məlumatlara əsaslanmışdır. İnsan inkişafı indeksi ilə innovasiyalar arasında əlaqənin ekonometrik modeli tərtib edilmişdir.

**Яшар Паша**

**Статистическое исследование взаимосвязи между качеством жизни и инновациями**

**Резюме**

В статье представлена общая информация о качестве и уровне жизни населения. Подчеркнуто влияние политических, экономических, социальных, природных, экологических и моральных факторов, а также научно-технического развития на качество и уровень жизни населения. Кроме того, в статье изложены методологические подходы для определения качества жизни. Индекс развития человеческого потенциала был представлен как обобщенный показатель качества жизни. Представлена информация об инновационной деятельности и проведен статистический анализ взаимосвязи качества жизни и инноваций. Статистическое исследование было основано на данных Всемирного банка. Была составлена эконометрическая модель взаимосвязи между индексом человеческого развития и инновациями.

**Yashar Pasha**

**Statistical research of the relationship between quality of life and innovations**

**Summary**

The article provides general information about the quality of life and living standards of the population. The influence of political, economic, social, natural, environmental and moral factors, as well as scientific and technological development on the quality and living standards of the population was emphasized. In addition, the article sets out methodological approaches to determine the quality of life. As a generalized indicator of quality of life, the human development index was presented. Information on innovation activity is presented and a statistical analysis of the relationship between

quality of life and innovation is carried out. Statistical research was based on data from the World Bank. It was compiled an econometric model of the relationship between the human development index and innovation.

**Ədəbiyyat**

1. Wikipedia. URL: http:// ru.wikipedia.org/Инновационная_экономика
2. Марина Юрьевна Архипова, Андрей Владимирович Лебедев. Инновации и уровень жизни населения: взаимосвязь, тенденции, перспективы. Экономика, Статистика и Информатика №6, 2012.
3. elibrary.bsu.az/yenii%5Ciqtisadkitablar%5C226_innovasiya.pdf
4. Андреева О. Н. Способы оценки уровня и качества жизни населения. Ойкумена. 2013. №2. УДК 332.145(470:571.6).
5. United Nations Development Programme. Human Development Reports. Human Development Data (1990-2017). http://hdr.undp.org/en/data
6. https://ru.wikipedia.org/wiki/ Индекс_человеческого_развития
7. Влияние инновационных процессов на качество жизни населения республики Беларусь. Чиркова Ирина Юрьевна Белорусский государственный университет, Минск. Хацкевич Геннадий Алексеевич Белорусский государственный университет, Институт бизнеса и менеджмента технологий, Минск.
8. База данных Мирового Банка. URL: https://databank.worldbank.org
9. В.Н.Сулицкий. Методы статистического анализа в управлении: Учеб. Пособие. - М. Дело, 2002. - 520 с.
10. http://www.mathtask.ru/0014-mathematical-tables.php#tt14. Математические таблицы.
11. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı: www.stat.gov.az

Məqalə redaksiyaya daxil olmuşdur: 06.05.2019
Təkrar işlənməyə göndərilmişdir: 10.05.2019
Çap üçün qəbul olunmuşdur: 30.05.2019

UOT: 33:311
DOI: 10.33870/1012-1211-2019-3-2492

# ENERJİ TƏHLÜKƏSİZLİYİNİN STATİSTİK TƏDQİQİ

***Saleh Mövlamov***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi*
*Elmi araşdırmalar və statistik tədqiqatlar şöbəsinin aparıcı iqtisadçısı, i.ü.f.d*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: movlamov@azstat.org*

***Şahin Mustafayev***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi*
*Statistik innovasiyaların tətbiqi şöbəsinin iqtisadçısı*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: shahinm@azstat.org*

**Açar sözlər**: enerji təhlükəsizliyi, enerji istehlakı, yanacaq-enerji kompleksləri, iqtisadiyyat sahələri, siyasi enerji təhlükəsizliyi, iqtisadi enerji təhlükəsizliyi, texnogen enerji təhlükəsizliyi, beynəlxalq enerji xartiyası.
**Ключевые слова:** энергетическая безопасность, энергопотребление, топливно-энергетические комплексы, отрасли экономики, политическая энергетическая безопасность, экономическая энергетическая безопасность, техногенная энергетическая безопасность, международная энергетическая хартия.
**Keywords:** energy security, energy consumption, fuel and energy complexes, economic sectors, political energy security, economic energy security, technology-related energy security, international energy charter.

Hazırkı dövrdə neft sektoru Azərbaycan iqtisadiyyatının əsasını təşkil edir. 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi” Azərbaycan Respublikasının uğurlu inkişafını əvvəlcədən müəyyən edən neft strategiyasının həyata keçirilməsinə başlanmışdır.

Dövlətin energetika strategiyasının əsas məqsədi mövcud yanacaq-enerji ehtiyatlarından və energetika potensialından maksimum səmərəli istifadə sayəsində iqtisadiyyatın inkişafının tam təmin etməklə xalqın rifah səviyyəsinin daha da yüksəldilməsidir.

Energetika respublikanın inkişafı və nəzərdə tutulan sosial-iqtisadi proqramların həllini şərtləndirən baza sahəsi olmaqla şübhəsiz enerji təhlükəsizliyi və iqtisadi müstəqilliyin həlli problemləri ilə sıx əlaqədardır. Bu sfera üçün rəqabət strategiyasının seçilməsi indi və yaxın gələcəkdə əsas məsələ olan iqtisadiyyatın və sosial sahənin inkişaf dinamikasını nəzərə almaqla bütün sahələrin tarazlaşdırılmış, davamlı, ekoloji cəhətdən təmiz enerji ilə təchiz edilməsinin həlli ilə əlaqəlidir.

Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunmasının strateji əsaslarının formalaşması və onun reallaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 6 dekabr tarixli Fərmanı ilə Sənaye və Energetika (indiki Energetika) Nazirliyi yaradılmışdır. Bu nazirlik ölkədə enerji resurslarına tələbatın ödənilməsi üçün tədbirlər görür, kompleksdə enerji resurslarından istifadənin, itkilərin və texnoloji sərfin azaldılmasına yönəldilmiş tədbirləri həyata keçirir, kompleksin inkişafı üzrə Dövlət Proqramlarının hazırlanması və həyata keçirilməsini təmin edir, kompleksə daxil olan iri dövlət şirkətlərinin gəlir və xərclər smetalarını tərtib edilməsində iştirak edir. Həmçinin enerji ehtiyatlarının kəşfiyyatı, işlənməsi, hasilatı (istehsalı), emalı, nəql edilməsi və bölüşdürülməsi (paylanması) nazirliyin səlahiyyətinə daxildir [1]. Enerji təhlükəsizliyinin statistik tədqiqi  Dövlət Statistika Komitəsinin “Azərbaycanın energetikası” statistika məcmuəsində tərtib

edilmiş enerji balansı, BMT, Beynəlxalq Enerji Agentliyi, Avrostat və digər beynəlxalq təşkilatların və 21 ölkənin, o cümlədən Azərbaycanında üzv olduğu "Oslo Qrupu" tərəfindən hazırlanmış və BMT-nin statistika komissiyasının 2011-ci ilin fevral ayında təşkil olunmuş 42-ci sessiyasında qəbul edilmiş "Enerji statistikasına dair beynəlxalq tövsiyələr"in tələblərinə uyum iqtisadiyyatın müxtəlif fəaliyyət sahələri üzrə tərtib edilmiş enerji balansı cədvəllərindən istifadə edilmişdir.

Azərbaycanda enerji təhlükəsizliyinin statistik tədqiqi üçün enerji ehtiyatlarının istehlakı aşağıdakı kimidir:

**Cədvəl 1**

**1990-2017-ci illərdə Azərbaycanın əsas iqtisadi sahələri üzrə enerji ehtiyatlarının istehlakı [8]**

milyon ton (neft ekvivalenti)

| İqtisadiyyatın sahələri | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Sənaye | 8.70 | 4.45 | 1.33 | 1.25 | 0.74 | 1.24 | 1.44 | 1.10 |
| Nəqliyyat | 2.20 | 1.20 | 0.85 | 1.49 | 1.72 | 2.39 | 2.24 | 2.56 |
| Digər | 4.93 | 3.05 | 3.67 | 4.06 | 3.92 | 4.30 | 4.55 | 4.55 |
| Qeyri-enerji məqsədli | 0.88 | 0.83 | 0.68 | 1.25 | 0.53 | 0.78 | 0.76 | 1.06 |
| Cəmi | 16.71 | 9.53 | 6.53 | 8.05 | 6.91 | 8.71 | 8.99 | 9.27 |

Cədvəldən göründüyü kimi, 1990-cı illə müqayisədə 2017-ci ildə enerji ehtiyatlarının istehlakı 16.71 milyon tondan 9.27 milyon tona (44.5%), sənayedə 8.7 milyon tondan 1.1 milyon tona (87.4%) düşmüş, nəqliyyatda 2.2 milyon tondan 2.56 milyon tona yüksəlmiş (16.4%), digər sahələrdə isə enerji ehtiyatlarının istehlakı 4.93 milyon tondan 4.55 milyon tona (7.7 %) düşmüşdür.




Şəkil 1. Əsas iqtisadi sahələr üzrə enerji ehtiyatlarının istehlakı

**Cədvəl 2**

**1990-2017-ci illərdə Azərbaycanın sənayesində enerji ehtiyatlarının istehlakının dinamikası [8]**

milyon ton (neft ekvivalenti)

| Enerji ehtiyatları | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Neft məhsulları | 0.51 | 0.05 | 0.26 | 0.28 | 0.08 | 0.07 | 0.13 | 0.08 |
| Təbii qaz | 6.26 | 3.58 | 0.80 | 0.34 | 0.51 | 0.90 | 1.01 | 0.68 |
| Elektrik enerjisi | 0.61 | 0.21 | 0.06 | 0.25 | 0.15 | 0.27 | 0.30 | 0.31 |
| İstilik enerjisi | 1.32 | 0.61 | 0.21 | 0.38 | 0.00 | 0.00 | 0.00 | 0.00 |

Cədvəldən göründüyü kimi, 1990-cı illə müqayisədə 2017-ci ildə sənayedə neft məhsullarının istehlakı 0.51 milyon tondan 0.08 milyon tona (84%), təbii qaz istehlakı 6.26 milyon tondan 0.68 milyon tona (89%), elektrik enerjisi istehlakı 0.61 milyon tondan 0.31 milyon tona (49.2%) düşmüşdür.




Şəkil 2. Sənayedə enerji ehtiyatlarının istehlakı

**Cədvəl 3**

**1990-2017-ci illərdə Azərbaycan nəqliyyatında enerji ehtiyatlarının istehlakının dinamikası [8]**

milyon ton (neft ekvivalenti)

| Enerji ehtiyatları | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Neft məhsulları | 1.96 | 1.10 | 0.77 | 1.32 | 1.67 | 2.35 | 2.20 | 2.52 |
| Təbii qaz | 0.17 | 0.04 | 0.03 | 0.12 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| Elektrik enerjisi | 0.07 | 0.06 | 0.05 | 0.05 | 0.05 | 0.04 | 0.04 | 0.03 |

Cədvəldən göründüyü kimi, 1990-cı illə müqayisədə 2017-ci ildə nəqliyyatda neft məhsullarının istehlakı 1.96 milyon tondan 2.52 milyon tona (28.6%) yüksəlmiş, elektrik enerjisi istehlakı isə 0.07 milyon tondan 0.03 milyon tona (57.1 %) düşmüşdür.




Şəkil 3. Nəqliyyatda enerji ehtiyatlarının istehlakı

**Cədvəl 4**

**1990-2017-ci illərdə iqtisadiyyatın digər sahələrində enerji ehtiyatlarının istehlakının dinamikası [8]**

milyon ton (neft ekvivalenti)

| Enerji ehtiyatları | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Neft məhsulları | 0.71 | 0.15 | 0.23 | 0.36 | 0.41 | 0.36 | 0.33 | 0.32 |
| Kömür | 0.09 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| Təbii qaz | 2.85 | 1.94 | 2.24 | 2.37 | 2.52 | 2.54 | 2.87 | 2.93 |
| Bioyanacaq və tullantı | 0.02 | 0.02 | 0.02 | 0.02 | 0.09 | 0.08 | 0.03 | 0.03 |
| Elektrik enerjisi | 0.68 | 0.84 | 1.13 | 1.25 | 0.85 | 1.20 | 1.18 | 0.12 |
| İstilik enerjisi | 0.58 | 0.10 | 0.05 | 0.06 | 0.05 | 0.12 | 0.14 | 0.14 |

Cədvəldən göründüyü kimi, 1990-cı illə müqayisədə 2017-ci ildə iqtisadiyyatın digər sahələrində neft məhsullarının istehlakı 0.71 milyon tondan 0.32 milyon tona (54.9%), istilik enerjisi 0.58 milyon tondan 0.14 milyon tona (76%) düşmüşdür, təbii qaz istehlakı 2.85 milyon tondan 2.93 milyon tona (2.8), bioyanacaq və tullantı 0.02 milyon tondan 0.03 milyon tona (50%), elektrik enerjisi 0.68 milyon tondan 1.12 milyon tona (82.4%) yüksəlmişdir.




Şəkil 4. İqtisadiyyatın digər sahələri üzrə enerji ehtiyatlarının istehlakı

**Cədvəl 5**

**1990-2017-ci illərdə Azərbaycanda enerji ehtiyatlarının istehlakının dinamikası [8]**

milyon ton (neft ekvivalenti)

| Enerji ehtiyatları | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Neft məhsulları | 4.06 | 2.13 | 1.94 | 2.81 | 2.66 | 3.53 | 3.39 | 3.96 |
| Təbii qaz | 9.28 | 5.56 | 3.07 | 3.23 | 3.06 | 3.47 | 3.91 | 3.65 |
| Elektrik enerjisi | 1.36 | 1.11 | 1.24 | 1.55 | 1.05 | 1.51 | 1.52 | 1.47 |
| İstilik enerjisi | 1.90 | 0.71 | 0.26 | 0.44 | 0.05 | 0.12 | 0.14 | 0.14 |
| Bioyanacaq və tullantı | 0.02 | 0.02 | 0.02 | 0.02 | 0.09 | 0.08 | 0.03 | 0.04 |
| Kömür | 0.09 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |

Cədvəldən göründüyü kimi, 1990-cı illə müqayisədə 2017-ci ildə neft məhsullarının istehlakı 4.06 milyon tondan 3.96 milyon tona (2.5%), qaz istehlakı 9.28 milyon tondan 3.65 milyon tona (60.7%), istilik enerjisi 1.90 milyon tondan 0.14 milyon tona (92.6%) azalmış, elektrik enerjisi istehlakı 1.36 milyon tondan 1.47 milyon tona (8.1%) artmış, bioyanacaq və tullantı 0.02 milyon tondan 0.03 milyon tona (50 %) artmış, kömür istehlakı isə 0.09 milyon ton azalmışdır.




Şəkil 5. 1990-2017-ci illərdə enerji ehtiyatlarının istehlakının dinamikası

Aşağıdakı şəkil 6-da isə 1990-cı və 2017-ci illər üzrə Azərbaycan Respublikasında enerji ehtiyatlarının istehlakı müqayisəli şəkildə verilmişdir. Göründüyü kimi, 1990-cı ildə istehlak olunan enerji ehtiyatlarının 56%-i təbii qaz, 24%-i neft məhsulları, 11%-i istilik enerjisi, 8%-i elektrik enerjisi olduğu halda, 2017-ci ildə isə təbii qaz - 39%, neft məhsulları - 43%, elektrik enerjisi - 16% və istilik enerjisi - 2% təşkil etmişdir.




Şəkil 6. 1990-cı və 2017-ci illər üzrə istehlak olunan enerji ehtiyatlarının strukturu

Planetdə “qara qızılın” nəhəng istehlakçısı Asiya-Sakit okean ölkələri və Şimali Amerika hesab edilir. Asiya-Sakit okean ölkələri bir sutka ərzində 23.86 milyon barel, Şimali Amerika isə sutka ərzində 20.46 milyon barel neft istehlak edir. Son vaxtlar Hindistanın enerji ehtiyatlarına tələbatının artması enerji ehtiyatları bazarına kəskin təsir göstərmişdir. Beynəlxalq Enerji Agentliyinin tədqiqatlarına əsasən 2030-cu ildə dünya üzrə enerji ehtiyatlarına tələbat 37-50% artacaq. Bu tələbatı ödəmək üçün enerji infrastrukturuna qoyulacaq investisiya 20 trilyon ABŞ dolları həcmində proqnozlaşdırılır [2].

Enerji təhlükəsizliyi kompleks anlayış olub aşağıdakılardan ibarətdir:

– siyasi enerji təhlükəsizliyi;
– iqtisadi enerji təhlükəsizliyi;
– texnogen enerji təhlükəsizliyi.

Ümumiyyətlə, *enerji təhlükəsizliyi* dedikdə hər bir ailənin enerji ehtiyatları (yanar qaz, neft, elektrik enerjisi və s.) ilə lazımi miqdarda və əlverişli qiymətlə təmin edilməsi başa düşülür [1]. Enerji ehtiyatları hasil edilən mənbələrin təhlükəsizliyi, tədarükü və etibarlı nəqli, boru kəmərlərinə nəzarət, neft və qaz şantajlarından qorunma, spekulyativ qiymət artımı və s. enerji təhlükəsizliyinə təsir edən amillərdir.

Hazırda enerji təhlükəsizliyi dövlətin daxili və xarici siyasətində iqtisadi və siyasi məsələlərin həllində əsas problem olaraq qalır. Ümumdünya enerji şurasının ekspertlərinin fikrinə görə, yerli və idxal olunan ehtiyatların müəyyən dövr ərzində enerji ehtiyatlarına artan tələbatın əlçatan qiymətlə ödənilməsi ölkənin iqtisadi və siyasi vəziyyətindən asılıdır. Enerji təhlükəsizliyinə karbohidrogen ehtiyatlarının azalması ilə yanaşı, eyni zamanda neft və qaz ixrac edən ölkələrə siyasi məqsədlər üçün təzyiqlər də təsir göstərir.

Hazırda enerji təhlükəsizliyini enerji ehtiyatlarının idxalçıları və ixracatçıları müxtəlif mənada başa düşürlər. Yəni ixracatçılar (tədarükçü) yüksək qiymətə satmağa, idxalçı (istehlakçı) isə aşağı qiymətə almağa maraqlıdır. Enerji ehtiyatlarının ixrac qiymətinin yüksək olması dövlətin gəlirinin və enerji ehtiyatlarının təklifinin stabil olmasını təmin edir. Neft və qaz ixrac edən ölkələrdə enerji ehtiyatlarının qiymətinin ölkənin ödəmə balansına kəskin təsiri müşahidə edilməkdədir.

**Siyasi enerji təhlükəsizliyi** dedikdə dövlətin, onun subyekt və regionlarının enerji idxalından asılılığı (müstəqillik səviyyəsi) başa düşülür.

İqtisadi enerji təhlükəsizliyi dedikdə enerji ehtiyatlarının tarifləri (qiymətləri), ölkənin dayanıqlı və davamlı inkişafı üçün kifayət qədər enerji ehtiyatlarının mövcudluğu başa düşülür.

**Texnogen enerji təhlükəsizliyi** dedikdə isə enerji qurğularının istismarı zamanı insanlara, əmlaka və ətraf mühitə dəymiş texnogen xarakterli ziyanlar (risklər) başa düşülür. Enerji qurğularının, avadanlıqlarının, istilik, atom elektrik stansiyalarının, elektrik və istilik enerji təchizatı təşkilatlarının insanlara, əmlaka və ətraf mühitə göstərdiyi təhlükələr də texnogen enerji təhlükəsizliyinə daxildir. Bunlar elektrik, yanğın, elektromaqnit, mexaniki, ekoloji, sənaye, partlayış, radiasiya, nüvə, kimya və s. təhlükələr hesab edilir.

Texnogen enerji təhlükəsizliyinin aşağı salınması üçün kompleks tədbirlər həyata keçirilməlidir. Mütəxəssislərin fikrinə görə, texnogen hadisələrin 70 faizindən çoxu insan amilindən asılıdır.

**Enerji təhlükəsizliyinin problemləri.** Müasir dünyada enerji ehtiyatlarının əldə edilməsi üzrə rəqabət kəskin olaraq artmaqdadır və enerji ehtiyatlarının tükənməsinə dair müxtəlif proqnozlar mövcuddur. Neft yataqlarının kəşfiyyatı, hasilatı, emalı, istehlakçıya çatdırılma və digər alternativ xərcləri (ətraf mühitin bərpası və s.) sürətlə artmaqdadır. Odur ki, iqtisadi, sosial və ekoloji xərclər enerji ehtiyatlarını ixrac və idxal edən ölkələri mürəkkəb maliyyə problemləri ilə üzləşdirir.

İnkişaf etmiş ölkələr enerji təhlükəsizliyini həll etmək üçün yeni yataqların axtarışına və ya daha aşağı istismar xərcləri tələb edən yataqlara üstünlük verirlər. Başqa ölkələrdən enerji ehtiyatlarının idxalı ölkənin maliyyə, iqtisadi vəziyyətinə və rəqabətqabliyyətliliyinə mənfi təsir edir.

Hazırda enerji ehtiyatlarının mövcud miqdarı haqqında dəqiq məlumat olmadığına görə ölkənin uzunmüddətli enerji təhlükəsizliyinin təmin edilməsi də qeyri-müəyyəndir. Bəzi ölkələr ixrac və hasilata kvotanı artırmaq üçün mövcud ehtiyatlara dair məlumatı təhrif edirlər [5]. Odur ki, neft hasilatının dəqiq həcmini proqnozlaşdırmaq mümkün olmur. Bu da tələb və təklif nəzəriyyəsinə əsasən ədalətli qiymətin müəyyən edilməsini mümkünsüz edir, nəticədə enerji sektorunun iqtisadiyyatı tənəzzülə uğrayır.

**Enerji təhlükəsizliyinin hüquqi aspektləri.** Enerji ehtiyatlarının ticarəti müxtəlif beynəlxalq razılaşmalar ilə tənzimlənir. Bu razılaşmaların bəzilərində enerji təhlükəsizliyi problemləri nəzərə alınır. Bəzi razılaşmalarda isə istehsal prosesləri nəqliyyat, paylaşdırma sistemlərindən ayrılır və

enerji ehtiyatları bazarlarının açıq və liberal olmasına xidmət edir.

Enerji təhlükəsizliyinə aid ilk mühüm sənəd enerji ehtiyatlarının istehsalçıları tərəfindən hazırlanmışdır ki, bu sənədlə də təbii ehtiyatlar üzərində milli suverenliyi bərpa edilir. 1960-cı ilin əvvəllərində BMT dövlət suverenliyi və enerji ehtiyatları üzərində suveren hüquqları rəsmi olaraq tanımışdır. BMT-nin bu qətnaməsi müəyyən dərəcədə enerji təhlükəsizliyini nəzərə alır. Lakin bu qətnamə daha çox istehlakçı ölkələrə sərfəlidir. Bununla əlaqədar neft ixrac edən ölkələrin təşkilatı (OPEK) yaranmışdır. Bu təşkilat enerji ehtiyatları üzərində istehsalçı ölkələrin nəzarətinin həyata keçirilməsini təmin edir. 1968-ci ildə həmin təşkilat tərəfindən mühüm sənəd - *Neft siyasəti deklarasiyası* hazırlanmışdır. Bu sənəd enerji təhlükəsizliyinin qloballaşdırılması üçün başlanğıc hesab olunur.

Bu sahədə digər mühüm sənəd 1974-cü ildə *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) və Beynəlxalq Enerji Agentliyinə (BEA)* üzv ölkələr tərəfindən qəbul olmuşdur.

Beynəlxalq Enerji Agentliyi (BEA) enerji böhranından çıxış üçün Beynəlxalq Enerji Proqramını hazırlamışdır. Bu proqram enerji təhlükəsizliyinə dair ilk sənəd hesab edilir. Bu proqramın icrasına əsasən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrinin neftdən asılılığı azalmış, kömür və digər alternativ enerji daşıyıcılarından istifadə stimullaşdırılmışdır.

1991-ci ilin dekabr ayında *Avropa Enerji Xartiyası* yaradılmışdır və 1994-cü ildə Enerji Xartiyasına əsasən müqavilələr imzalanmışdır. Sənəd 30 ölkə tərəfindən ratifikasiya olunmuşdur. Bu ölkələrə Müstəqil Dövlətlər Birliyi (MDB), Avropa ölkələri, Yaponiya, Avstraliya və Monqolustan daxildir. Rusiya uzun sürən danışıqlardan sonra müqaviləni imzalamaqdan imtina etmişdir. Enerji müqaviləsində əsas prinsip enerji daşıyıcılarının nəqli, istehlakçı və tədarükçünün üçüncü tərəfdən mühafizəsidir. Lakin bu sənədin enerji təhlükəsizliyinin təmin edilməsi üzrə hüquqi imkanları çox məhduddur. Bu sənəd energetika sahəsində yeganə sənəddir ki, enerji ehtiyatlarının istehsalı və təchizatının bütün mərhələlərini əhatə edir.

Hazırkı mövcud razılaşmalarda bir çox ziddiyyətlər mövcuddur, xüsusən də ümumi ticarət razılaşması ilə enerji təhlükəsizliyinin hüquqi aspektləri arasında daha çox gözə çarpır. Çünki əksər ticarət razılaşmaları bazar münasibətlərilə tənzimləndiyinə görə onlar enerji təklükəsizliyi problemlərini həll edə bilmir [5].

Hüquqi müqavilələr enerji təhlükəsizliyi sahəsində müəyyən siyasətin həyata keçirilməsi üçün əsasdır və bu sənəd  siyasətin məqsəd və fəaliyyət sahəsini müəyyən etmədiyinə görə enerji təhlükəsizliyinin təmin edilməsinə hüquqi yanaşma uğursuzluğa düçar olmuşdur. Odur ki, enerji təhlükəsizliyi sahəsində  yeni  siyasətə tələb yaranmışdır.

**Enerji təhlükəsizliyinin texniki aspektləri.** Enerji təhlükəsizliyi sahəsində əsas problem enerji ehtiyatlarının nəqli sisteminin dayanıqlığı, həmçinin hasilat və nəqliyyat infrastrukturunun təhlükəsizliyidir. Bu halda energetika sistemi bütövlükdə  saz vəziyyətdə saxlanır və uğurla istismar olunur. Lakin təcrübə göstərir ki, nəqliyyat sisteminin lazımi səviyyədə saxlanması üçün böyük maliyyə, əmək və sair vəsait, texniki və ekoloji təhlükəsizliyi üçün daimi nəzarət tələb olunur.

**Təhlükəsizliyin siyasi aspektləri.** Enerji təhlükəsizliyinin təmin edilməsində enerji sahəsində istehsalçı dövlətlərin stabil və dayanıqlı inkişafı əhəmiyyətli rol oynayır. Dayanıqlı inkişaf, öz növbəsində, enerji ehtiyatlarının kəşfiyyatı və hasilatından asılıdır. Xüsusən də mürəkkəb şəraitdə yüksək texnologiyalardan istifadə etməklə ətraf mühitə zərər vurmadan hasil olmuş neftin nəqlini təşkil etmək alternativ xərclər tələb edir.

Enerji təhlükəsizliyi ixracatçı (tədarükçü) ölkələrin sənaye siyasətindən də asılıdır.  Hazırda azad ticarəti stimullaşdıran ticarət strategiyası ilə enerji ehtiyatları bazarının liberallaşdırılması, enerji təhlükəsizliyinin təmin edilməsi arasında ziddiyyətlər mövcuddur.

Enerji təhlükəsizliyi ilk növbədə siyasi problemdir. Müasir dünyada enerji təhlükəsizliyinin təmin edilməsində yaranmış ziddiyyətlər təbii səbəblərlə yanaşı, xarici və süni təsirlər nəticəsində baş verir. Bütün bunlar ölkədə sosial və siyasi vəziyyətin gərginləşməsini şərtləndirir. Məsələn, keçmiş SSRİ iqtisadiyyatı neftin dünya bazar qiymətindən asılı idi. 1980-ci ildə Amerika Birləşmiş Ştatları neft hasil edən ölkələrə süni təsir edərək neftin dünya bazar qiymətini aşağı salmışdır. Nəticədə, SSRİ iqtisadiyyatına böyük ziyan dəymişdir. SSRİ-də zamanla toplanmış problemlər ölkənin dağılmasına

səbəb olmuşdur. Bu siyasət indi də neft ixrac edən ölkələrə tətbiq edilir. Neftin qiymətlərinin kəskin aşağı düşməsi müstəqillik dövründə də təkrarlanmışdır.

Bu misallar göstərir ki, ölkənin enerji təhlükəsizliyi dövlətin təhlükəsizliyinin ən vacib amilidir və onun müstəqil mövcudluğunu şərtləndirir.

## Nəticə

Bütün yuxarıda göstərilənləri nəzərə alaraq *Enerji Təhlükəsizliyi üçün yeni Konsepsiya* hazırlanmalıdır. Bu konsepsiyada aşağıdakı prioritet istiqamətlər nəzərdə tutulmalıdır:

- enerji sektoru iqtisadi metodlarla tənzimlənməli;
- enerji ehtiyatlarına qənaət edilməli;
- ekoloji təmiz hasilatın, nəqlin və satışın tətbiqi;
- cəmiyyətin inkişafı üçün bərpa olunan enerjidən istifadənin genişləndirilməsi;
- gələcək nəsillər üçün təbii ehtiyatların qorunması və bərpası.

**Saleh Mövlamov, Şahin Mustafayev**
**Enerji təhlükəsizliyin statistik tədqiqi**
**Xülasə**

Məqalədə ölkənin dövlət təhlükəsizliyinin tərkib hissəsi olan enerji təhlükəsizliyi kimi ən vacib məsələdən, regionlar üzrə enerji ehtiyatlarının qeyri-bərabər paylanması və onların tükənməsi problemlərdən bəhs olunur.

Ölkə üzrə enerji ehtiyatlarının istehlakı, enerji ehtiyatlarının növlərinə görə müqayisəli təhlil edilmiş, həmin göstəricilərin dinamik sıraları və müvafiq qrafikləri, Beynəlxalq Enerji Agentliyinin 2030-cu ilədək proqnozları verilmişdir. Enerji təhlükəsizliyinin təmin edilməsi üçün yeni konsepsiyanın hazırlanması, davamlı inkişafı üçün əsas təbii sərvət hesab edilən enerji ehtiyatlarının səmərəli istifadəsi, aşağı enerjitutumlu fəaliyyət sahələrinə transformasiya araşdırılmışdır.

**Салех Мовламов, Шахин Мустафаев**
**Статистическое исследование энергетической безопасности**
**Резюме**

В статье рассматриваются такие вопросы, как энергетическая безопасность, которая является неотъемлемой частью государственной безопасности страны, а также неравномерное распределение энергоресурсов и проблемы их исчерпания в регионах.

Приводятся данные о потреблении энергоресурсов по странам, даны сравнительный анализ энергоресурсов, динамика этих показателей и соответствующие графики, прогнозы Международного Энергетического Агентства до 2030 года. Были затронуты вопросы разработки новой концепции энергетической безопасности, эффективного использования энергетических ресурсов, которые являются основными природными ресурсами для устойчивого развития и трансформации экономики к отраслям с низким энергопотреблением.

**Saleh Movlamov, Shahin Mustafayev**
**Statistical research of energy security**
**Summary**

The article deals with such issues as energy security, which is an integral part of the country’s national security, as well as the uneven distribution and problems of exhaustion of energy resources in the regions.

The data on energy consumption by countries, a comparative analysis of energy resources, the dynamics of these indicators and the corresponding graphs and forecasts of the International Energy Agency by 2030 are given. The development of a new concept of energy security, the efficient use of energy resources, which are the main natural resources for sustainable development, and the transformation of the economy of industries to low energy consumption, were investigated.

**Ədəbiyyat**

1. 1.Ş.Ə.Səmədzadə və digərləri. İqtisadi subyektlərin (müəssisənin) iqtisadi təhlükəsizliyi. Bakı, Təhsil NPM, 2009, 270 səh.
2. Caspian Energy. İnternational Analytical Journal-december 2006 7(41)
3. Eurostat, Statistical books. Energy,transport and environment indicators. 2015 edition
4. Eurostat, Statistical books. Sustainable development in the European Union. 2015 monitoring report of the EU sustainable Development Strategy. 2015 edition.
5. https://ru.wikipedia.org/wiki/%D0%AD%D0%BD%D0%B5%D1%80%D0%B3%D0%BE%D0%B1%D0%B5%D0%B7%D0%BE%D0%BF%D0%B0%D1%81%D0%BD%D0%BE%D1%81%D1%82%D1%8C
6. https://cyberleninka.ru/article/n/energeticheskaya-bezopasnost-opredelenie-ponyatiya-i-suschnost
7. https://cyberleninka.ru/article/v/energeticheskaya-bezopasnost-v-sovremennom-mire-osnovnye-podhody-k-izucheniyu
8. Mənbə: https://www.iea.org/Sankey/index.html#?c=Azerbaijan&s=Balance

Məqalə redaksiyaya daxil olmuşdur: 01.04.2019
Təkrar işlənməyə göndərilmişdir: 09.04.2019
Çap üçün qəbul olunmuşdur: 23.04.2019

"Statistika xəbərləri, № 3/2019"
İl 5, Cild 3, İyul-sentyabr, səh. 30-35

UOT: 332.1
DOI: 10.33870/1012-1211-2019-3-2493

# QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFININ STATİSTİK TƏHLİLİ

***Famil Niftiyev***
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru*
*AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 115*
*e-poçt: f.niftiyev@mail.ru*

**Açar sözlər:** təhsil, məktəbəqədər, məktəb, infrastruktur, Quba-Xaçmaz.
**Ключевые слова:** образование, дошкольное образование, школа, инфраструктура, Губа-Хачмаз.
**Keywords:** education, preschool, school, infrastructure, Guba-Khachmaz.

Təhsilin inkişaf etməsi ölkədə əhalinin rifahının yaxşılaşması, həm də insanların həyatının daha yüksək səviyyədə qurulmasına şərait yaradır. Təhsil cəmiyyətin formalaşmasına, əmək bazarında yer tutmaq, ətraf mühitə və sağlam həyat tərzinə düzgün mövqe seçmək imkanı verir. Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir [14].

Təhsil müəssisələrinin regional inkişafını əhəmiyyətli dərəcədə demoqrafik proseslərin gedişi, məskunlaşma prosesinin xüsusiyyətləri, əhalinin yaş, cins və s. strukturu, doğum, ölüm, təbii artımın səviyyəsi və s. müəyyən edir [8].

Quba-Xaçmaz iqtisadi rayonunda 2019-cu il yanvar ayının 1-i vəziyyətinə əhalinin sayı 549,4 min nəfər olmuşdur. Əvvəlki illərə baxsaq, görərik ki, bu göstərici 2000-ci ilin əvvəlinə 445,4 min nəfər, 2010-cu ilin əvvəlinə isə 492,4 min nəfər təşkil etmişdir. Bu da 1999-cu illə müqayisədə 104,0 min nəfər çoxdur. İqtisadi rayonda kənd əhalisi şəhər əhalisindən 2 dəfə çoxdur. Qusar rayonunda şəhər yerləri üzrə əhalinin sayı kənd yerləri üzrə əhalinin sayından 3,7 dəfə, Xaçmazda 1,6 dəfə, Qubada 3,2 dəfə azdır. Yalnız Siyəzən rayonunda şəhər yerləri üzrə əhalinin sayı kənd yerləri üzrə əhalinin sayından 1,8 dəfə çoxdur (cədvəl 1).

**Cədvəl 1**

**Quba-Xaçmaz iqtisadi rayonunda əhalinin sayının dəyişməsi (ilin əvvəlinə, min nəfər) [4]**

| Rayon-lar | 2000 | | | 2010 | | | 2018 | | | 2019 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəm | Şəhər | Kənd | Cəm | Şəhər | Kənd | Cəm | Şəhər | Kənd | Cəm | Şəhər | Kənd |
| Qusar | 81,8 | 17,6 | 64,2 | 88,4 | 18,6 | 69,8 | 97,2 | 20,6 | 76,6 | 98,1 | 20,7 | 77,4 |
| Xaçmaz | 145,6 | 51,3 | 94,3 | 160,3 | 63,0 | 97,3 | 176,3 | 67,6 | 108,7 | 178,1 | 68,2 | 109,9 |
| Quba | 137,8 | 26,9 | 110,9 | 153,6 | 38,1 | 115,5 | 170,0 | 40,4 | 129,6 | 171,7 | 40,6 | 131,1 |
| Şabran | 46,4 | 20,4 | 26,0 | 52,2 | 22,6 | 29,6 | 58,7 | 25,1 | 33,6 | 59,3 | 25,3 | 34,0 |
| Siyəzən | 33,8 | 22,3 | 11,5 | 37,9 | 24,9 | 13,0 | 41,9 | 26,8 | 15,1 | 42,2 | 27,0 | 15,2 |
| İqtisadi rayon | 445,4 | 138,5 | 306,9 | 492,4 | 167,2 | 325,2 | 544,1 | 180,5 | 363,6 | 549,4 | 181,8 | 367,6 |

2019-cu ilin əvvəlinə 18 yaşadək (0-17 yaş) uşaqların sayı 158,0 min nəfər, o cümlədən oğlanların sayı 84,5 min nəfər, qız uşaqlarının sayı isə 73,5 min nəfər təşkil etmişdir. Uşaqların sayına görə Xaçmaz və Quba rayonları (51,1 və 49,4 min nəfər) regionda irəlidədir. Ən az Siyəzən

və Şabran rayonlarını əhatə edir [6]. İqtisadi rayonda kənd yerləri üzrə uşaqların sayı şəhər yerlərinə nisbətən üstünlük təşkil edir. Belə ki, kənd yerləri üzrə uşaqların sayı 108,5 min nəfər, şəhər yerləri üzrə isə 49,5 min nəfər olmuşdur.

Məktəbəqədər təhsil uşaqların intellektual, fiziki və psixoloji inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, onlarda mədəni keyfiyyətlərin, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq hislərinin və həyati bacarıqların formalaşmasında mühüm rol oynayır [15]. Bu bir həqiqətdir ki, maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur.

**Cədvəl 2**

**2018-ci ildə məktəbəqədər təhsil müəssisəsinin göstəriciləri [7]**

| Rayonlar | Məktəbəqədər təhsil müəssisələrinin sayı | Onlarda uşaqların sayı (nəfər) | Məktəbəqədər təhsil müəssisələri ilə (100 yerə düşən uşaq hesabı ilə) təminat |
|---|---|---|---|
| Qusar | 13 | 550 | 100 |
| Xaçmaz | 25 | 929 | 100 |
| Quba | 16 | 729 | 93 |
| Şabran | 3 | 205 | 100 |
| Siyəzən | 5 | 430 | 100 |
| İqtisadi rayon | 62 | 2843 | 98 |

Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2010-cu ildə iqtisadi rayonda məktəbəqədər təhsil müəssisələrinin sayı 58, 2018-ci ildə 62 olmuşdur. Bundan 25 müəssisə Xaçmaz rayonunun payına düşür. Onlarda uşaqların sayı 2010-cu ildə 2591 nəfər, 2015-ci ildə 2808 nəfər, 2018-ci ildə 2843 nəfər təşkil edir [6]. Göründüyü kimi, 8 il müddətində 252 nəfər artım olmuşdur. Məktəbəqədər təhsil müəssisələrinə gedən uşaqların sayının az olduğu Şabran rayonudur və onun payı iqtisadi rayonda 7,2% təşkil edir. İqtisadi rayonda oxuyan uşaqların sayı ən çox Xaçmaz rayonuna düşür ki, onunda payı iqtisadi rayon üzrə 32,7% olmuşdur.

Məktəbəqədər təhsil müəsissələrin iqtisadi rayonda qeyri-bərabər paylanması təhsilin keyfiyyətini aşağı salır, uşaqların məktəbə hazırlanmasında intelektual biliyin, yaradıcılıq və həyatı bacarıqların olmamasına təsir göstərir. Beləliklə, maddi-texniki bazanın güclənməsinə, uşaqların rahatlığı üçün xüsusi nəqliyyat vasitəsinin ayrılmasına ehtiyac vardır.

Ümumi təhsil müəssisələri təhsilalanların sağlam həyat tərzi keçməsi, intellektualın inkişafına, lazım olan biliklərin öyrənməsinə, ailə və cəmiyyətdə öz hüquq və vəzifələrin yerinə yetirilməsində böyük rol oynayır.

Ümumi təhsil gimnaziyalarda, ümumtəhsil məktəblərində, liseylərdə, ilk peşə-ixtisas və orta ixtisas təhsili müəssisələrində, o cümlədən ali təhsil müəssisələrinin tabeliyində yaradılan məktəblərdə fəaliyyət göstərir.

Ümumtəhsil müəssisələri dövlətin tələbinə görə cinsindən, irqindən, dilindən, dinindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən asılı olmayaraq, hər bir vətəndaşa ümumi təhsil almaq imkanını təmin edir [10]. İqtisadi rayonda əyani ümumtəhsil müəssisələrinin sayı 2010-cu ildə 427 müəssisə, 2018-ci ildə 418, o cümlədən Quba rayonunda 137, Xaçmaz rayonunda 123, Qusar rayonunda 86, Siyəzən rayonunda 25, Şabran rayonunda 47 olmuşdur. Quba rayonunda olan təhsil müəssisələrinin payı iqtisadi rayon üzrə 32,8% təşkil edir.

Ən az əyani ümum təhsil müəssisələri Siyəzən və Şabran rayonlarına (6,0% və 11,2%) düşür [6]. Hazırda Siyəzən rayonunda 25 müəssisə və Şabran rayonunda 47 təhsil müəssisəsi fəaliyyət göstərir.

Cədvəl 3

**2018-ci ildə əyani ümumi təhsil müəssisəsinin göstəriciləri [7]**

| Rayonlar | Əyani ümumi təhsil müəssisələrinin sayı | Onlarda şagirdlərin sayı (nəfər) | II və III növbədə oxuyanların xüsusi çəkisi faizlə |
|---|---|---|---|
| Qusar | 86 | 14749 | 10,1 |
| Xaçmaz | 123 | 29302 | 16,6 |
| Quba | 137 | 26581 | 24,5 |
| Şabran | 47 | 9397 | 10,1 |
| Siyəzən | 25 | 6977 | 15,4 |
| İqtisadi rayon | 418 | 87006 | 17,1 |

Dövlət Statistika Komitəsinin məlumatlarına görə Quba-Xaçmaz iqtisadi rayonunda 2010-cu ildə ümumtəhsil müəssisəsində şagirdlərin sayı 76991 nəfər olduğu halda, 2015-ci ildə 78973 nəfər, 2018-ci ildə 87006 nəfər olmuşdur. O cümlədən Xaçmaz rayonunda 29302 nəfər, Qubada 26581 nəfər olduğu halda, Siyəzən rayonunda 6977 nəfər, Şabran rayonunda 9397 nəfər müşahidə edilməkdədir [5]. Araşdırma zamanı təhsil müəssisələrin sayinin 8 il müddətində azalmasına baxmayaraq, onlarda oxuyan şagirdlərin sayında artım müşahidə olunmuşdur. Quba-Xaçmaz iqtisadi rayonunda II və III növbədə oxuyanların xüsusi çəkisində keçən illər ərzində azalma müşahidə olunub. İqtisadi rayon üzrə 2010-cu ildə 24,8%, 2015-ci ildə 18,1% və 2018-ci ildə 17,1% olmuşdur. Buna baxmayaraq II və III növbədə oxuyanların xüsusi çəkisinin çox olduğu Quba rayonu, ən az isə Qusar və Şabran rayonlarını əhatə edir [5].

Regionda təhsil infrastrukturunun inkişafı üzrə xeyli addımlar atılmışdır. Buna misal olaraq, regionların inkişafına dair dövlət proqramlarının icrası bu gündə uğurla davam etdirilir.

Regionların inkişafı ilə bağlı ölkə prezidentinin 2004-cü ilin fevral ayının 11-də imzaladığı Fərmanla “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq (2004-2008-ci illər) iqtisadi rayonun inkişafında böyük işlər görülmüşdür. Belə ki, Xaçmaz rayonunda hər biri 240 şagirdlik Çiləgir kənd orta, Çarxıquşçuluq kənd əsas və Bostançı kənd orta məktəb binalarının tikintisi, 5 məktəbin əsaslı təmiri, 4 məktəbdə isə 240 şagirdlik 12 əlavə sinif otaqlarının tikintisi, Quba rayonunda 240 şagirdlik Qələdüz kənd əsas, 192 şagirdlik Səbətlər kənd və 240 şagirdlik Susay kənd orta məktəb binalarının tikintisi, 2 məktəbin əsaslı təmiri, 4 məktəbdə isə 320 şagirdlik 16 əlavə sinif otaqlarının tikintisi, Qusar rayonunda 192 şagirdlik Avaran kənd orta, 240 şagirdlik Xürəl kənd orta və 240 şagirdlik Kirik kənd əsas məktəb binalarının tikintisi, 6 məktəbin əsaslı təmiri, 1 məktəbdə isə 40 şagirdlik 2 əlavə sinif otaqlarının tikintisi, Siyəzən rayonunda 640 şagirdlik Siyəzən qəsəbə orta və 264 şagirdlik Qil-gil çay kənd əsas məktəb binalarının tikintisi, 1 məktəbin əsaslı təmiri, 3 məktəbdə isə 160 şagirdlik 8 əlavə sinif otaqlarının tikintisi, Şabran rayonunda 340 şagirdlik şəhər 2№-li orta məktəb binasının tikintisi, 4 məktəbin əsaslı təmiri, 1 məktəbdə isə 40 şagirdlik 2 əlavə sinif otaqlarının tikintisi həyata keçirilmişdir [1]. Həmçinin prezidentin “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)” Fərmanının davamı olaraq “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiqi təhsil müəssisələrinin təmirinə yer verilmişdir [2].

Ölkə prezidentinin “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsindən sonra Quba-Xaçmaz iqtisadi rayonunda təhsil infrastrukturu sahəsində xeyli işlər görülmüşdür. Dövlət proqramına əsasən Şabran rayonun 80 şagird yerlik Taxtalar kənd ümumi orta məktəbinin və Ağalıq kənd uşaq bağçasının tikintisi, Rəhimli kənd tam orta məktəbinin əsaslı təmiri, Xaçmaz rayonunun Qaraçı kənd 120 şagird yerlik ümumi orta, Qıraqlı kənd 180 şagird yerlik ümumi orta, Qaradağ Buduq kənd 80 şagird yerlik tam orta və Arzu kənd 220 şagird yerlik ümumi orta məktəblərinin, Xaçmaz şəhər 3 №-li 60 yerlik körpələr evi-uşaq bağçasının tikintisi və Hacılar kənd ümumi orta məktəbinin bərpa-gücləndirilməsi,

Quba rayonunun Qımılqışlaq kənd 220 şagird yerlik ümumi orta və Afurca kənd 120 şagird yerlik tam orta məktəblərinin tikintisi, Timiryazev kənd 14 №-li uşaq bağçasının bərpa-gücləndirilməsi və əsaslı təmiri, Qusar rayonun Əniğoba kənd 180 şagird yerlik tam orta, Atlıxan kənd 180 şagird yerlik tam orta, Aşağı İmamqulu kənd 180 şagird yerlik ümumi orta, Hiloba kənd 180 şagird yerlik ümumi orta, Küfoba kənd 80 şagird yerlik ümumi orta və Çubuqlu kənd 80 şagird yerlik ümumi orta məktəblərinin tikintisi, Kiriq kənd körpələr evi-uşaq bağçasının əsaslı təmiri, Siyəzən rayon Siyəzənkənd 80 şagird yerlik ümumi orta və Böyük Həmyə kənd 220 şagird yerlik tam orta məktəblərinin tikintisi, şəhər 2 №-li uşaq bağçasının əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilsin [3]. Eyni zamanda ölkə Prezidentinin 2018-ci il 2 fevral tarixli 3633 nömrəli “Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısına dair” Sərəncamına uyğun olaraq, adları çəkilən rayonlarda cəmi 1332 şagird yerlik modul tipli 22 məktəbin quraşdırılması nəzərdə tutulmuşdur. Belə ki, Xaçmaz rayonunun Alıcqışlaq, Qaracəlli, Cığatay, Ərəb kəndləri, Quba rayonunun Nütəh, Cimi, Dərk, Rük, Alıc, Çarxaçı, Qarxun, Zıxır kəndləri, Qusar rayonunun Ləcət, Zindan-Muruq, Yeni Həyat, Yuxarı Tahircal kəndləri, Şabran rayonunun 1 nömrəli, Xəlfələr, Qazbabalı kəndləri və Siyəzən rayonunun Qalaaltı, Qozağacı kəndləri və Xızı rayonunun Xələc kəndində modul tipli məktəblər tikiləcək [13].

2018-ci ildə əyani tam orta ümumi təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrin sayı Quba-Xaçmaz iqtisadi rayonu üzrə 1499 nəfər, o cümlədən 787 nəfər kişi, 712 nəfər qadınlar təşkil edir. Daha çox ali təhsil müəssisələrinə qəbul olan tələbələr Quba rayonunun payına düşür [6].

Quba-Xaçmaz iqtisadi rayonunda 2019-cu ilinin əvvəlinə peşə təhsili verən müəssisələrin sayı 7-dir, o cümlədən Xaçmaz rayonunda 2, Quba rayonunda 2, Qusar rayonunda 1, Şabran rayonunda 1, Siyəzən rayonunda 1 müəssisə fəaliyyət göstərir. Onlara qəbul olanların sayı 752 nəfər, tələbələrin sayı 1141 nəfər və bitirənlərin sayı 633 nəfər təşkil edir [7]. Regionda Azərbaycan Dövlət Pedaqoji Universitetinin filialı, Quba Dövlət Sosial-İqtisad kolleci, Tibb kolleci, Peşə liseyi fəaliyyət göstərir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı yaradılmışdır. Quba filialı 2,5 ha ərazidə 2 və 3 mərtəbəli 2 binada yerləşir. 2018-2019-cu tədris ilində filiala 6 ixtisas üzrə 181 nəfər tələbə qəbul olunmuşdur. Universitetdə Pedaqoji və ictimai fənlər kafedrası; Təbiət fənləri və onun tədrisi metodikası kafedrası; Ədəbiyyat və dillər kafedrası fəaliyyət göstərir [11].

İqtisadi rayonda Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan orta-ixtisas təhsili müəssisəsi olan Quba Dövlət Sosial-İqtisadi Kolleci yerləşir. Kollecdə texnologiya müəllimliyi, mühasibat uçotu, vergi və vergitutma, yol hərəkətin təşkili, aqronomluq, yer quruluşu torpaq müfəttişliyi, kitabxana-informasiya təminatı, bank işi və onun təşkili ixtisasları üzrə mütəxəssislər hazırlanır [12].

Regionda Quba tibb kolleci də fəaliyyət göstərir. Kollecdə 2 ixtisas - tibb bacısı və mamaçılıq ixtisasları üzrə orta pilləli tibb kadrları hazırlanır [12].

## Nəticə

Quba-Xaçmaz iqtisadi rayonunda təhsil infrastrukturu üçün hər cür əlverişli şərait vardır. Ancaq bununla yanaşı, bir sıra məsələlərin sürətləndirilməsinə və inkişaf etdirilməsinə ehtiyac vardır:

1. Təhsil müəssisələrinin təminatının müasir tələblər səviyyəsində təşkilinə, istismar müddəti başa çatmış təhsil müəssisələrinin yenilənməsinə, bütün kənd və qəsəbələrdə məktəbəqədər müəssisələrinin təşkilinə.

2. Regionda təhsil müəssisələrinin inkişafının yaxşılaşdırılması və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün kəndlərdə fəaliyyət göstərən məktəblərin daimi kadrlarla təminatına.

3. Regionun bütün təhsil müəssisələrində maarifləndirməni həyata keçirilməsi və məktəblərdə şagirdlərin davamiyyəti ilə bağlı valideynlərlə mütəmadi görüşlərin təşkil olunmasına.

**Famil Niftiyev**

**Quba-Xaçmaz iqtisadi rayonunda təhsil müəssisələrinin inkişafının statistik təhlili**

**Xülasə**

Məqalə Quba-Xaçmaz iqtisadi rayonunda təhsil müəssisələrinin inkişafına, ərazi təşkilinə və təhsil xidmətinin keyfiyyətinin artırılmasına həsr olunmuşdur. Tədqiqat işində inzibati rayonlar üzrə əsas təhsil sahəsi təhlil olunur, regionda təhsilin ərazi təşkili, təhsil sahəsində mövcud olan çatışmazlıqlar araşdırılır, bu sahədə dövlət tərəfindən görülən tədbirlər ətraflı təhlil edilərək iqtisadi rayonda təhsil sahəsinin daha da inkişaf etdirilməsinə dair tövsiyələr verilir.

Eyni zamanda məqalədə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008, 2009-2013, 2014-2018-ci illər) ilə əlaqədar görülən tədbirlərdən danışılır. Həmçinin əhaliyə xidmət göstərən sektorlar arasında sosial infrastruktur sahələri əsas əhəmiyyət kəsb etdiyinə görə iqtisadi bölgə əhalisinin sayı, təbii artımı, yaşı və cins tərkibini bilmək vacibdir.

**Фамиль Нифтиев**

**Статистический анализ развития образовательных учреждений Губа-Хачмазского экономического района**

**Резюме**

Статья посвящена развитию и территориальной организации образовательных учреждений Губа-Хачмазском экономического района, повышению качества образования и образовательных услуг в этом регионе. В этой исследовательской работе анализируется основная сфера образования отдельно по каждому административному району, выявляются существующие недостатки в этой сфере. Также даются рекомендации по развитию сферы образования в вышесказанном экономическом районе, а также более подробно анализируются меры, предпринимаемые государством в этом направлении.

В то же время, в статье затронуты мероприятия, реализованные в рамках Государственных программ социально-экономического развития регионов Азербайджанской Республики (2004-2008, 2009-2013, 2014-2018). Также ввиду того, что среди отраслей, оказывающих услуги населению, отрасли социальной инфраструктуры имеют первоочередное значение, важно знать численность населения, естественный прирост, возрастной и гендерный состав населения экономического региона.

**Famil Niftiyev**

**Statistical analysis of educational institutions development in Guba-Khachmaz economic region**

**Summary**

This article is devoted to the development and the territorial organization of educational institutions in the Guba-Khachmaz economic region and improvement of the quality of education. In this research the main field of education on administrative regions is analyzed, short comings in the field of education are investigated, also recommendations are given regarding development of education in the economic region through analysing the measures in this field by the government.

At the same time, the article deals with measures taken in connection with the “State Program on Socio-Economic Development of the Regions of the Republic of Azerbaijan (2004-2008, 2009-2013, 2014-2018)”.It is also important to know the population size, natural growth, age, gender composition of the economic region because social infrastructure is one of the most promising areas in the population.

**Ədəbiyyat**

1. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (2004-2008-ci illər) // “Azərbaycan” qəzeti, 12 fevral 2004-cü il, səh.3-16

2. “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” // “Azərbaycan” qəzeti, 15 aprel 2009-cü il, səh.1-18
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (2014-2018-ci illər)// “Azərbaycan” qəzeti, 27 fevral 2014-cü il, səh.4-15
4. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı: 9 №-li kiçik müəssisə, 2019.
5. Azərbaycanın regionları. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məcmuəsi. Bakı-2019.
6. Azərbaycanda uşaqlar. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məcmuəsi. Bakı-2019.
7. Azərbaycanda təhsil, elm, mədəniyyət. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məcmuəsi. Bakı-2018.
8. V.Əfəndiyev. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. Bakı: “Bakı Universiteti” 2010.
9. Ə.Q.Əlirzayev. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı-2010.
10. Z.S.Məmmədov. Regionların iqtisadi inkişaf problemləri. Bakı-2007.
11. http://www.adpu.edu.az/index.php/az/t-dris/filiallar/guba-filial
12. http://www.quba-ih.gov.az/page/15.html
13. https://president.az/articles/26933
14. http://absheron.edu.gov.az/az/page/540/12846
15. http://www.edu.gov.az/upload/file/mektebeqeder/mektebeqeder-umumi-melumat.pdf

Məqalə redaksiyaya daxil olmuşdur: 07.04.2019
Təkrar işlənməyə göndərilmişdir: 12.04.2019
Çap üçün qəbul olunmuşdur: 24.05.2019

UOT: 331.101.26; 331.522.4
DOI: 10.33870/1012-1211-2019-3-2494

# GƏNCƏ-QAZAX İQTİSADİ RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ƏMƏK BAZARININ ROLU

***Elnur Rüstəmov***
*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin*
*İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun doktorantı*
*AZ 1011, Həsən Bəy Zərdabi Prospekti, 88a*
*e-poçt: elnurr@azstat.org*

**Açar sözlər:** əmək bazarı, regional iqtisadiyyat, iqtisadi fəaliyyət, iqtisadi inkişaf, innovasiya.
**Ключевые слова:** рынок труда, региональная экономика, экономическая деятельность, экономическое развитие, инновация.
**Keywords:** labour market, regional economy, economic activity, economic development, innovation.

Regionların dayanıqlı sosial-iqtisadi inkişafından danışarkən əsas məsələlərdən biri region üzrə əsas sosial-iqtisadi göstəricilər sahəsində mövcud vəziyyətin təhlil edilməsidir. Məhz mövcud vəziyyətin təhlil edilməsi regionun sosial-iqtisadi inkişaf vəziyyəti, yerinə yetirilmiş və yetirilməkdə olan proqramların nəticələri baxımından xüsusi əhəmiyyətə malikdir. Azərbaycan regionlarının son 10 ildə keçdiyi inkişaf yoluna nəzər salarkən burada onların inkişafı üçün dövlət tərəfindən həyata keçirilmiş tədbirlər xüsusi qeyd olunmalıdır. Çünki neft gəlirlərindən səmərəli istifadə edilməsi yolu ilə qeyri-neft sektorunun davamlı və dayanıqlı inkişafına nail olmaq üçün dövlət proqramları qəbul olunmuş və regionlara dövlət dəstəyi istiqamətində mühüm iqtisadi siyasət həyata keçirilmişdir.

Regionların inkişafını sürətləndirmək üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2008-ci illər, 2009-2013-cü illər, 2014-2018-ci illər) uğurla başa çatdırılmış, sosial-iqtisadi inkişaf sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək məqsədilə 2019-2023-cü illər üzrə də Dövlət Proqramı təsdiq edilmişdir [1].

Bu proqramın əsas məqsədi regionlarda mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin layiqli əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında da ölkə regionlarının inkişafı diqqətdən kənarda qalmamışdır [2]. Regional inkişafı sürətləndirmək məqsədilə bu konsepsiyada nəqliyyat sisteminin daha müasir standartlara uyğunlaşdırılması əsas prioritetlərdən hesab olunur. Əsasən dəmir yolu və hava nəqliyyatının yenidən qurulması mobilliyi artırmış olacaqdır. Bundan başqa, regionlarda təhsil səviyyəsinin yüksəldilməsi və regionlar üzrə maarifləndirmənin həyata keçirilməsi bu konsepsiyada öz əksini tapmışdır. Əsas hədəf olaraq sahibkarların yeni innovativ üsullardan istifadə etməklə məhsul istehsalı və xidmət göstərmələrinin daha yüksək səviyyəyə qaldırması prioritet məsələ kimi önə çıxarılmışdır.

Qeyd etmək lazımdır ki, regional inkişaf üzrə dövlət proqramlarının icrası dövründə bütün iqtisadi rayonlara daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə 240 sərəncam imzalanmışdır.

“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş sənədə nəzər salsaq, gələcək dövrlər üçün də ölkə iqtisadiyyatının inkişafında regional səviyyədə tədbirlər planlarının həyata keçirilməsi nəzərdə tutulur [3]. Belə ki, təsdiq olunmuş 11

strateji yol xəritəsinin hər birində ölkə regionlarının mövcud potensialına uyğun inkişaf perspektivləri göstərilmişdir.

Ölkənin 10 iqtisadi rayonu içərisində öz inkişaf xüsusiyyətlərinə və iqtisadi potensialına görə seçilmiş rayonlardan biri də Gəncə-Qazax iqtisadi rayonudur. Gəncə-Qazax iqtisadi rayonu özlüyündə həm material ehtiyatı, həm də infrastruktur cəhətdən ölkənin şimal-qərb istiqamətinin inkişaf etmiş regionudur. Lakin bununla yanaşı, həmin rayonun özünəməxsus inkişaf tendensiyası mövcuddur. Rayon üçün əsas xarakterik cəhətlər əsasən iqtisadiyyatın maddi fəaliyyət sahələrinin inkişaf etməsidir. Əsasən xammal ehtiyatları ilə zəngin olan bu iqtisadi rayonun öz gücü ilə tam fəaliyyət göstərməməsinin bəzi səbəbləri kimi xarici investisiyaların kifayət qədər olmaması və müəyyən infrastrukturun innovativ yeniliklərə tam şəkildə hazır olmamasını qeyd edə bilərik.

Gəncə-Qazax iqtisadi rayonunun aparıcı sahələrindən biri olan tikinti sahəsinə nəzər salsaq, bu sahənin 7 illik inkişaf yolunu görmək olar. Belə ki, iqtisadiyyatın digər sahələrinə əsas təkanverici qüvvə olan investisiyalar bu sahədə öz dinamik artımı ilə nəzərə çarpır. Aşağıdakı cədvələ nəzər salsaq, aydın görmək olar ki, son 7 ildə artım olmuşdur [8].

**Cədvəl 1**

**Gəncə-Qazax iqtisadi rayonunda tikinti sahəsinin göstəriciləri**

| İllər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| İstifadəyə verilmişdir: | | | | | | | | |
| əsas fondlar, milyon manat | 166,7 | 314 | 459,4 | 447,8 | 729,4 | 1352,6 | 338,6 | 445,9 |
| yaşayış evləri, ümumi sahə, min kv.m | 175,4 | 346,3 | 257,6 | 336,9 | 288,2 | 212 | 206,9 | 177,5 |
| Əsas kapitala investisiyalar, milyon manat | 420,5 | 724 | 771,9 | 946,6 | 816,5 | 654,4 | 565,4 | 793,7 |
| o cümlədən: tikinti - quraşdırma işlərinə | 347,2 | 563,3 | 700,2 | 837,3 | 729,4 | 585,9 | 512,4 | 639,8 |
| Tikinti təşkilatlarının sayı, ədəd | 75 | 71 | 72 | 74 | 78 | 70 | 72 | 88 |
| Onlarda çalışan işçilərin sayı, nəfər | 2990 | 3121 | 3741 | 3842 | 3365 | 3153 | 3555 | 4348 |
| Öz gücləri ilə yerinə yetirilmiş tikinti işlərinin həcmi, milyon manat | 112,7 | 139,8 | 227,1 | 184,3 | 119,4 | 150 | 165,9 | 271,6 |

Cədvəldən göründüyü kimi, əsas kapitala investisiyaların həcmi 2010-2016-cı illərə nisbətən 1.3 dəfə artmışdır. Lakin 2013-cü ildən etibarən əsas kapitala investisiyaların həcmi azalmışdır. Belə ki, 2014-cü ildə özündən əvvəlki ilə nisbətən 14%, 2015-ci il 31%, 2016-cı ildə isə 13.6% aşağı düşmüşdür.

2011-ci ildə iqtisadi rayonda əsas kapitala investisiya qoyuluşları əvvəlki ilə nisbətən 1,8 dəfədən çox artmışdır. Buna əsas səbəb isə həmin ildə ölkə iqtisadiyyatına qoyulmuş yerli investisiyalarla yanaşı, xarici investisiyaların da regionlar üzrə payının artması olmuşdur. 2010-cu ilə nisbətən 2016-cı ildə aydın görmək olur ki, 1,3 dəfə artım olmuşdur. Bu rəqəm özlüyündə iqtisadi sahədəki inkişafı təcəssüm etdirir. Həmin dövrlərdə əsas kapitala qoyulmuş investisiyaların nəzərəçarpacaq hissəsi tikinti-quraşdırma işlərinə qoyulmuşdur. Bu isə öz növbəsində gələcək dövrlərdə daha yeni iqtisadi fəaliyyət sahələrinin inkişafı deməkdir. Tikinti-quraşdırma sahəsinə qoyulmuş investisiyaların nəzərəçarpacaq hissəsi məhsul istehsalı obyektlərinin tikintisi ilə bağlıdır. Bu isə region iqtisadiyyatı üçün daha müsbət nəticələr verəcəkdir. Bununla yanaşı, xidmət sahələri üzrə obyektlərin və yaşayış evlərinin tikintisinə ayrılmış əsas kapitala qoyulmuş investisiyaların ilbəil artması həmin iqtisadi rayonun sosial infrastrukturunun daha da yaxşılaşdırılmasına gətirib çıxaracaqdır. Bundan başqa, iqtisadi rayonda tikinti sahəsinin inkişaf etməsi özlüyündə yerli tikinti məhsullarının istehsalının inkişafına stimul vermiş olacaqdır. 2014-cü ildə isə əvvəlki ilə nisbətən

əsas kapitala investisiya qoyuluşları 14%, 2015-ci ildə isə 20% azalmasının əsas səbəbi isə dünya böhranlarının olması və ölkəmizdə milli valyutanın devalvasiyası olmuşdur. Lakin buna baxmayaraq, iqtisadi rayonda 2010-cu ildə 175.4 min kvadratmetr yaşayış evi istifadəyə verilmişdirsə, 2011-ci ildə bu rəqəm 346.3 min kvadratmetrə çatmışdır. 2016-cı ildə isə 206.9 min kvadratmetr yaşayış mənzil sahəsi istifadəyə verilmişdir. Son dövrlərdə bu göstəricinin azalmasının əsas səbəbi ondan ibarətdir ki, əvvəlki dövrlərlə müqayisədə insanların mənzil problemləri azalmış və iqtisadi rayonun bəzi hissələrinin qonşu iqtisadi rayonda işlə bağlı urbanizasiyası baş vermişdir. Tikinti sahəsinin digər müsbət nəticələrindən biri isə əsasən dövlət investisiyaları hesabına regionda sosial infrastrukturun əsaslı və yaxud cari təmiri, təmir aparmaq mümkün olmadığı halda isə həmin sosial obyektlərin (orta məktəb, bağça, xəstəxanalar, kitabxanalar) yenidən inşasının həyata keçirilməsi olmuşdur. Bununla yanaşı, gələcək dövrlər üçün regional sosial-iqtisadi inkişaf proqramları əsasında ölkə regionlarının sosial infrastrukturunun yaxşılaşdırılması məqsədi ilə mövcud infrastrukturun maddi texniki təchizatının daha da yaxşılaşdırılması və modernləşdirilməsi qarşıya bir məqsəd kimi qoyulmuşdur.

Tikinti sahəsində məhsul istehsalı obyektlərinin inşası əsas hissəni təşkil etdiyindən son dövrlərdə iqtisadi rayonda sənaye sahəsi də dinamik inkişaf edən sahəyə çevrilmişdir.

Sənaye sahəsində məhsul buraxılışı və yaxud göstərilmiş xidmətlərin həcmi 2000-ci ildə 48 milyon manat olduğu halda, 2008-ci ildə 151 milyon manat, 2015-ci ildə isə 414 milyon manat olmuşdur. Artıma səbəb isə regionun xammal bazasından artıq məhsul istehsalı üzrə ixtisaslaşmış bir iqtisadi rayona çevrilməsi olmuşdur [8].

**Cədvəl 2**

**Gəncə-Qazax iqtisadi rayonunda sənaye sahəsinin göstəriciləri**

| İllər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı cəmi, vahid | 288 | 270 | 269 | 264 | 271 | 297 | 288 | 247 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi (müvafiq ilin qüvvədə olan faktiki qiymətləri ilə), milyon manat | 269,8 | 263,6 | 332,8 | 304,8 | 329,3 | 413,5 | 615,7 | 770,8 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, əvvəlki ilə nisbətən, faizlə (müqayisəli qiymətlərlə) | 157,4 | 98,0 | 157,8 | 102,7 | 109,5 | 117,3 | 119,3 | 102,0 |
| Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 45,0 | 49,0 | 66,0 | 59,0 | 54,2 | 57,5 | 59,8 | 74,4 |
| İstehsal edilmiş hazır məhsulun ilin sonuna qalığı, min manat | 12253 | 28273 | 26960 | 19704 | 19656 | 30406 | 35464 | 39855 |
| İşçilərin orta siyahı sayı - cəmi, nəfər | 13040 | 13117 | 12505 | 15035 | 13359 | 11642 | 12363 | 12854 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 259,4 | 283,9 | 303,1 | 331,7 | 370,7 | 413,3 | 422,2 | 434,9 |
| Sənaye-istehsal əsas fondlarının mövcudluğu (ilin sonuna; balans qiymətləri ilə), milyon manat | 563,2 | 773,6 | 918,2 | 1073 | 1171 | 1106 | 1170 | 1201,8 |

Ümumi məhsul buraxılışı 2009-cu ildə əvvəlki ilə nisbətən 32 faiz azalmışdır. Lakin həmin dövrün fiziki həcm indeksinə baxdıqda bu dövrdə məhsulun natura ifadəsində buraxılışının artdığını görürük. Bununla yanaşı, sənaye sahəsi üzrə müsbət dəyişikliklərdən biri də sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun payının 2001-ci ildə 36% olduğu halda, 2015-ci ildə bu göstəricinin 57.5% olmasıdır. Bu isə öz növbəsində özəl sektorun inkişafını xarakterizə edir. İqtisadi rayonun 2014-cü və 2015-ci illərin sənaye sahəsinin 4 altqrup üzrə bölgüsünə nəzər salsaq, aydın görmək

olar ki, emal sənayesi iqtisadi rayon üzrə digər sahələrdən, ən çox pay nisbətinə malikdir. Emal sənayesinin daxilinə nəzər saldıqda isə əsas payın metallurgiya sənayesinin və avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrinin payına düşür. Bunlar onu təcəssüm etdirir ki, iqtisadi rayon xammaltutumlu iqtisadi fəaliyyət sahəsinin inkişafı üzrə ixtisaslaşmışdır. Bu isə öz növbəsində gələcək dövrlər üçün sənayenin digər sahələrinin inkişafına təkan vermiş olacaqdır. Sənaye sahələri bir-biri ilə sıx əlaqəli olub, istər xammal, istərsə də işçi qüvvəsinə tələbatı olan sahələrdəndir.

Bununla yanaşı, iqtisadi rayonun istər təbii coğrafi mövqeyi, istərsə də xammal resursları imkan verir ki, sənayenin digər sahələrini inkişaf etdirmək mümkün olsun. İqtisadi rayonun sənaye sahəsinin çatışmazlıqlarından biri isə qida məhsullarının istehsalı, içki və geyim istehsalı sahələri üçün xammal bazası mövcud olduğu halda, bu sahələrin cəmi ümumi emal sahəsinin 12% qədərini təşkil etməsidir. Bu sahələrin kompleks şəkildə inkişafı gələcək dövrlər üçün yalnız həmin regionun ərzaq balansına deyil, həm də ölkə səviyyəsində ərzaq balansının formalaşmasına və yerli istehsalın stimullaşmasına imkan verəcəkdir. Regionun sənaye sahəsinin digər çatışmazlıqlarından biri də əsasən xammaltutumlu, ağır əmək tələb edən sahələrin daha geniş yayılmasıdır. Yaxşı olardı ki, iqtisadi rayonda daha çox sənayenin elmtutumlu sahələri inkişaf etdirilsin.

İqtisadi rayonda kənd təsərrüfatı da önəmli yer tutur. İlkin olaraq kənd təsərüffatı sahəsində bitkilərin ümumi əkin sahəsinə və onun daxili quruluşuna nəzər salaq [8].

**Cədvəl 3**

**Gəncə-Qazax iqtisadi rayonunun kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (hektarla)**

| İllər | Dənli və dənli paxlalılar | Pambıq | Şəkər-çuğunduru | Günə-baxan | Kartof | Tərəvəz | Bostan bitkiləri | Meyvə və gilə-meyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|---|
| **2010** | 90265 | 889 | 18 | 3576 | 31713 | 12816 | 1751 | 14405 | 4071 |
| **2011** | 91894 | 1352 | - | 5452 | 30229 | 12711 | 1459 | 14522 | 4230 |
| **2012** | 95035 | 1380 | 85 | 4953 | 31022 | 12321 | 1039 | 14620 | 4459 |
| **2013** | 101972 | 960 | 356 | 4893 | 31906 | 12150 | 1196 | 14774 | 4081 |
| **2014** | 94654 | 622 | 398 | 6260 | 29828 | 11906 | 1084 | 14927 | 4080 |
| **2015** | 86111 | 566 | 458 | 5647 | 29819 | 11864 | 968 | 15399 | 4263 |
| **2016** | 91063 | 2354 | 2054 | 4816 | 31163 | 11852 | 1120 | 15943 | 4220 |
| **2017** | 98382 | 5053 | 4433 | 9666 | 29504 | 11695 | 789 | 16223 | 4274 |

Cədvəldən aydın görünür ki, əkin sahələrinin ümumi ərazisi 2000-ci ilə nisbətən 2015-ci ildə 61% artmışdır. Bu isə öz növbəsində əsasən yem bitkilərinin, dənli və dənli paxlalı bitkilərin əkin sahələrinin genişlənməsi hesabına olmuşdur. Dənli və dənli paxlalı bitkilərin əkin sahələrinin genişlənməsi özlüyündə əsasən ərzaq məhsullarını xammal bazasının genişlənməsinə xidmət etdiyindən gələcək dövrlər üçün qida sənayesinin inkişafına təkan vermiş olacaqdır. Yem bitkilərinin əkin sahələrinin genişlənməsi isə əsasən heyvandarlıq sahəsini daha çox yemlə təmin etməyə imkan verəcəkdir. Heyvandarlığın müxtəlif növlərinin inkişafı ilk öncə mövcud problemləri önləməklə yanaşı, gələcək dövrlər üçün heyvandarlıq məhsullarının qiymətinin aşağı düşməsinə səbəb ola bilər. Gəncə-Qazax iqtisadi rayonunun heyvandarlıq sahəsində müxtəlif növ heyvanların sayına nəzər yetirdikdə isə aydın görmək olur ki, 2000-ci ildən 2015-ci ilədək iribuynuzlu mal-qaranın sayında 40%, qoyun və keçilərin sayında 50%, quşların sayında 32%, arı ailələrin sayında 3.7 dəfə artım qeydə alınmışdır. Bu özlüyündə heyvandarlıq sahəsinin inkişafından xəbər verir. Cins tərkiblərinə nəzər saldıqda isə aydın görmək olar ki, artıq ilbəil heyvandarlıq sahəsində daha çox məhsuldar heyvan cinslərindən istifadə olunur.

Gəncə-Qazax iqtisadi rayonun turizm sahəsinin real vəziyyətini təhlil etməmişdən əvvəl onu qeyd etmək lazımdır ki, regionun təbii iqlim şəraiti və qədim tarixi imkan verir ki, bu region nəinki yerli turistlərin, hətta gələcəkdə müvafiq infrastruktur yaradılarsa, xarici turistlərin də maraq dairəsində ola bilər. Regionun turizm sahəsinin daima inkişaf prosesində olduğunu aydın görmək olur. Regionda yaradılmış yeni infrastruktur əsasən turizm sahəsinin inkişafına yönəlmişdir. Turizm

sahəsinə diqqət yetirdikdə ilkin olaraq əsas ünsürə diqqət yetirmək vacib şərtlərdəndir. Birincisi regionda daxili turizm, ikincisi isə regiona xarici turistlərin gəlməsi nəzərdə tutulur. Yerli, yəni daxili turizmin inkişafının üstün cəhəti ondan ibarətdir ki, yerli turizmin inkişafı həmin regionun iqtisadi potensialını qaldırmaqla yanaşı, ölkə iqtisadiyyatınında inkişafına təkan vermiş olur. Belə ki, yerli turistlərin xərclədiyi vəsait region iqtisadiyyatının xidmət sferasını canlandırmaqla yanaşı, dönərli ölkə valyutasının ölkədən çıxmasını qarşılamış olur. Əgər daxili turizmdən istifadə etməyən vətəndaşlar xarici ölkəyə gedərlərsə, onda məcburi halda həmin vətəndaşlar yerli valyutanı xarici valyutaya dəyişməyə məcbur olacaqlar. Bu isə ölkədən xarici valyutanın axınını təmin etmiş olacaqdır. Bizə isə indiki iqtisadi durumda maksimum ölkəyə xarici valyuta gətirmək və qeyri-neft sahəsini, əsasəndə xidmət sahəsini inkişaf etdirməkdir. Yerli turizmin inkişafının digər bir üstün cəhəti ondan ibarətdir ki, xarici turistlərin əsasən iqlimin müvafiq vaxtlarında həmin regiona gəldiyi halda, yerli turistlər isə ilk istirahət vaxtları olduğu halda belə, həmin iqtisadi rayona gələrək turizm xidməti sahəsinin aktiv istifadəçisi olacaqlar. Lakin bizim əsas məqsədimiz daxili turizmlə paralel ölkəyə maksimum xarici turistləri cəlb etməkdir. Bunun üçün isə ilk olaraq bizə dünya təcrübəsi kömək edəcəkdir. İlkin olaraq regionda turizm sahəsini həyata keçirmək üçün həm marketinq fəaliyyətini və sosial infrastrukuru yenidən qurmağa ehtiyac duyulur. Sosial infrastrukturun yaradılması zamanı yenidən qurulmuş turizm obyektləri əsasən dünya standartlarına cavab verən göstəricilər çərçivəsində yenidən qurulması məqsədəmüvafiq hesab edilir. Marketinq fəaliyyətinin əsas məqsədi ondan ibarətdir ki, xarici turistlər istirahət yerlərini seçməzdən əvvəl ilkin olaraq həmin yerlər haqqında daha dolğun informasiya əldə etmək istəyirlər. Bunun üçün yaxşı olardı ki, iqtisadi rayonun sosial infrastrukturu barədə məlumat bazası hazırlanaraq onlayn istifadəyə verilmiş olsun. Həmin informasiyanın birbaşa istifadəçilərə çatdırılması və düzgün marketinq piarının aparılması maksimum regionun turizm fəaliyyətini yüksəltməyə xidmət etmiş olacaqdır. Digər vacib ünsürlərdən biri isə turizm fəaliyyəti sahəsində göstərilmiş xidmətlərin səviyyəsidir. Bunun üçün müntəzəm olaraq iqtisadi rayona daima xarici ölkələrin bu sahə üzrə ixtisaslaşmış mütəxəssisləri dəvət olunmalı və mövcud çatışmazlıqların ortaya çıxarılması ilə yanaşı, daima təlimlər keçirilməlidir. Nəzərə almaq lazımdır ki, turizm fəaliyyətinin inkişafı 50%-i sosial infrastrukturdan ibarətdirsə, 50%-i isə göstərilən xidmət səviyyəsi və xidmət personalından asılıdır. Bunun üçün də infrastrukturun inkişafı ilə yanaşı, xidmət səviyyəsinə də mütləq halda nəzarət etmək lazımdır. Daima təkmilləşmiş idarəçilik sistemində həmin sahənin inkişafını maksimum artırmaq mümkündür. Gəncə-Qazax iqtisadi rayonunda turizm sahəsi istər dövlət, istərsə də özəl sektorun daima maraq dairəsində olmuşdur. Regional dövlət proqramları qəbul edilərkən adı çəkilən iqtisadi rayonun turizm sahəsi üçün daima vəsait ayrılır. Özəl sektora gəldikdə isə bu regionda daima yeni standartlara cavab verən hotel və istirahət komplekslərinin tikintisi buna bariz nümunədir.

Regionun digər əsas iqtisadi sahəsinin inkişafını xarakterizə edərkən ticarət sahəsinin inkişafına nəzər salmaq lazımdır. Ticarət sahəsi elə bir spesifik sahədir ki, bu sahənin inkişafı digər sahələrin inkişafına zəmin yaradır. Belə ki, digər iqtisadi sahələrdə yaradılan məhsul və xidmətlər məhz ticarət sahəsində reallaşır. Buna görə də bu sahənin inkişafı daima diqqət mərkəzində olmalıdır. Ticarət sahəsinin göstəriciləri ilə əhalinin alıcılıq qabiliyyəti arasında asılılığın olması bizə məlumdur. Yəni əhalinin gəlirləri artdıqca onlar bu gəlirlərin bir qismini xərcləməyə üstünlük verirlər. İlkin olaraq ticarət sahəsinin pərakəndə ticarət dövriyyəsi artır ki, bu da öz növbəsində topdansatış dövriyyəsini artırır. Gəncə-Qazax iqtisadi rayonunun pərakəndə satış dövriyyəsinin artımı son 13 ildə (2004-2016-cı illər) 6.9 dəfə çox olmuşdur. Həmin dövr üçün isə cəmi ölkə üzrə pərakəndə ticarət dövriyyəsi 8.2 dəfə çox olmuşdur. Buradan aydın görmək olar ki, iqtisadi rayonun artım tempi çox da ölkənin artım tempindən geridə qalmamışdır [6].

İqtisadi regionun sosial-iqtisadi vəziyyətindən danışarkən əsas bir amilə diqqəti yönəltmək lazımdır. Əhalinin məşğulluq problemi, işlə təminatı demək olar ki, iqtisadi rayonun bütün iqtisadi durumuna təsir göstərir. Məşğulolan əhali demək olar ki, əmək fəaliyyəti nəticəsində gəlir əldə edir və öz tələbatını ödəmək istiqamətində addımlar atır [7].

**Cədvəl 4**

**Gəncə-Qazax iqtisadi rayonunun əmək bazarının göstəriciləri**

| İllər | İqtisadiyyatda muzdla işləyənlərin sayı, min nəfər | Orta aylıq nominal əməkhaqqı, manat | İşsiz statusu almış şəxslərin sayı, nəfər |
|---|---|---|---|
| 2010 | 138,3 | 213,2 | 2730 |
| 2011 | 136,5 | 233,7 | 2746 |
| 2012 | 143,5 | 250,7 | 2503 |
| 2013 | 144,9 | 266,6 | 2359 |
| 2014 | 142,6 | 287,4 | 1941 |
| 2015 | 143,9 | 290,6 | 1799 |
| 2016 | 142,5 | 291,6 | 2181 |
| 2017 | 141,0 | 303,3 | 2640 |

Cədvəldən göründüyü kimi, iqtisadi rayonda muzdla işləyənlərin sayı son 12 ildə (2004-2015-ci illər) 7.0 faiz artmışdır. Həmin dövr ərzində orta aylıq əməkhaqqı təqribən 5.4 dəfə artmışdır. Bu iqtisadiyyat üçün yaxşı haldır. Əhalinin əməkhaqqının artması onların həm tələbatlarının ödənilməsi, həm də sərəncamında artıq maliyyə vəsaitinin qalması deməkdir. Bu isə gələcək dövrlər üçün iqtisadiyyatda kiçik və orta sahibkarlığın yaranmasına istiqamət vermiş olacaqdır. Bundan başqa nəzərə almaq lazımdır ki, yuxarıda qeyd olunan əmək fəaliyyəti ilə məşğul olanlar iqtisadiyyatda muzdla işləyən əhalinin (rəsmi əməkhaqqı alan) sayıdır. Unutmaq lazım deyildir ki, region əhalisinin özünüməşğulları, ailə və ev təsərrüfatında işləyənləri və ailə təsərrüfatına kömək edən (əvəzsiz işləyən) əhali təbəqəsi də vardır. İqtisadi rayonun əksər hissəsi kənd təsərrüfatı sahəsi ilə fəal məşğul olduğundan əhalinin əksər hissəsi yuxarıda qeyd etdiyimiz rəsmi əməkhaqqı almada öz tələbatını təmin etmək üçün mallarının istehsalı ilə məşğuldur. Buna baxmayaraq iqtisadi rayonda işsizlik də mövcuddur. Rəsmi olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti orqanlarında işsiz kimi qeydiyyata alınmış işsizlərin sayı 2004-cü ildə 3729 nəfər idisə, 2015-ci ildə bu rəqəm yarıbayarı azalaraq 1719 nəfərə çatmışdır. 2017-ci ildə isə bu rəqəm 2640 olmuşdur ki, bunun üçün də işsizlik probleminin həll edilməsi özlüyündə regional urbanizasiya problemini də həll etmiş olacaqdır. Belə ki, özünə iş tapmış region əhalisi öz regionunda yaşayacaq və iş tapmaq üçün mərkəzi şəhərlərə (paytaxt ətrafı) miqrasiya etməyəcəklər.

Gəncə-Qazax iqtisadi rayonu üzrə yeni açılmış iş yerlərinin sayında da ciddi artım müşahidə olunmuşdur. Belə ki, 2010-cu illə müqayisədə yeni açılmış iş yerlərinin sayı 2017-ci ildə 2.7 dəfə artmışdır [7].




Şəkil 1. İqtisadi rayon üzrə yeni açılmış iş yerlərinin cəmi sayı

Ölkə iqtisadiyyatını inkişaf etdirmək, müvafiq sahələrin inkişafına təkan vermək məqsədilə İqtisadiyyat Nazirliyi yanında yaradılmış Sahibkarlığa Kömək Milli Fondunun ölkə regionlarının inkişafında rolu böyük olmuşdur. Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına ölkə üzrə ümumilikdə 19,1 min sahibkarlıq subyektinə 1,2 milyard manat güzəştli kredit verilmiş, nəticədə 110 min yeni iş yeri yaradılmışdır. "Azəralüminium" ASC-nin, "Gəncə Gil-Torpaq" və "Zəylik Alunit" müəssisələrinin xarici şirkətə idarəetməyə verilməsi onların əhəmiyyətli inkişafına səbəb olmuşdur. Həmçinin "Daşkəsən Filizsaflaşdırma" ASC-yə iki il müddətində 11 milyon ABŞ dolları səviyyəsində investisiya qoyulması nəzərdə tutulmuşdur [4].

Belə ki, 2004-cü ildən 2016-cı ilədək bu fond ölkədə 31459 layihəni maliyyələşdirmişdir ki, bu layihələrin 6119-u Gəncə-Qazax iqtisadi rayonun payına düşmüşdür. Ümumilikdə təqdim olunan layihələrin monitorinqi və qiymətləndirilməsi regional şöbələrdə qəbul olunduğundan və yaxud elektron şəkildə müraciətin mövcud olduğundan sahibkarların regionlarda vaxt itirmədən bu fonda müraciət etmək imkanı vardır. Həmin lahiyələrin ölkə üzrə dəyəri 1932.3 milyon manat olmuşdur ki, bununda 230.4 milyon manatı Gəncə-Qazax iqtisadi rayonun payına düşmüşdür. Sahibkarlara müvafiq kredit təşkilatları tərəfindən verilən kreditlərin ölkə ərazisində digər kreditlərdən daha aşağı faizə verilməsi sahibkarlıq sahəsini daha qısa müddətdə inkişaf etdirməyə zəmin yaratmışdır. Layihələrin icrası zamanı 143207 nəfərlik yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur ki, bu yeni iş yerlərinin 25686 nəfəri Gəncə-Qazax iqtisadi rayonunun payına düşür [4].

Ümumilikdə iqtisadiyyatın bütün sahələrinə investisiya yönəldilmişdir. Bunların içərisində isə əsasən kənd təsərrüfatı, sənaye sahəsi (emal sahəsi) və tikinti sahəsinə investisiya qoyulmuşdur. Əsasən regionun coğrafi-iqtisadi mövqeyi kənd təsərrüfatına yararlı olduğundan bu regionda kənd təsərrüfatı və qida sənayesi sahəsi üzrə investisiyalar dəyərləndirilmiş və investisiyalar həyata keçirilmişdir. Bundan başqa, regionlarda yaradılmış yeni müəssisələrin əksəriyyəti kiçik və orta sahibkarlıq subyektləridir ki, bununda sayəsində yeni yaradılmış müəssisələr yeni biznes inqubatorlarını əvəz etmiş olur ki, bu müəssisələrin gələcəkdə daha da böyüdülməsində bir sınaq rolunu oynamış olur. Bundan sonrakı dövrlərdə də sahibkarlığa dövlət dəstəyinin verilməsi üçün daha təkmil proqramların işlənməsi fondun əsas istiqamətlərindən biridir.

Bütün sahələrin sinxron fəaliyyət göstərməsi üçün əmək qüvvələrinin rolu danılmazdır. İstər investisiya qoyuluşlarında, istərsə də mövcud sahələrin fəaliyyət göstərməsində ixtisaslı kadr olmasının vacibliyi meydana çıxmışdır [5]. Bunun üçün də gələcək dövrlərdə kadr siyasətini daima təkminləşdirməyə ehtiyac vardır. Bundan əlavə, qeyd etmək lazımdır ki, bütün iqtisadi fəaliyyət növlərinin fəaliyyət göstərməsi üçün əmək qüvvələri mərkəzi yerdə durur. Fəaliyyətin kefiyyətli nəticəsi xammal və avadanlıqlardan asılı olduğu kimi əsasən də işçi qüvvəsinin gördüyü işlərin kefiyyətindən də bilavasitə asılıdır. İşçi qüvvəsinin daima təkmilləşməsi, öz bilik və bacarığını daima inkişaf etdirməsi, həm istehsalın və xidmətin kefiyyətinə təsir göstərəcək, həm də ki onların gələcəkdə öz ixtisasları üzrə hazır kadr potensialını zənginləşdirmiş olacaqdır ki, bununda son nəticəsi ölkə iqtisadiyyatının daima inkişafına gətirib çıxaracaqdır. Bundan əlavə, region əhalisinin daima yeni innovativ sahələr üzrə kadr potensialını gücləndirmək üçün treninqlərin, ixtisasartırma kurslarının planlı şəkildə həyata keçirilməsi vacibdir.

## Nəticə

Ölkə iqtisadiyyatının davamlı inkişafı üçün onun iqtisadi rayonlarının inkişafı vacib amillərdəndir. Bunun üçün də inkişaf prosesinin daha təkmil nəticələrin alınması üçün iqtisadi rayonların mövcud vəziyyəti tam araşdırılmalı, iqtisadi potensialı ortaya çıxarılmalı və gələcək dövrlər üçün sosial-iqtisadi inkişaf proqramları həyata keçirilərkən həmin nəticələrdən istifadə olunmalıdır. Nəzərə almaq lazımdır ki, bütün iqtisadi proseslərin bir-biri ilə əlaqələndirilməsinin mərkəzində işçi qüvvəsi durur ki, bu sahənin daha dərindən öyrənilməsi və təkmilləşdirilməsi arzu olunan nəticələrin əldə edilməsinə yaxından kömək etmiş olacaqdır. Əmək bazarının daima tədqiq edilməsi və müsbət meyarlar üzrə inkişafı regional iqtisadiyyatın daha davamlı və dayanıqlı inkişafına zəmin yaratmış olacaqdır.

**Elnur Rüstəmov**

**Gəncə-Qazax iqtisadi rayonunun sosial-iqtisadi inkişafında əmək bazarının rolu**

**Xülasə**

Məqalədə ölkə iqtisadiyyatının tam inkişafı üçün onun regionlarının kompleks araşdırılması və çatışmayan hissələrin ortaya çıxarılması ilə yaranmış problemi həll etmək mümkün olması qeyd edilir. Göstərilir ki, bütün iqtisadi fəaliyyət növlərinin əlaqəliliyini təmin edən və bütün iqtisadi proseslərinin mərkəzində əmək münasibətləri durduğundan bu sahənin araşdırılması vacibdir. Əmək münasibətləri əmək bazarında tələb və təklif əsasında tənzimləndiyi üçün insan kapitalının araşdırılması bu bazara təsir göstərən ilkin amil hesab olunur. 2010-2017-ci illərdə Gəncə-Qazax iqtisadi rayonunda iqtisadi sahələrin və əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri götürülərək təhlil edilmiş, regionda insan kapitalının mövcud vəziyyəti və inkişaf istiqamətləri göstərilmişdir. Mövcud çatışmazlıqlar üzə çıxarılmış, beynəlxalq təcrübədən istifadə edilməklə problemin həlli yolları qeyd edilmişdir. Bildirilir ki, gələcək dövrlərdə qeyd olunan çatışmazlıqların aradan qaldırılması daha müsbət nəticələrin əldə edilməsinə imkan yaratmış olacaqdır.

**Эльнур Рустамов**

**Роль рынка труда в социально-экономическом развитии Гянджа-Газахского экономического района**

**Резюме**

В статье отмечается, что для полноценного развития экономики страны необходимо комплексное исследование всех ее регионов и устранение существующих проблем. Важно исследовать эту область, т.к. она находится в центре всех экономических процессов и относится ко всем видам экономической деятельности и трудовых отношений. Поскольку трудовые отношения регулируются на основе спроса и предложения на рынке труда, исследования вопросов человеческого капитала считаются основным фактором, влияющим на рынок. За 2010-2017 гг. произведен тщательный анализ по основным социально-экономическим показателям ключевых отраслей экономики и рынка труда региона, показаны современное состояние и тенденции развития человеческого капитала в регионе. Выявлены имеющиеся недостатки и отмечены пути решения проблем с использованием международного опыта. В будущем устранение указанных недостатков даст возможность получить более позитивные результаты.

**Elnur Rustamov**

**The role of the labor market in socio-economic development of the Ganja-Gazakh economic region**

**Summary**

The article highlights the importance for the full development of the country’s economy and the elimination of existing problems can be solved through a comprehensive study of all its regions. Studying this area is necessary since it is at the core of all economic processes and applied to all types of economic activity and labour relations. Since labour relations are regulated on the basis of supply and demand in the labour market, the study of human capital is the main factor affecting the market. The main socio-economic indicators of key sectors of economy and labour market of the region during 2010-2017, the current status and trends of development of human capital in the region were analyzed. Current deficiencies and ways of solving problems using international experience were identified. Eliminating the given deficiencies will enable getting more positive results in the future.

## Ədəbiyyat

1. https://www.economy.gov.az/article/state-programs/21429
2. https://president.az/files/future_az.pdf
3. http://static.president.az/pdf/38542.pdf
4. https://www.economy.gov.az/article/gence-qazax-iqtisadi-rayonu-2017/22682
5. https://www.stat.gov.az/source/regions/#
6. https://weforum.ent.box.com/s/dari4dktg4jt2g9xo2o5pksjpatvawdb
7. https://www.stat.gov.az/source/labour/az/001_1.xls
8. https://www.stat.gov.az/source/regions/az/004.xls

Məqalə redaksiyaya daxil olmuşdur: 28.06.2019
Təkrar işlənməyə göndərilmişdir: 02.07.2019
Çap üçün qəbul olunmuşdur: 17.07.2019

UOT: 336.648, 336.77, 338.434
DOI: 10.33870/1012-1211-2019-3-2495
JEL Classification codes: E51, Q14

# FERMER TƏSƏRRÜFATLARININ KREDİT RESURSLARINA ÇIXIŞ İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

***Əbdülrəhim Dadaşov***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Maliyyə və maliyyə institutları kafedrasının doktorantı*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: ebdulrehimdadasov@gmail.com*

**Açar sözlər:** fermer təsərrüfatı, kənd təsərrüfatı, kredit resursları, çıxış imkanları, investisiya.
**Ключевые слова:** фермерское хозяйство, сельское хозяйство, кредитные ресурсы, доступность, инвестиции.
**Keywords:** farming, agriculture, credit resources, accessibility, investment.

## Giriş

Aqrar-sənaye müəssisələri ölkənin qida təhlükəsizliyinin təmin edilməsində və əhalinin qida ilə təminatı prosesində böyük rol oynayır. Qeyd etmək lazımdır ki, mənfəət müəssisələrin maliyyələşdirilməsinin başlıca, lakin vahid mənbəyi deyildir. Kənd təsərrüfatı istehsalında dövriyyə vəsaitlərinin qeyri-bərabər hərəkəti kənd təsərrüfatı müəssisələrinin dövriyyə kapitalının çatışmazlığına səbəb olur. Beləliklə, belə müəssisələr əksər hallarda maliyyə resurslarının cəlb edilməsinə ehtiyac duyurlar. Cəlb edilmiş maliyyə resurslarının bir növü də kreditləşmədir ki, kənd təsərrüfatı sahəsində əlverişli kredit resurslarına çıxışın olması fermer təsərrüfatları üçün aktual məsələlərdən biridir. İqtisadiyyatın digər sektorları kimi kənd təsərrüfatı istehsalının kreditləşmə xüsusiyyətləri kredit müqaviləsində əks etdirilən kredit şərtləri baxımından ifadə edilir. Kənd təsərrüfatı sahəsində istehsalçıların, xüsusilə fermer təsərrüfatlarının kreditləşməsinin bir sıra əsas xüsusiyyətləri vardır:

- kapitaltutumlu sahə olması;
- fondverimliliyin aşağı olması;
- gəlir və xərc dövrlərinin uyğunsuzluğu;
- istehsalın texnoloji dövrünün mövsümiliyi;
- istehsalın fasiləsizliyi və təsərrüfatda özünəməxsus idarəetmə sisteminin olması;
- dövretmə sürətinin aşağı olması;
- girov təminatının özünəməxsusluğu.

Kənd təsərrüfatı sahəsi digər iqtisadiyyat sahələrindən fərqli olaraq, daha riskli və nisbətən kapitaltutumlu sahə olduğundan, kredit resurslarına çıxış imkanları da məhduddur. Fermer təsərrüfatları ilə maliyyə institutları arasındakı kredit münasibətlərinin xüsusiyyətləri və onların təkmilləşdirilməsi məsələsi getdikcə aktuallaşmaqdadır.

Bu xarakterik xüsusiyyətlər iqtisadiyyatın digər sahələrinə nisbətən kreditləşmə üçün kənd təsərrüfatının daha az əlverişli mövqeyi olmasını göstərir. Təsadüfi deyildir ki, dövlətin iqtisadi siyasəti prizmasından və yuxarıda sadalanan məqsədlərdən qeyd etmək olar ki, Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli Fərmanı ilə təsdiq etdiyi "Kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair strateji yol xəritəsi"ndə 3.1-ci strateji prioritetdə kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi məsələlərində də maliyyə institutlarının aqrar sahədə fermer təsərrüfatlarının maliyyə və zəmanət fondu, kredit, sığorta və məsləhət xidmətlərinə çıxışının asanlaşdırılması məsələləri ön plana çıxarılmışdır. Bu zəmində pilot ixracatçı fermerlər

seçilərək maliyyə institutlarının vasitəçiliyi ilə dünya bazarına əlverişli çıxışının təmin edilməsi prosesi reallaşacaqdır. [7,19, səh. 82]

Potensial ixrac bazarları və məhsulları haqqında fermer təsərrüfatlarına informasiya ilə təminatı, marketinq tədqiqatları əsasında hazırlanmış ixrac strategiyalarının fermerlərin iqtisadi maraq və mənafelərinə uyğunlaşdırılması zəruridir. Ondan başqa, ixrac potensialı olan 200 pilot fermer təsərrüfatının seçilməsi heç də təsadüfi deyildir. Beynəlxalq standartlara cavab verən məhsul istehsalı qabiliyyətinə malik bu fermer təsərrüfatlarına həm də beynəlxalq sertifikat alınmasında dövlət tərəfindən müvafiq dəstək də göstərilməsi bu Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərə aiddir. İxracatçı fermer təsərrüfatlarının gəlirlərindən tutulan vergi güzəştlərinin həcmində, subsidiya mexanizmində, eləcə də əlavə aqrotexniki tədbirlərin, istehsal vasitələrinin idxalında, Aqrolizinq ASC tərəfindən güzəştli satışının, gömrük rüsumlarının tətbiqi siyasətində, Aqrar (təkrar) sığorta və AqroExim bankçılıq mexanizmlərinin, Kredit Zəmanət Fondu yaradılması məsələlərinin 7 nömrəli Strateji hədəfində tədbirlər olaraq vurğulanması bu sahədə Strateji Yol Xəritəsinin əhəmiyyətini bir daha ortaya çıxarmışdır.

Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli Fərmanı ilə təsdiq etdiyi "Maliyyə xidmətlərinin inkişafına dair strateji yol xəritəsi"ndə 1.4-cü strateji prioritetdə maliyyə inkluzivliyin gücləndirilməsi, maliyyə xidmətlərinin çatdırılması kanallarının inkişafı, maliyyə institutları üçün əlverişli tənzimləmə və dinamik nəzarət çərçivəsinin yaradılmasının zəruriliyi vurğulanmışdır. Postneft dövrlü Azərbaycan iqtisadiyyatı üçün aqrar sferanın ərzaq təhlükəsizliyinə və ixraca yönəlik inkişafı prioritet sahə hesab olunmuşdur [8; 20, səh. 25].

**Azərbaycanda fermer təsərrüfatlarının kreditləşmə mexanizminin əsas xüsusiyyətləri və kənd təsərrüfatına kredit qoyuluşlarının mövcud vəziyyəti**

Mövsümi sahə məhsullarının yuxarıda qeyd edilən əlaqəsini nəzərə ala bilən qiymət, qeyri-mövsümi sahələrin məhsullarına nisbətən həmin məhsulların istehsalına sərf olunan ictimai-zəruri əmək məsrəflərinin daha yüksək səviyyəsini özündə əks etdirir. Bu isə istehsalın nəticəsinə mənfi təsir göstərə bilər, bank-maliyyə təşkilatları və müəssisələr arasında qarşılıqlı münasibətlərin pozulmasına səbəb olar.

Ona görə də bazar iqtisadiyyatı şəraitində bank-maliyyə orqanları ilə sahibkarlıq subyektləri arasında birbaşa qarşılıqlı münasibətlərə böyük əhəmiyyət verilməli və onun formalaşdırılmasında sahənin istehsal xüsusiyyətləri nəzərə alınmalıdır. Kənd təsərrüfatı müəssisələrində istehsalın bilavasitə təbii amillərdən asılı olması hər bir halda təsərrüfatları yüksək faizli, ağır şərtli kredit vəsaiti götürməkdən çəkindirir. Ona görə də kənd təsərrüfatı məhsulları istehsalı və emalı ilə məşğul olan bütün müəssisələrdə dövlətin kredit siyasəti başqa sahələrdən fərqli olmalı, onların maliyyə vəziyyətinin sabitləşməsinə və kreditdən istifadənin səmərəliliyinin yüksəldilməsinə xidmət etməklə onun vaxtında qaytarılmasına şərait yaratmalıdır.

Araşdırmalar göstərir ki, son illərdə baş verən siyasi-iqtisadi proseslər aqrar sahənin ölkəmizin iqtisadiyyatında mühüm yer tutmasını zəruri etmiş və bu sahənin inkişafı dövlətin diqqət mərkəzində olmasını şərtləndirmişdir. Məhz bu baxımdan kənd təsərrüfatının inkişafına diqqət daha da artırılmış və 2015-ci il kənd təsərrüfatı ili elan edilmişdir. Respublikada maliyyə vəziyyətində olan gərginliyə baxmayaraq emal müəssisələrinə, eləcə də kənd təsərrüfatı müəssisələrinə kredit verilməsinə üstünlük verilməlidir. Lakin kredit hesabına istehsal olunmuş məhsulun satışı düzgün təşkil edilmədiyindən onun geri qaytarılma müddətinə əməl edilməsində ciddi problemlər yaranacağını nəzərə alaraq istehsal olunan məhsulların satış mexanizminin təkmilləşdirilməsi və dövlət dəstəyinin təkmilləşdirilməsi məqsədəuyğundur.

Aqrar-sənaye müəssisələri sistemində yeni iqtisadi münasibətlər formalaşdırılmadan, bank-maliyyə, vergi, kredit və qiymət sistemini təkmilləşdirmədən xüsusi mülkiyyətə əsaslanan kənd təsərrüfatı müəssisələrinin fəaliyyət göstərməsi qeyri-mümkündür. Odur ki, istehsal sahələrində olduğu kimi xidmətedici sahələrdə, emal və satış strukturlarında da azad sahibkarlığın inkişafına hüquqi, iqtisadi, texniki və təşkilati şərait yaradılmışdır.

Müstəqilliyin ilk illərində büdcədə maddi vəsaitin azlığı kənd təsərrüfatına ayrılan vəsaitə öz ciddi təsirini göstərmişdir. Lakin neft strategiyasının uğurla aparılması büdcə gəlirlərinin artırılmasına

öz təsirini göstərmişdir ki, bunun da nəticəsində aqrar sferaya kredit qoyuluşunda artım olmuşdur.

Keçid iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasında kənd təsərrüfatının kreditləşdirilməsi sahəsində dövlət tərəfindən müəyyən addımlar atılmışdır:

1993-1996-cı illərdə kreditlər üçün faizlər Mərkəzi Bankın mərkəzləşdirilmiş kredit resursları üçün faiz dərəcələrinin 1\3-1\4 hissəsi həcmində müəyyənləşdirilmiş və bazarda formalaşan faizlərin səviyyəsindən bir neçə dəfə aşağı olmuşdur. Həmçinin kənd təsərrüfatı istehsalçılarına kommersiya bankları tərəfindən verilən kreditlərin faizlərinin qismən dövlət tərəfindən ödənilməsi mexanizmlərinin tətbiqi istiqamətində əməli tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə 1998-2001-ci illərin dövlət büdcəsində ayrıca sətirlə fermer təsərrüfatlarına kredit güzəştləri fonduna vəsait ayrılması nəzərdə tutmuşdur. Hökumət tərəfindən fermer təsərrüfatlarına kredit güzəştləri fonduna ayrılan vəsaitin istifadə qaydaları müəyyən edilmişdir. Həmin vəsaitin ümumi həcmi çox da böyük olmamışdır (vəsaitin nəzərdə tutulan məbləği 3-4 milyard manat olmuşdur).

Aqrar sferaya qoyulan kredit vəsaitlərinin həcmi 2018-ci ildə 470 milyon manat olmuşdur ki, bu da iqtisadiyyatın real sektoruna kredit qoyuluşlarının strukturunda 3.6% təşkil etməkdədir. Aşağıdakı cədvəldə son 5 il ərzində iqtisadiyyatın real sektorunda kredit qoyuluşlarının strukturu verilmişdir:

**Cədvəl 1**

**2014-2018-ci illər üzrə iqtisadiyyatın real sektoruna kredit qoyuluşlarının strukturu (milyon manat) [6, 18]**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Ümumi real sektora qoyuluşlar | 18542.6 | 21730.4 | 16444.6 | 11757.8 | 13020.3 |
| Ticarət və xidmət | 2680.7 | 3158.0 | 2467.0 | 2069.2 | 2379.5 |
| Energetika, kimya və təbii ehtiyatlar | 195.8 | 316.5 | 596.2 | 315.5 | 419.2 |
| Kənd təsərrüfatı və emal | 847.3 | 508.1 | 441.3 | 429.2 | 470.0 |
| İnşaat və əmlak | 2555.1 | 3063.2 | 1908.6 | 546.2 | 388.8 |
| Sənaye və istehsal | 2027.8 | 1948.3 | 1265.6 | 624.2 | 706.6 |
| Nəqliyyat və rabitə | 736.0 | 1465.6 | 1271.1 | 1126.7 | 1370.7 |
| Ev təsərrüfatları | 7731.8 | 8283.6 | 5858.7 | 4606.5 | 5319.6 |
| Daşınmaz əmlakın tikintisinə | 1219.1 | 1542.4 | 1703.5 | 1737.3 | 1870.9 |
| Digər sahələr üzrə | 231.2 | 259.4 | 198.1 | 303.0 | 228.4 |

Yuxarıdakı cədvəldən görünür ki, kənd təsərrüfatı və emal sektoruna kredit qoyuluşlarının həcmi 2014-cü illə müqayisədə 45%-ə qədər aşağı düşmüşdür. 2015-ci ildə baş verən valyuta devalvasiyalarının bank-kredit sisteminə təsiri kənd təsərrüfatı sahəsində də özünü büruzə vermişdir. Belə ki, 2014-cü ildə kənd təsərrüfatı və emal sahəsinə kredit qoyuluşlarının həcmi 847.3 milyon manat olsa da, sonrakı illərdə bu rəqəm 429.2-470.0 milyon manat həddinə qədər kəskin enmə müşahidə olunmuşdur. Aşağıdakı şəkildə aqrar sahənin real sektora kredit qoyuluşlarındakı, investisiya həcmindəki və dövlət büdcəsinin xərc strukturundakı nisbi çəkisi üzrə 10 illik trend təsvir olunmuşdur.




Şəkil 1. 2008-2018-ci illər üzrə iqtisadiyyatın real sektora kredit qoyuluşu, əsas kapitala yönəlmiş investisiya həcmi və dövlət büdcəsinin xərc strukturunda aqrar sahənin payı, % [1,5,13,17]

Şəkil 1-dən görürük ki, ümumilikdə götürsək, real sektorun digər sahələri ilə müqayisədə aqrar sahəyə kredit qoyuluşlarının və investisiya həcminin payı çox cüzidir. Bunun əsas səbəblərindən biri kənd təsərrüfatı sektorunun kredit cəlbediciliyinin risklərin yüksək olması ilə aşağı düşməsindədir. Çıxış yolu kimi, bu risklərin sığorta mexanizminin təkmilləşdirilməsi və risklərin idarə edilməsi üzrə innovativ metodların tətbiq edilməsi seçilə bilər.

Dövlət büdcəsinin vəsaiti hesabına verilən güzəştli kreditlərin istifadəsində yaranmış çətinliklərin aradan qaldırılması, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və bu fəaliyyətin genişləndirilməsinin təmin edilməsi məqsədilə ümummilli lider Heydər Əliyevin 2002-ci il 27 avqust tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyi nəzdində Sahibkarlığa Kömək Milli Fondunun yeni Əsasnaməsi təsdiqlənmişdir. Sahibkarlığa Kömək Milli Fondu dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində əsas maliyyə mexanizmlərindən biridir və əsas məqsədi özəl sektorun uzunmüddətli və əlverişli şərtlərlə maliyyə resurslarına çıxışının təmin olunması və rəqabət mühitinin yaradılmasıdır.

Sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizminin yenidən qurulması bu maliyyə qurumu sahəsində baş vermişdir. Xatırlatmaq lazımdır ki, bu Fondun yaranma tarixi 1992-ci ilə təsadüf etsə də, fəaliyyətinin dönüş nöqtəsi məhz 2002-ci ildən sonrakı dövrə təsadüf edir [24].

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb və "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilmişdir. Güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6%-dən 5%-ə endirilmişdir. Eyni zamanda yeni qaydalarda ortahəcmli kreditlərin hədləri dəyişdirilərək 50 min manatdan 1 milyon manatadək müəyyən edilmişdir. Yeni qaydaların tətbiqi sahibkarların güzəştli maliyyə resurslarına çıxışının, eləcə də qeyri-neft istehsalının və ixracının genişlənməsinə, istehsal xərclərinin azalmasına, məhsulun maya dəyərinin aşağı düşməsinə, yeni istehsal sahələrinin yaradılmasına, özəl bölmənin dövlət dəstək mexanizmlərindən daha geniş istifadəsinə imkan yaratmaqdadır [9, 21].

Sahibkarlığın İnkişafı Fondunun kənd təsərrüfatı sahəsinə yönəltdiyi güzəştli kredit vəsaitləri haqqında son 10 illik dinamika aşağıdakı şəkildə təsvir olunmuşdur:




Şəkil 2. SİF tərəfindən sahibkarlara verilmiş kredit məbləğinin 2008-2018-ci illər üzrə dinamikası (milyon manatla) [2, 14]

Şəkildən görünür ki, 2013-2015-ci illərdə kənd təsərrüfatı istehsalı ilə məşğul olan fermerlərə verilən güzəştli kreditlərin həcmi ən yüksək paya malik olmuşdur. Eləcə də aqrar-sənaye sahəsindəki sahibkarlara verilmiş güzəştli kreditlərin həcmi də 10 illik trend üzrə 2012-2014-cü illər ərzində yüksək olmuşdur. Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən güzəştli kreditlərin həcmində aqrar sferaya yönəldilmiş kredit məbləğinin nisbi çəkisi aşağıdakı şəkildə göstərilmişdir.




Şəkil 3. SİF tərəfindən aqrar sferaya yönəldilmiş kredit məbləğinin ümumi güzəştli kreditlərin həcmindəki nisbi çəkisi (%-lə) [2, 14]

Ümumilikdə SİF tərəfindən sahibkarlara verilmiş güzəştli kreditlərin həcmində aqrar sferaya ayrılan kreditlərin payında artım trendi müşahidə olunmaqdadır. Belə ki, 2016-cı ildə verilmiş kreditlərin 75.7%-i aqrar sferada çalışan sahibkarların payına düşmüşdü.

2018-ci ildə sahibkarlıq subyektlərinin 999 investisiya layihəsinin maliyyələşdirilməsinə 160,2 milyon manat güzəştli kredit verilib. Verilmiş kreditlərin 64,3%-i regionların, 35,7%-i isə Bakı şəhərinin qəsəbələrinin payına düşür. Güzəştli kreditlərin 70,3%-i aqrar sektorun, 29,7%-i müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahələrinin inkişafına yönəldilib. 2019-cu ildə sahibkarlara

geri qaytarılan vəsaitlər hesabına azı 160 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulur.

Prezidentin tapşırıqlarına uyğun olaraq, aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması və mövcud aqroparkların genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilir. Hazırda dövlətin dəstəyi ilə ölkənin 33 rayonu üzrə 257 min hektar ərazidə dəyəri 2,2 mlrd. manat olan 51 aqropark və iri fermer təsərrüfatının yaradılması təşviq olunur. Artıq 17 aqropark fəaliyyət göstərir. Bu il daha 10 aqroparkın istifadəyə verilməsi nəzərdə tutulur. Aqropark və iri fermer təsərrüfatlarının yaradılmasına 162 milyon manat güzəştli kredit verilib.

Fermer təsərrüfatlarının maliyyə resurslarına çıxışının asanlaşdırılması məqsədilə 2007-ci ildən etibarən Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti kredit vəsaitlərinə tətbiq etdiyi illik faiz dərəcəsinin ən yüksək həddi (bankın komisyon haqqı 2 faiz daxil olmaqla) 7 faiz göstərici ilə müvəkkil kredit təşkilatları vasitəsilə fermer təsərrüfatlarına güzəştli kredit verir. Bu kreditlərin həcmi 200 min manat həcmində maksimum 5 ilədək müəyyən edilmişdir.

Kreditlərin və güzəştlərin aqrar sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə və ailə kəndli (fermer) təsərrüfatlarına çatdırılması müvəkkil banklar, bank olmayan kredit və lizinq təşkilatları vasitəsilə onların öz adından və öz riskləri hesabına həyata keçirilir. Vəsaitdən istifadə şərtləri müvəkkil kredit təşkilatları ilə Agentlik arasında bağlanan müqaviləyə əsasən tənzimlənir. Hər bir müvəkkil kredit təşkilatı üçün müəyyən edilən kredit xəttinin maksimum həcmi (limit) *5 milyon* manatdır. 19 dekabr 2018-ci il tarixindən etibarən bu dövlət xidməti Aqrar Kredit və İnkişaf Agentliyi - AKİA adı altında fəaliyyət göstərməkdədir [4,16].

Aşağıdakı şəkildə AKİA-nın fermer təsərrüfatlarına təklif etdiyi güzəştli kredit qrafiki göstərilmişdir:




Şəkil 4.AKİA-nın təklif etdiyi güzəştli kredit (min manat, %) [3, 15]

AKİA tərəfindən 2018-ci il üzrə kənd təsərrüfatının inkişafı məqsədilə ölkənin 46 inzibati rayonunda 169 fermer təsərrüfatına 11.0 milyon manat məbləğində güzəştli kreditlər verilmişdir. Bu il ərzində, 10 bank (Beynəlxalq Bank, Kapital Bank, Paşa Bank və s.), 11 Bank olmayan kredit təşkilatı, 19 kredit ittifaqı ilə əməkdaşlıq edilib. AKİA tərəfindən 2018-ci il ərzində fermer təsərrüfatlarına ayrılan kredit vəsaitlərinin təyinatı üzrə bölgüsü aşağıdakı şəkildə göstərilmişdir.




Şəkil 5. 2018-ci ildə AKİA tərəfindən ayrılan kredit vəsaitlərinin təyinatı üzrə bölgüsü (min manatla) [3, 15]

Bu Agentlik tərəfindən 2017-ci ildə kənd təsərrüfatının inkişafı məqsədilə ölkənin 30 rayonunda aqrar sektorda çalışan 57 sahibkara 9.5 milyon manat məbləğində güzəştli kreditlər verilmişdir.




Şəkil 6. 2017-ci ildə verilmiş kredit məbləğinin sahələr üzrə xüsusi çəkisi, %-lə [3, 15]

Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (İFAD) krediti hesabına maliyyələşmiş kredit komponentinin davam etdirilməsi məqsədi ilə 2017-ci il ərzində müvəkkil kredit təşkilatları tərəfindən aqrar sektorda çalışan 8 nəfərə 640.0 min manat məbləğində orta və böyükhəcmli kreditlər verilmişdir. Verilən güzəştli kreditlər nəticəsində 298 müvəqqəti və daimi iş yeri açılmışdır.




Şəkil 7. AKİA tərəfindən verilən güzəştli kredit həcminin 10 illik dinamikası (milyon manat)

2007-ci ildən etibarən 4.4 min nəfərə - 150 milyon manatdan artıq güzəştli kredit verilmişdir. Qrafik təsvirdən göründüyü kimi, verilmiş güzəştli kreditlərin illər üzrə ümumi həcminə nəzərə salsaq, 2013-cü ildə ən yüksək göstəricinin (17.7 milyon manat) qeydə alındığını görərik. Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 2019-cu ilin I rübündə 26 rayonunda aqrar sektorda çalışan 55 hüquqi və fiziki şəxsə 2.8 milyon manat məbləğində güzəştli kreditlər verilmişdir. 2013-cü illə müqayisədə ümumi həcmdə 38% azalma olsa da, Agentliyin yeni fəaliyyət istiqamətlərinin və prioritetlərinin müəyyən olunması, daha mütərəqqi formada yenidən təşkil edilməsi nəticəsində bu azalmanın tempi aşağı düşmüşdür. Artıq 2018-ci ildən etibarən verilmiş güzəştli kreditlərin həcmi (11 milyon manat) artmaqda davam edir.

## Nəticə

Kənd təsərrüfatı istehsalı təbii və iqlim şəraiti, bitki və heyvanların bioloji xüsusiyyətləri və təbii ehtiyatlar ilə sıx bağlıdır. Bu faktorlardakı mənfi dəyişikliklər əkin sahələrindəki məhsuldarlığa və heyvan məhsuldarlığına, ümumi gəlirlərə mənfi təsir göstərir. Məhsulların aşağı gəlirlilik, satışla bağlı çətinliklər, aqroemal müəssisələrinin qeyri-sabit maliyyə vəziyyəti, elmi texniki tərəqqi nailiyyətlərinin yetərincə istifadə edilməməsi kənd təsərrüfatını yüksək riskli sahə kimi xarakterizə edir. Nəticədə, fermer təsərrüfatları bank kreditləşməsi zamanı digər biznes subyektləri ilə müqayisədə bir sıra çətinliklərlə üzləşirlər. Beləliklə, iqtisadiyyatın hər hansı digər sektoru kimi kənd təsərrüfatı sahəsinin də kreditləşdirmə xüsusiyyətləri kredit müqaviləsində əks etdirilən kredit şərtləri baxımından ifadə edilir:

- kredit verildiyi müddət;
- faiz dərəcəsi;
- kredit borclarının alınması qaydası;
- əsas və faiz ödənişlərinin qrafiki;
- girov təminatı.

Beləliklə, kənd təsərrüfatı istehsalçılarının sahəvi xüsusiyyətlərindən və maliyyə-kredit xidmətlərinin təşkilinin xüsusiyyətlərini müəyyənləşdirməkdən ötrü fermer təsərrüfatlarının əsas xüsusiyyətləri:

- kapitaltutumlu və nisbətən aşağı fondverimli olması;
- xərclərin sərfiyyatı və gəlirlərin əldə edilməsi dövrləri arasındakı uyğunsuzluq;
- istehsalın mövsümiliyi və texnoloji dövrünün uzun olması;
- istehsala yönəldilmiş investisiya və dövriyyə vəsaitlərinin dövriyyə sürətinin az olması;
- girov təminatı zamanı xüsusi növ əmlakın (gələcək dövrün məhsulu, diri heyvanlar, kənd təsərrüfatı texnikaları) girov kimi təqdim olunmasında çətinliklər;
- ərzaq təhlükəsizliyi və sosial məqsədlər baxımından subsidiya şəklində dövlət dəstəyinə ehtiyacının olması.

Fermer təsərrüfatlarına verilən kredit mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı aşağıdakı tədbirlərin görülməsi fikrimizcə, daha səmərəli hesab edilir:

- kənd təsərrüfatının kredit vəsaitlərinə olan tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi;
- kredit zəmanət fondunun yaradılması imkanlarına baxılması;
- kənd təsərrüfatında Aqrar Bankçılığın və Exim Bankların yaradılmasının stimullaşdırılması və onlara əlverişli biznes mühitinin təmin edilməsi;
- kənd təsərrüfatında girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması;
- kreditlər üçün girov bazasının genişləndirilməsi, daşınar əmlakın və xüsusilə məhsulların girov təminatı formasında çıxışı üzərində mexanizmlərin hazırlanması;
- kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması;
- aqrar sektora təsir edən risklərin idarə olunması üzrə mexanizmlərin hazırlanması;
- kredit təşkilatlarının vəsaitlərinin kənd təsərrüfatı sektorunun kreditləşməsinə yönəldilməsinin stimullaşdırılması.

**Əbdülrəhim Dadaşov**
**Fermer təsərrüfatlarının kredit resurslarına çıxış imkanlarının qiymətləndirilməsi**
**Xülasə**

Məqalədə Azərbaycan Respublikasında fermer təsərrüfatlarının kredit resurslarına əlyetərlilik səviyyəsi və onlara çıxış imkanlarının təhlili aparılmışdır. Tədqiqat zamanı Sahibkarlığın İnkişafı Fondu və Aqrar kredit və İnkişaf Agentliyinin fermerlərə təklif etdiyi kredit imkanları qiymətləndirilmişdir.

Tədqiqatın əsas məqsədi Azərbaycanda fermer təsərrüfatlarının kredit resurslarına çıxışı imkanlarının təhlili, onların kreditləşmə mexanizminin problemləri və onların aradan qaldırılması istiqamətində təhlillər aparmaqdır. Tədqiqat nəticəsində fermer təsərrüfatlarının kreditləşməsinin əsas xüsusiyyətləri, mövcud problemlər və ondan çıxış yolları araşdırılmış, elmi nəticə çıxarılaraq, təkliflər göstərilmişdir. Ümumiləşdirmə, müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Абдулрагим Дадашов**
**Оценка возможностей доступа фермерских хозяйств к кредитным ресурсам**
**Резюме**

В статье анализируются вопросы доступности кредитных ресурсам в Азербайджанской Республике для фермерских хозяйств. Были оценены кредитные возможности, предлагаемые фермерам Фондом Развития Предпринимательства и Агентством по Аграрным Кредитам и Развитию.

Цель исследования - проанализировать возможности кредитования фермерских хозяйств в Азербайджане, проанализировать проблемы кредитования и предлоить пути их устранения. В результате исследования были изучены основные особенности кредитования фермерских хозяйств, существующие проблемы и пути их решения, получены научные результаты и представлены предложения. В исследовании были использованы, сравнительного методы анализа и агрегации.

**Abdulrahim Dadashov**
**Evaluation of access to credit resources of farms**
**Summary**

The article analyzes the level of accessibility of farms to credit resources in the Republic of Azerbaijan. The credit opportunities offered by the Entrepreneurship Development Fund and the Agrarian Credit and Development Agency to farmers were assessed in this article.

The purpose of the research is to analyze the opportunities of farming credit resources in Azerbaijan, to analyze the problems of their lending mechanism and their elimination. As a result of research, the main features of farming crediting, existing problems and ways of solution were

studied, scientific results were produced and proposals were presented. Aggregation, comparative analysis methods were used in this article.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin "Kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatı" və "Maliyyə və bank" sahələri üzrə statistik nəşrləri. Bakı-2008-2018.
2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun verilmiş kredit vəsaitlərinə dair statistik məlumatlar. Bakı-2008-2018.
3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar kredit və İnkişaf Agentliyinin illik statistik hesabatları. Bakı-2007-2018.
4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə qaydası. Bakı-2018.
5. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət büdcəsinə dair statistik məlumatları. Bakı-2008-2018.
6. Azərbaycan Respublikasının Mərkəzi Bankı statistik bülletenləri. Bakı-2008-2018.
7. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair" Strateji Yol Xəritəsi. Bakı-2016.
8. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair" Strateji Yol Xəritəsi. Bakı-2016.
9. "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı-2018
10. Н.И.Дорожкина, Ю.С.Суворина. "Особенности кредитования сельскохозяйственных производителей". Социально-экономические явления и процессы. Т. 12, №5, Тамбов 2017, стр 41-47.
11. P.Douglas. "Rural finance innovation case study, Buyer and supplier credit to farmers: do donors have a role to play?" Pavig the way forward for rural finance an international conference on best practices, case study, Washington 2013, 18 pages.
12. https://www.stat.gov.az/source/agriculture/
13. https://www.stat.gov.az/source/finance/
14. http://edf.gov.az/az/content/23
15. http://www.akia.gov.az/az/haqqimizda/haqqimizda-hesabat
16. https://president.az/articles/31161
17. http://maliyye.gov.az/static/243/dovlet-budcesi-haqqinda-azerbaycan-respublikasinin-qanunu
18. https://www.cbar.az/lpages/statistics/key-monetary-indicators/
19. https://mida.gov.az/documents/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pdf
20. https://azertag.az/store/files/news/MALIYYE%20STRATEJI%20YOL.pdf
21. http://e-qanun.az/framework/39705
22. https://cyberleninka.ru/article/v/osobennosti-kreditovaniya-selskohozyaystvennyh-proizvoditeley
23. http://edf.gov.az/az/content/97
24. http://www.ruralfinanceandinvestment.org/sites/default/files/1126181060970_Buyer_and_supplier_of_credit_to_farmers_-1943486288.pdf

Məqalə redaksiyaya daxil olmuşdur: 03.05.2019
Təkrar işlənməyə göndərilmişdir: 10.05.2019
Çap üçün qəbul olunmuşdur: 24.05.2019

***NƏZƏRİYYƏ VƏ METODOLOGİYA***

UOT: 338.45:69
DOI: 10.33870/1012-1211-2019-3-2496

# KƏND TƏSƏRRÜFATINDA İQTİSADİ MƏNAFELƏRİN OPTİMAL ƏLAQƏLƏNDİRİLMƏSİ

***Sədi Əbdürəhmanov***
*Azərbaycan Turizm və Menecment Universiteti*
*İqtisadiyyat kafedrası, iqtisad üzrə fəlsəfə doktoru, professor*
*AZ 1072, Bakı şəhəri, Koroğlu Rəhimov küçəsi 822/23*
*e-poçt: arehmanov40@mail.ru*

***Nigar Teymurzadə***
*Azərbaycan Turizm və Menecment Universiteti*
*İqtisadiyyat kafedrasının magistrantı*
*AZ 1072, Bakı şəhəri, Koroğlu Rəhimov küçəsi 822/23*

**Açar sözlər**: kənd təsərrüfatı, iqtisadi mənafelərin əlaqələndirilməsi, optimal bölgü, optimal qiymətləndirmə, iqtisadi səmərəlilik, modelləşdirmə.
**Ключевые слова:** сельское хозяйство, согласование экономических интересов, оптимальное распределение, оптимальная оценка, экономический эффект, моделирование.
**Keywords**: agriculture, coordination of economic interest, optimal allocation, optimal evaluation, economic efficiency, modeling.

Kənd təsərrüfatı mürəkkəb və çoxfunksiyalı sistemdir. O məhsuldar qüvvələrin yerləşdirilməsi və istehsal münasibətlərinin formalaşması prosesində həlledici rola malikdir. Milli iqtisadiyyatın vacib sahəsi olmaqla yanaşı, kənd təsərrüfatı eyni zamanda kənddə siyasi və iqtisadi stabilliyin təmin edilməsi baxımından strateji sahə hesab edilir. Təsadüfi deyildir ki, Almaniya dövləti kənd təsərrüfatı istehsalının strateji əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, aqrar sferaya fondlardan yardım göstərilməsini dövlətin siyasətinin prioritet istiqaməti hesab edir.

Son illər ərzində aqrar istehsalda istifadə edilən texnikanın, kimyəvi preparatların, yanacaq-sürtkü materiallarının, enerji daşıyıcılarının və s. qiymətlərinin artması kənd təsərrüfatı məhsullarının maya dəyərinin artımına səbəb olmuşdur. Ona görə də milli gəlirin bazar prinsipləri əsasında sərbəst bölgüsü nəticəsində kənd təsərrüfatının mənfəətinin bir hissəsi digər iştirakçı sahələr arasında paylanır. Başqa sözlə, kənd təsərrüfatı əmtəə istehsalçıları qeyri-iradi olaraq emal müəssisələrin; texniki təchizat müəssisələrinin, maliyyə və bank strukturların donor rolunu oynayır. Bu hadisə ümumilikdə istehsalın son nəticələrinə fermer və sahibkarların marağını azaldır. Dövlət tədbirlər paketi isə bu itkilərin qarşısını almaqla kənd təsərrüfatına yardım göstərə bilmir və ya yardım onun itkilərini tam ödəmir. Son illər kənd təsərrüfatı sahəsində aparılan islahatlar müsbət nəticələr versə belə, göstərilən nöqsanlar hələ də mövcuddur. Onları aradan qaldırmaq üçün əsas mexanizmlərdən biri aqrar bölmədə, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalı prosesində iqtisadi mənafelərin optimal əlaqələndirilməsi və reallaşdırılması prosesidir.

Ölkədə aparılan iqtisadi islahatların əsas məqsədi beynəlxalq standartlara uyğunlaşmaqdır. Ona görə də Beynəlxalq iqtisadi-maliyyə təşkilatlarının tövsiyəsinə görə ASK 8 bölmədən ibarət olan təsərrüfat mexanizmini əks etdirilməlidir. Bu bölmələrə kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ərzaq istehsalı, kənd təsərrüfatına lazım olan istehsal vasitələri istehsalı, infrastrukturlar və sair fəaliyyət sahələri aiddir. ASK sistemində kənd təsərrüfatı ən vacib sahədir. Ölkə iqtisadiyyatının ümumi daxili məhsulunun üçdə bir hissəsini kənd təsərrüfatı yaradır, əməkqabiliyyətli əhalinin 35 faizi burada çalışır. 2017-ci ilin məlumatına görə kənd təsərrüfatında 1608 kənd təsərrüfatı müəssisələri, 955 fərdi sahibkar fəaliyyət göstərir və 70 aqroservis mövcuddur [10].

**Cədvəl 1**

**Ölkə kənd təsərrüfatında fəaliyyətin maliyyə nəticələri [9;10]**

| | | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| 1 | Kənd təsərrüfatının ümumi məhsulu (faktiki qiymətli, milyon manat) | 1844,8 | 3877,7 | 5635,3 | 5632,4 | 6580,0 |
| | o cümlədən: | | | | | |
| | Kənd təsərrüfatı müəssisələrində (milyon manat) | 68,8 | 192,6 | 410,1 | 449,2 | 645,4 |
| | Fərdi sahibkar, kəndli və ev təsərrüfatı (milyon manat) | 1776,0 | 3685,1 | 5225,2 | 5183,2 | 5934,6 |
| 2 | Xalis mənfəət (milyon manat) | | | | | |
| | Kənd təsərrüfatı müəssisələrində (milyon manat) | 5892 | 27658 | 39763 | 75246 | 62815 |
| | Fərdi sahibkar, kəndli və ev təsərrüfatı (milyon manat) | 2848 | 7521 | 7104 | 8641 | 4619 |
| 3 | Maliyyə-təsərrüfat fəaliyyəti üzrə rentabellik (faizlə) | 9,1 | 16,6 | 11,3 | 20,3 | 14,1 |
| | o cümlədən: | | | | | |
| | Kənd təsərrüfatı müəssisələrində fərdi sahibkar, kəndli və ev təsərrüfatı | 71,9 | 54,5 | 50,7 | 70,8 | 55,8 |

Kənd təsərrüfatının optimal inkişafı, ərzaq probleminin həlli üçün aqrar-sənaye kompleksi daxilində mənafelərin bütün növlərinin elmi metodlarla təhlil və tədqiqini tələb edir. ASK sisteminə daxil olan sahələrin iqtisadi mənafelərinin optimal əlaqələndirilməsi nəticə etibarilə kompleksin ümumi mənafeyinin formalaşması və təmin edilməsinə səbəb olur. Bu hal kompleksin tarazlı inkişafını və səmərəli fəaliyyətini təmin edir. Bazar iqtisadi sistemində əmtəənin dəyərinin pul ilə ifadəsi olan qiymətdən başqa məsələlərlə yanaşı, iqtisadi mənafelərin əlaqələndirilməsində mühüm iqtisadi alət kimi istifadə edilməlidir. Qiymət kənd təsərrüfatı ilə sənaye arasında düzgün nisbət yaradılması, gəlirlərin formalaşmasını müəyyənləşdirir. Aqrokompleksin sahələri arasında mənafelərin əlaqələndirilməsi və razılaşdırılmasında qiymətin həlledici rolu var və qiymət iqtisadi mənafelərin əlaqələndirilməsinin əsas forması kimi çıxış edir. Sahə və müəssisələrin məhsuluna qiymət qoyulması onlara mənfəət və orta mənfəət əldə etməsini təmin etməlidir. Kənd təsərrüfatı və ona istehsal vasitələri verən sahələrin məhsullarının qiyməti arasındakı nisbət gəlirin həmin sahələr arasında bölüşdürülməsi proporsiyasını müəyyən etməlidir. Ona görə də qiymət istehsal xərclərini ödəməli və maksimum mənfəət əldə olunmasını təmin etməlidir. Lakin sahə və müəssisələr arasında bu nisbətə əməl olunmur və mənfəətin bir sahədən başqa sahəyə axınına səbəb olur və əməyə görə bölgü prinsipi pozulur.

Ölkədə sərbəst qiymət siyasətinin tətbiqi nəticəsində kənd təsərrüfatı məhsullarının satış qiymətində bu məhsulların istehsalı üçün alınmış istehsal vasitələrinin qiymətləri arasında qeyri-mütənasiblik getdikcə dərinləşir. Bunların əsas səbəbi bir tərəfdən kənd təsərrüfatı məhsullarının istehsal xərclərinin artması və digər səbəbi isə kənd təsərrüfatına satılan istehsal vasitələrinin qiymətlərinin yüksək olması və bu xərclərin xüsusi çəkisinin ardıcıl artmasıdır.

Kənd təsərrüfatı məhsulları istehsalında istifadə olunan texnikanın, onların ehtiyat hissələrinin, yanacaq materiallarının, gübrə və kimyəvi maddələrin qiymətləri də bahadır. Ona görə də kənd təsərrüfatı məhsulları istehsalı və satışında stimullaşdırıcı qiymət növlərindən elə istifadə etmək lazımdır ki, bu qiymətlərin köməyi ilə istehsal prosesində iştirak edən sahə və müəssisələr sərf etdiyi əməyə uyğun mənfəət əldə edə bilsin. İqtisadi təhlillər göstərir ki, kənd təsərrüfatına istehsal vasitələri satan sənaye sahələri bu tələbə əməl etmir və kənd təsərrüfatında xərcləri və mənfəəti təmin edən qiymətdən yuxarı qiymətə satırlar. Ona görə də kənd təsərrüfatına düşən mənfəətin xeyli hissəsi başqa sahələr tərəfindən mənimsənilir. Yəni kənd təsərrüfatına xidmət göstərən müəssisə və sahələrin qiymət və tarifləri yüksəkdir, onlar kənd təsərrüfatında yaradılan mənfəətin müəyyən hissəsini havayı mənimsəyir. Bu hal müxtəlif sahələrdə öz əməyinə görə mənfəət almasına mane olur və istehsalın

stimullaşdırılması prosesini pozur. Ədalət qanununa görə hər sahə özünün çəkdiyi əməyə görə uyğun mənfəət götürməlidir. Yəni istehsalın son nəticəsində hər sahənin əməyi qiymətləndirilməli və ona uyğun mənfəət almalıdır. Statistik informasiyaların təhlili göstərir ki, son illər süd istehsalı üzrə xərclərin 75 faizini kənd təsərrüfatı müəssisələri çəkdiyi halda, həmin məhsuldan gəlirin 39 faizinə malik olur. Emal müəssisələri süd emalına 17 faiz xərc çəkir və mənfəətin 52,6 faizini mənimsəyir [4]. Bu vəziyyət respublikanın kənd təsərrüfatı müəssisələri ilə onların məhsullarını emal edən müəssisələr arasında mövcuddur və tütün, pambıq, ət, içkilər və sair məhsullar istehsalında müşahidə olunur. Ona görə də yuxarıda göstərilən sahələr arasında iqtisadi mənafelərin optimal əlaqələndirilməsi məqsədilə həmin məhsul və xidmətləri elmi baxımdan düzgün qiymətləndirmək lazımdır. Sonra hər sahənin xərcinin məhsulda xüsusi çəkisi və əməyinə uyğun mənfəət hesablanmalıdır.

Kənd təsərrüfatı məhsulunun 65 faizindən çoxu emal sənayesinin xammalı kimi istifadə edilir və bu faiz getdikcə artır. Dünya təcrübəsi göstərir ki, min manatlıq kənd təsərrüfatı məhsulunun ilkin emalından 1,5 min manatlıq məhsul alınır. Xammalın daha yüksək səviyyədə emalından 3 min manatlıq məhsul və xammalın daha dərindən emalından isə 3-6 min manatlıq son məhsul alınır. Ona görə də kənd təsərrüfatının mənafeyi düzgün hesablanmalıdır. Kənd təsərrüfatı ilə emal və tədarük sənaye müəssisələri mənafelərin düzgün əlaqələndirilməsini təmin etmək üçün onların istehsal gücü kənd təsərrüfatı istehsalına uyğun olmalıdır. Qeyd etmək lazımdır ki, respublikada tədarük prosesini alverçilər əvəz edir. Ona görə də normal fəaliyyət göstərən tədarük müəssisələri yaratmaq və kənd təsərrüfatı məhsullarının bilavasitə istehsal yerlərində qəbulunu təşkil etmək lazımdır. Kənd təsərrüfatı müəssisələri xammal və texnika ilə vaxtında təmin olunmalı, emal və tədarük müəssisələri ilə kənd təsərrüfatı arasında məhsulun həcmi, keyfiyyəti və qiyməti üzrə qabaqcadan qarşılıqlı müqavilələr bağlanması sisteminə keçmək lazımdır.

Kəndli - fermer təsərrüfatlarının kənd təsərrüfatı məhsulları istehsalında rolu və xüsusi çəkisi getdikcə artır. Ona görə də kənd təsərrüfatı məhsullarının satış qiyməti ilə kəndli və onun aldığı əmtəə və xidmətlərin qiymətlərinin səviyyəsinin tənzimlənməsi iqtisadi mənafelərin düzgün tənzimlənməsinin bir formasıdır. Kəndli-fermerin istehlak etdiyi xammal və xidmətlərin qiyməti artan zaman onun istehsal etdiyi kənd təsərrüfatı məhsulunun qiyməti də artmalıdır. Bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, fermerlərin aldığı əmtəə və xidmətlərin qiymətləri artdıqca onların istehsal etdiyi əkinçilik və heyvandarlıq məhsullarının qiymətinə uyğun olaraq artırılır. Bu məqsədlə paritet indeksindən, yəni fermer məhsulunun qiymətinin fermer tərəfindən alınan əmtəələrin və xidmətlərin qiymətlərinə olan nisbətindən istifadə edilir. Bu paritet indeksi əslində dövlətin fermerlərin məhsuluna təminatlı qiymətidir və fermerlərin mənfəət əldə etməsinə şərait yaradır. Ona görə də paritet qiymətlərdən ölkənin kənd təsərrüfatında istifadə etmək məqsədəuyğundur. Bu üsul mənafelərin əlaqələndirilməsinə və nizamlanmasına və fermer - kəndli təsərrüfatlarının normal fəaliyyətinə stimul yaradar. Odur ki, ölkəmizdə paritet indeksinin tətbiqi üçün müəyyən problemlərin həlli vacibdir. Məsələn, kənd təsərrüfatı məhsullarının qiymətləri ilə onların istehsalında istifadə olunan texnikanın, yanacaq - sürtkü materiallarının, mineral gübrələrin qiymətləri arasında nisbəti nizamlamaq lazımdır. Aqrar bölmədə investisiya qoyuluşuna stimul yaratmaq, məqsədli dövlət proqramları əsasında meliorasiya və irriqasiya işlərinin aparılması ən mühüm məsələdir. İstehsal və sosial infrastrukturun kreditləşməsi və vergi tətbiqinin məqsədəuyğun formada istifadə edilməsi təmin olunmalıdır. Kənd təsərrüfatı məhsulları istehsalını stimullaşdırmaq və onu xarici bazarın təsirindən qorumaq üçün uyğun tədbirlər həyata keçirmək lazımdır. Təminatlı daxili bazar yaratmaq, maliyyə - kredit müəssisələrinin işini aqrar bazarın tələbatına uyğun təşkil etmək və sığorta işinin təkmilləşdirilməsi çox əhəmiyyətli sahədir.

Kənd təsərrüfatında iqtisadi mənafelərin səmərəli əlaqələndirilməsində maliyyə - kreditin stimullaşdırıcı rolunu artırmaq məqsədi ilə kənd təsərrüfatı sahəsi və müəssisələrinin vergi yükünü azaltmaq və kənd təsərrüfatı üçün əlverişli vergi siyasətini beynəlxalq norma və normativlərə uyğunlaşdırmaq əsas vəzifədir.

Bazar iqtisadi sistemində idarəetmənin iqtisadi metodları fəaliyyət göstərir. Belə şəraitdə plan orqanları iqtisadi normativləri (qiymət, kredit faizi, sığorta və sair) müəyyən edir və hər firma və müəssisə həmin normalara əsaslanaraq öz mənfəətinin maksimum olmasını təmin edən istehsal

proqramını seçir. Yəni hər obyekt maksimum məhsul almasını təmin edir. Belə sistemdə hər obyekt, təsərrüfat və firma optimal istehsal proqramı ilə fəaliyyət göstərəcək. Bu zaman iqtisadi normativlər elə hesablanmalıdır ki, firma və müəssisələrin, fermerlərin lokal optimal planları, eyni zamanda ölkənin iqtisadi mənafelərinə uyğun olsun.

Beləliklə, göstərilən yanaşmada iqtisadi mənafelərin əlaqələndirilməsi və reallaşdırılması elə tarazlıq vəziyyətinə gətirilir ki, iqtisadi sistem maksimum gəlir əldə edir. Bu zaman ölkənin tələbatları ən az xərclə təmin olunur. İqtisadi maraqların və mənafelərin əlaqələndirilməsi və reallaşdırılması meyarı bu zaman qiymət sisteminə aşağıdakı tələbləri qoyur:

1. Qiymət sistemi ictimai-zəruri xərcləri tam ödəməlidir, geniş təkrar istehsala imkanlar yaratmalıdır və eyni zamanda əmək kollektivinin sosial inkişafını təmin etməlidir.

2. Qiymət sistemi istehsalın ictimai - zəruri səviyyəsini müəyyən etməli və son hədd xərclər səviyyəsinə uyğun olmalıdır. İstehsalın yaxşı şəraiti ilə əlaqədar əlavə gəlirlər təbii resurslar, renta qiymətləri vasitəsilə nizamlanmalıdır.

Göstərilən tələblər ümumi halda mənafelərin əlaqələndirilməsi və razılaşdırılması problemini kifayət dərəcədə tam əks etdirir. Optimal planlaşdırma və idarəetmə nəzəriyyəsində qiymət və qiymətqoyma prinsipləri bu yanaşmaya əsaslanır. Lakin aqrar sahə özünəməxsus xassələri ilə fərqlənir və ona görə də bu sahədə iqtisadi mənafelərin optimal əlaqələndirilməsi meyarları fərqli xarakterə malikdir. Birinci odur ki, aqrar sahədə istehsal prosesində müxtəlif istehsal fazaları zamanı əmək vasitələrinin bir istehsalçıdan başqasına verməkdən ibarət deyil. Bu zaman eyni bir torpaq sahəsində müxtəlif təşkilatlar iş görür və onların mənafeləri son nəticədən asılıdır. Burada iqtisadi mənafelərin əlaqələndirilməsi və optimal uzlaşdırılması yalnız yerinə yetirilən işin qiyməti ilə səmərəli təmin olunmur. Çünki yerinə yetirilən işin həcmi və keyfiyyəti əsas etibarilə istehsalın xarici şəraitindən asılıdır. İkinci səbəb odur ki, vahid torpaq sahəsinə sərf olunan xərc və nəticələr arasında asılılıq qeyri-xətti xarakterə malik olur. İstehsalın intensivləşdirilməsi səviyyəsi artdıqca hər torpaq sahəsinə, yəni hər hektara sərf olunan resursun yaratdığı məhsuldarlıq artır. Bu halda maksimum gəlir intensivləşdirmənin optimal səviyyəsinə uyğun olur. Bu xüsusiyyətlər iqtisadi maraqların və mənafelərin əlaqələndirilməsinin yuxarıda göstərilən mövcud prinsiplərini yeni iki prinsip ilə tamamlamağa əsas verir:

3. Kənd təsərrüfatı məhsulları istehsalının hər bir iştirakçısının gəliri istehsalın son nəticəsindən asılı olmalıdır və onların gəliri əməyin son nəticədə xüsusi çəkisinə uyğun qiymətləndirilməlidir.

4. Özünü maliyyələşdirmə və təsərrüfat hesabına keçid şəraitində ictimai-zəruri xərcləri minimum səviyyəyə endirmək üçün istehsalın inkişafı minimum artan xərclərlə təmin olunmalıdır.

Yuxarıda göstərilən metod və yanaşmanın reallaşdırılması zamanı rast gəlinən problemləri nəzərdən keçirək:

1. Hazırda kənd təsərrüfatı məhsulları istehsalının maya dəyərində bəzi xərclər nəzərə alınmır. Məsələn, meliorasiya xərcləri, kapital tikinti xərcləri və sair. Təsərrüfatın istehsal proqramı onun təbii şəraitinə, istehsal və sosial imkanlarına uyğun olmalıdır. İqtisadi normativlər həmin şərtlər daxilində maksimum gəlir əldə olunmasını təmin etməlidir. Yəni qiymətlər idarəedici funksiyasını yerinə yetirməli və hər bir təsərrüfatı öz istehsal potensialından maksimum istifadə etməyə yönəltməlidir. Lakin bəzən elə hallara rast gəlinir ki, təsərrüfatlarda tələbat nisbətən az olan bitki becərilməsi başqalarına nisbətən çox gəlir yaradır. Məsələn, Azərbaycan Respublikasının suvarılan torpaqlarında qarğıdalının məhsuldarlığı rekord səviyyəyə çatır. Lakin həmin torpaqlarda məhsuldarlığı az olan pambıq becərilə bilər. Ölkəyə daha çox pambıq lazımdır və ona görə də xalq təsərrüfatı mənafeyi baxımından həmin torpaqlarda pambıq becərmək səmərəlidir və bu zaman təsərrüfatların maksimum gəlir alması təmin olunmalıdır. Beləliklə, kənd təsərrüfatı məhsullarının tədarük qiymətləri istehsalın optimal yerləşdirilməsi sxeminə uyğun olmalıdır.

2. İqtisadi stimullaşdırma fondları əməyin intensivliyini və keyfiyyətini əks etdirməlidir. Bu sosial ədalət prinsipinə daha çox uyğundur. Əgər istehsal müxtəlif torpaq və təbii şəraitdə yerinə yetirilirsə və eyni nəticə almaq üçün müxtəlif səviyyədə xərclər sərf edilirsə, bu zaman stimullaşdırma fondu intensivlik olan təsərrüfatlarda nisbətən çox olmalıdır. Bu formada yanaşma müxtəlif üsullarla

mümkündür və həmin üsullar təsərrüfat fəaliyyəti üçün bərabər şərait yaradılmasını təmin edir. İqtisadi ədəbiyyatlarda əlavə dəyərin hesablanması torpağın iqtisadi qiymətləndirilməsi üsulu ilə aparılması müzakirə edilir. Bu halda tədarük qiymətləri son hədd xərclər səviyyəsinə uyğun götürülür və yaxşı keyfiyyətli torpaqlarda yaranan əlavə dəyər həmin təsərrüfatlardan renta formasında ödənilir. İqtisadi ədəbiyyatlarda göstərilir ki, vahid (bərabər) səviyyəli qiymətlər diferensial - fərdi qiymətlərə nisbətən müəyyən üstünlüyə malikdir. Onlar aqrar istehsaldan ümumi gəliri əks etdirir və bu kənd təsərrüfatında hesablamaları sadələşdirir. Kənd təsərrüfatının inkişaf variantlarının qiymətləndirilməsi prosesində istehsalın iqtisadi göstəricilərinin müqayisə edilməsinə imkan verir.

Vahid (bərabər) səviyyəli qiymət pinsipinin tərəfdarları hesab edir ki, son hədd xərclər metodunu kütləvi əmtəəlik məhsul istehsal edən zonalarda tətbiq etmək məsləhətdir. Bu hal istehsal xərcləri orta səviyyəyə nisbətən çox olan təsərrüfatlarda istehsalın inkişafına stimul yaradır.

Yuxarıda göstərilən iqtisadi təhlil vahid (bərabər) səviyyəli qiymət konsepsiyasının nisbətən səmərəli olmasını əks etdirir. Həmin iki sistemin müqayisəli təhlili B.Kiselyov tərəfindən ətraflı təsvir olunmuşdur [3]. O, göstərir ki, istehsalın inkişafı və strukturunu özü seçən kənd təsərrüfatı müəssisələrində və fermer təsərrüfatlarında bərabər səviyyəli qiymətlər metodunun tətbiqi səmərəlidir.

3. Son məhsul istehsalında iştirak edən müəssisələrin işinin iqtisadi göstəriciləri və qiymətləndirilməsi həmin iştirakçıların son məhsulda əməyinə uyğun hesablanmalıdır. İştirakçıların son məhsulda əməyinin qiymətləndirilməsinin formaları müxtəlif ola bilər. Vacib odur ki, bu göstərici elmi cəhətdən düzgün hesablansın. Son məhsulun artırılmasına çalışanların əməyini stimullaşdırmaq və son məhsulun artımına mane olan iştirakçıları isə cəzalandırmaq məqsədəuyğundur. İstehsalın iqtisadi göstəricilərinin əlaqələndirilməsi yem istehsalı və heyvandarlıq sahələri arasında mümkündür və bu zaman son məhsulun reallaşdırılmasından alınan mənfəət iştirakçıların son məhsulda əməyinə uyğun bölünür. Bu zaman iştirakçıların işinin qiymətləndirilməsi onun keyfiyyətindən, əmək tutumundan, optimal müddətdə yerinə yetirilməsi və səmərəliliyindən asılıdır. Kənd təsərrüfatı məhsulları istehsalında iştirakçıların son məhsulun artırılmasında səyini stimullaşdırmaq məqsədilə göstərilən üsulun tətbiqi mühüm əhəmiyyətə malikdir.

4. Nəhayət, normativlərin işlənməsi, planlaşdırma və idarəetmə prosesində müxtəlif zonalarda və təsərrüfatlarda istehsalın inkişafının müxtəlif olması nəticəsində yaranan problemləri nəzərə almaq lazımdır. İntensiv işləyən təsərrüfatlar nisbətən çox mənfəət əldə edir, lakin hər məhsul vahidinin artımına çox xərc sərf olunur. Eyni torpaq və iqlim şəraitində fəaliyyət göstərən zəif fermer təsərrüfatlarında istehsalın sürətli inkişafına nail olmaq məqsədəuyğundur və iqtisadi baxımdan səmərəlidir.

Kənd təsərrüfatı məhsulları istehsalında əsas məqsəd ölkə əhalisinin tələbatlarını tam, keyfiyyətli və ucuz məhsullarla ödəməkdən ibarətdir. Təbiidir ki, təsərrüfat və iqtisadi mexanizm bu istiqamətə yönəldilməlidir və o cümlədən iqtisadi rıçaqlar sistemini bu məqsədlə istifadə etmək lazımdır. Azərbaycanda aqrar-sənaye kompleksi müəyyən templə inkişaf edir, lakin ölkənin təbii-iqlim şəraitinin imkanlarından və təbii resurslarından tam səmərəli istifadəyə ehtiyac vardır. Onun əsas səbəblərindən biri iqtisadi rıçaqlardan son məhsulun sürətlə inkişafı üçün istifadə olunmamasıdır. Bu zaman istehsal edilən və satılan kənd təsərrüfatı məhsullarının həcmi və maya dəyərini iqtisadi stimullaşdırma fondları ilə uyğunlaşdırmaq lazımdır. Yəni kənd təsərrüfatı müəssisələri və fərdi sahibkar təsərrüfatı müəssisələr və fərdi sahibkar təsərrüfatların (fermer təsərrüfatları) gəlirləri yalnız istehsalın səmərəliliyinin artırılması hesabına olmalıdır və başqa yollarla pul qazanmaq imkanı olmamalıdır. Yalnız bu halda və tam təsərrüfat hesabı şəraitində kollektivin mənafeyi ümumxalq mənafeyinə uyğun olacaqdır.

**Cədvəl 2**

**Kənd təsərrüfatı məhsulları istehsalının rentabelliyi [10]**

| Sahələr | 2005 | 2010 | 2015 | 2017 |
|---|---|---|---|---|
| l. Kənd təsərrüfatı müəssisələrinin sayı | 1782 | 2043 | 1659 | 1608 |
| Məhsul satışından mənfəət (min manat) | 6072 | 2286 | 40840 | 71711 |
| a) bitkiçilikdə | 2769 | 8855 | 20241 | 32235 |
| b) heyvandarlıqda | 3117 | 13021 | 19993 | 24356 |
| Məhsul satışının rentabelliyi (faiz) | 9,0 | 13,4 | 11,3 | 12,9 |
| a) bitkiçilikdə | 41,5 | 30 | 36,0 | 25,5 |
| b) heyvandarlıqda | 5,4 | 10,5 | 7,1 | 8,0 |
| 2. Fərdi sahibkarlıq təsərrüfatları | 2681 | 2618 | 1534 | 955 |
| Məhsul satışından mənfəət (min manat) | 2847 | 5087 | 5643 | 4198 |
| a) bitkiçilikdə | 1861 | 3051 | 3817 | 2544 |
| b) heyvandarlıqda | 987 | 2021 | 1796 | 1613 |
| Məhsul satışının rentabelliyi (faiz) | 71,9 | 36,9 | 40,2 | 50,7 |
| a) bitkiçilikdə | 86,6 | 31,7 | 39,3 | 49,9 |
| b) heyvandarlıqda | 54,4 | 48,8 | 42,4 | 51,9 |

İqtisadi informasiyaların təhlili göstərir ki, məhsullar istehsalı zamanı iqtisadi şərait və şərtlər müxtəlifdir. Həmin iqtisadi şəraitin bərabərləşdirilməsi çox aktual məsələdir. Bu qiymətlər sisteminin dəyişdirilməsi vasitəsilə və yaxud məhsulların regionlararası mübadiləsi üsulu ilə nizamlana bilər. İkinci halda rentabelli olmayan məhsul istehsalını azaltmaq və respublika səviyyəsində rentabelli məhsul istehsalı üzrə ixtisaslaşmasını dərinləşdirmək məqsədəuyğundur.

İstehsalın optimal yerləşdirilməsi prosesi və ixtisaslaşdırma ciddi iqtisadi səmərə yaratmağa imkan verir. İqtisadi təhlil prosesi göstərir ki, istehsalın rentabelliyi ilə müəyyən olunan lokal iqtisadi mənafelər bütün hallarda ictimai mənafelərə uyğun gəlmir. Həmin mənafelərin birliyi və əlaqələndirilməsi o zaman təmin olunur ki, həmin məhsulların maya dəyərinə minimum rentabellik uyğun olsun. Bu zaman həmin rayonda həmin məhsulun istehsalının inkişafı, eyni zamanda kollektiv və ictimai mənafeləri təmin edəcəkdir. Yuxarıdakı 2-ci cədvəldə müxtəlif sahələrdə məhsulların maya dəyəri və rentabelliyi haqqında informasiyalar əks etdirilir. Kənd təsərrüfatı məhsulları istehsalının maya dəyəri ardıcıl artır, lakin istehsalın rentabelliyi tədricən azalır. Eyni qiymətlərlə reallaşdırılan məhsulların müxtəlif rentabelliyə malik olması onların müxtəlif məhsuldarlığa və müxtəlif növə malik olması ilə izah olunur. Bu hal göstərir ki, ən az maya dəyəri olan məhsulların istehsalının inkişafı gözlənilən səmərəni verməyə bilər və o ümumi mənafeyə uyğun olmur. Ona görə də iqtisadi lokal və ictimai mənafelərin əlaqələndirilməsi və razılaşdırılması, optimal uzlaşdırılması ən vacib problemdir.

Kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyini təmin etmək prosesində texniki xidmət sahəsinin fəaliyyəti əhəmiyyətli rol oynayır. Texniki xidmət sahələri öz mənafeyini kənd təsərrüfatının mənafeyi ilə əlaqələndirilməli və razılaşdırılmalıdır. Öz fəaliyyətində əsas məqsədi istehsalın son nəticələrini yüksəltməkdən ibarət olmalıdır. Son illərin təcrübəsi göstərir ki, texniki xidmət sahələri öz imkanlarını bu istiqamətə yönəltmişlər.

Kənd təsərrüfatına kimyəvi xidmət sahəsi əsas etibarilə müxtəlif aqrotexniki işləri yerinə yetirir. Onun əsas işi torpağı kimyəvi maddələrlə emal etmək, torpağa mineral və üzvü gübrələr və sair verməkdən və aqrotexniki işlərin keyfiyyətini yüksəltməkdən ibarətdir. Onun işinin yaxşı təşkili kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artmasını təmin etməlidir.

**Cədvəl 3**

**Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı (sentner/ha) [9]**

| A | 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|---|
| Bitkiçilik məhsulları | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2017 |
| Dənli bitkilər | 26,5 | 20,7 | 24,0 | 31,5 | 30,6 | 29,8 |
| Pambıq | 17,5 | 12,7 | 17,9 | 18,8 | 17,3 | 15,3 |
| Tütün | 25,7 | 24, | 25,8 | 25,4 | 15,2 | 16,6 |
| Şəkər çuğunduru | 132 | 304 | 312 | 380 | 490 | 316 |
| Dən üçün günəbaxan | 14,8 | 17,4 | 17,3 | 17,7 | 20,8 | 20,1 |
| Kartof | 149 | 145 | 133 | 136 | 140 | 150 |
| Tərəvəz | 140 | 142 | 152 | 158 | 159 | 155 |
| Bostan məhsulları | 121 | 137 | 157 | 174 | 176 | 187 |
| Üzüm | 61,8 | 74,7 | 82,5 | 86,6 | 74,4 | 84,1 |
| Meyvə və giləmeyvə | 73,9 | 70,6 | 72,0 | 71,4 | 65,7 | 68,4 |
| Çay yarpağı | 2,5 | 9,4 | 10,1 | 12,4 | 14,1 | 11,1 |

Cədvəl 3-dən göründüyü kimi, kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artımını kimyəvi xidmət sahələri lazımi səviyyədə təmin etməmişdir. Halbuki istehsal xərcləri məhsuldarlığın artımına nisbətən çox sürətlə artmışdır, istehsalın rentabelliyi isə azalmışdır. İqtisadi təhlil kimyəvi xidmət sahəsinin kənd təsərrüfatının son məhsuluna çox zəif təsirini təsdiq edir. Bu hal onun mənafeyi ilə kənd təsərrüfatının mənafeyinin zəif əlaqələndirilməsinin nəticəsidir. Yuxarıda göstərilən iqtisadi təhlil sübut edir ki, iqtisadi mənafelərin nəzəri və tətbiqi problemləri, mənafelərin əlaqələndirilməsi optimallaşdırma metodlarının istifadəsini zəruri edir.

## Nəticə

1. Kənd təsərrüfatı məsulları istehsalında iş görən və xidmət göstərən müəssisələrlə kənd təsərrüfatının mənafelərinin optimal əlaqələndirilməsini təmin etmək məqsədilə həmin işlərin və xidmətlərin qiymətləri və tarifləri paritet qiymət modeli əsasında tənzimlənməlidir.

2. Kənd təsərrüfatının ümumi məhsulunda fərdi sahibkar və fermer təsərrüfatlarının artan rolunu nəzərə alaraq, fermer-sahibkarların məhsulunun qiyməti ilə onun və ailəsinin satın aldığı əmtəə və xidmətlərin qiymətlərini tənzimləmək üçün inkişaf etmiş ölkələrdə istifadə olunan paritet indeksindən istifadə etmək mümkündür. Bu üsul sahibkar və fermerin aldığı əmtəə və xidmətlərin qiyməti artdıqca uyğun olaraq sahibkar və fermerin məhsulunun qiymətinin artmasını təmin edir.

3. Aqrar-sənaye sistemində iqtisadi mənafelərin optimal əlaqələndirilməsi məqsədilə maliyyə kredit sistemi yenidən təşkil olunmalı, onların fəaliyyəti bazar iqtisadi sisteminə və dünya standartlarına uyğun olmalı, gəlir isə stimullaşdırıcı xarakterə malik olmalıdır.

4. Kənd təsərrüfatı ilə başqa iştirakçı sahələr arasında iqtisadi maraq və mənafeləri qarşılıqlı təmin etmək məqsədilə istehsal olunan məhsulun keyfiyyətini dəqiq təyin edən iqtisadi mexanizm və normativlər hazırlanmalı, onlar müasir tipli avadanlıqlarla təmin olunmalıdır.

5. Kənd təsərrüfatı və başqa iştirakçı sahələrin fəaliyyətinin iqtisadi səmərəsini artırmaq məqsədilə həmin sahələrin iqtisadi mənafelərinin forma və növləri, onların vəhdəti və ziddiyyətlərin aradan qaldırılması üsulları təklif edilir.

6. Respublikanın aqrar-sənaye kompleksi sistemində kənd təsərrüfatı ilə ona xidmət sahələrinin iqtisadi mənafelərinin hazırkı durumu təhlil edilir, onların iqtisadi mənafelərinin optimal əlaqələndirilməsinin mümkün istiqamətləri müəyyən edilir.

7. Kəndli-fermer təsərrüfatlarının istehsalda maddi marağını artırmaq və istehsal prosesində iştirak edən sahələrin iqtisadi mənafeyini əlaqələndirmək məqsədilə inkişaf etmiş ölkələrdə sınaqdan keçmiş və istifadə olunan paritet indeksinin tətbiqi təklif edilir.

8. Bazar iqtisadi sistemi şəraitində aqrar - sənaye sisteminin müxtəlif sahələri arasında

iqtisadi mənafelərin optimal əlaqələndirilməsini təmin etmək məqsədilə belə əlaqələrin fəal işlək mexanizminin yaradılması və təkmilləşdirilməsi üsulları inkişaf etdirilməlidir.

9. Tədqiqat işində aqrar sənaye sistemində son məhsulda müxtəlif iştirakçı sahələrin əməyinin qiymətləndirilməsi metodikası işlənmişdir və həmin qiymətlər hər sahəyə öz əməyinə görə mənfəət əldə etməyə və eyni zamanda müxtəlif sahələrin iqtisadi mənafelərinin optimal əlaqələndirilməsini və reallaşdırılmasmı təmin edir.

**Sədi Əbdürəhmanov, Nigar Teymurzadə**

**Kənd təsərrüfatında iqtisadi mənafelərin optimal əlaqələndirilməsi**

**Xülasə**

Məqalədə kənd təsərrüfatında iqtisadi mənafelərin optimal əlaqələndirilməsi hərtərəfli təhlil edilmişdir. Kənd təsərrüfatına xidmət göstərən sahə və müəssisələrin qiymət və tarifləri çox yüksək olduğundan onlar kənd təsərrüfatında yaradılan mənfəətin müəyyən hissəsini havayı mənimsəyir. Lakin aqroistehsal və xidmət sahələri arasında iqtisadi mənafeləri optimal əlaqələndirmək üçün hər iştirakçının xalis gəliri onun əməyinin son məhsulda xüsusi çəkisinə uyğun olmalıdır. Ona görə də kənd təsərrüfatı məhsulları istehsalında elə qiymətlərdən istifadə etmək lazımdır ki, onlar istehsal prosesində iştirak edən tərəflər sərf etdiyi əməyə görə mənfəət qazansın. Həmin qiymətlər və tariflər paritet qiymət modeli əsasında tənzimlənir.

**Сади Абдурахманов, Нигяр Теймурзаде**

**Оптимальное согласование экономических интересов в сельском хозяйстве**

**Резюме**

В статье было всесторонне проанализировано оптимальное соотношение экономических интересов в сельском хозяйстве. Поскольку цены и тарифы на услуги предприятий, обслуживающих сельское хозяйство очень высоки, они поглощают значителную часть прибыли, получаемой в сельском хозяйстве. Однако для оптимального согласования экономических интересов между агропроизводством и сферой услуг чистый доход каждого участника должен соответствовать удельному весу его труда в конечном продукте. Поэтому необходимо использовать такие цены при производстве сельскохозяйственной продукции, чтобы стороны, участвующие в процессе производства, извлекали выгоду из своего труда. Эти цены и тарифы регулируются на основе модели паритетных цен.

**Sadi Abdurahmanov, Nigar Teymurzadeh**

**Optimal coordination of economic interest in agriculture**

**Summary**

The article analyzes optimal coordination of economic interests in agriculture. Since the prices and tariffs for agricultural services of the spheres and enterprises are very high, they vainly absorb a part of the profit from agriculture. However, for optimal coordination of economic interests between agricultural production and the service sector, the net income of each participant should correspond to the share of its labour in the final product. Therefore, it is necessary to use prices in the production of agricultural products so that the parties involved in the production may benefit from their labour. These prices and tariffs are regulated on the basis of a model of parity prices.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı: www.stat.gov.az
2. Л.И.Абалкин. Проблемы органического сочетания интересов государства и трудовых коллективов. Журнал «Плановое хозяйства», 1994 №8.
3. М.Абдуррахманов. Планирование и стимулирование по конечным результатам в АПК. Баку-1990

4. В.И.Киселев. АПК - совершенствование хозяйственного механизма. Москва-1985
5. К.А.Багрновский, А.В.Лотов. Об основных направлениях имитационного моделирования механизма стимулирования производства на уровне предприятия. Журнал - Экономика и математические методы. Москва, 1995 год выпуск 3.
6. М.А.Бронштейн. Выравнивание условий хозрасчетной деятельности в сельском хозяйстве. Журнал- «Вопросы экономики». Москва 1995 год; №3
7. В.П.Можин. Территориальная структура агропромышленного комплекса. Журнал «Экономика и математические методы». Москва-2004 выпуск 6.
8. А.Б.Поманский. О сходимости процессов согласования экономических интересов. Журнал «Экономика и математические методы». Москва-2007, выпуск 4.
9. Azərbaycan kənd təsərrüfatı. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2018
10. Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2018

Məqalə redaksiyaya daxil olmuşdur: 01.07.2019
Təkrar işlənməyə göndərilmişdir: 17.07.2019
Çap üçün qəbul olunmuşdur: 24.07.2019

UOT: 339.9

DOI: 10.33870/1012-1211-2019-3-2497

# DAYANIQLI İQTİSADİ İNKİŞAFIN NƏZƏRİ ƏSASLARI

***Həsən Məmmədov***
*Naxçıvan Dövlət Universiteti*
*"Dünya iqtisadiyyatı və menecment" kafedrasının iqtisad üzrə fəlsəfə doktoru, dosent*
*AZ 7012, Azərbaycan Respublikası, Naxçıvan şəhəri,Universitet şəhərciyi*
*e-poçt: hasan_1961@mail.ru*

**Açar sözlər:** dayanıqlı inkişaf, dayanıqlı iqtisadi inkişaf, Üç sütun modeli, Dayanıqlı inkişafın kapital ehtiyatları modeli, Dayanıqlığın prizması modeli.
**Ключевые слова:** устойчивое развитие, устойчивое экономическое развитие, Трёхколонные модели, Модель капитальных ресурсов устойчивого развития, Модель призмы устойчивости.
**Keywords:** sustainable development, sustainable economic development, Three column models, Sustainable development capital resources model, Sustainability prism model.

Cəmiyyətin yüksələn tələbatları ilə mövcud məhdud resurslar arasındakı ziddiyyətlərin artması nəticəsində gələcəkdə insanların yaşamının ciddi təhlükə altına alınması ehtimalı ötən əsrin sonundan etibarən daha ciddi hiss olunmağa başlaması dünya ölkələrinin iqtisadçı alimlərinin diqqətini cəlb etmişdir. C.Keyns tərəfindən təklif olunan "İqtisadi artım" nəzəriyyəsi ilə dünya alimlərinin bir çoxu qlobal dayanıqlı inkişaf probleminin tərkib hissəsi olan dayanıqlı iqtisadi inkişaf problemini araşdırmağa başlamışlar [1, səh.92].

Dayanıqlı iqtisadi inkişaf mahiyətcə "dayanıqlı inkişaf" məqsədlərinin tərkib hissəsindən biri (ekoloji, iqtisadi və sosial) olmaqla məhz iqtisadiyyatın dayanıqlı inkişafını özündə ehtiva edir [1, səh.58].

"Dayanıqlı inkişaf" termini Azərbaycanın iqtisadi ədəbiyyatında geniş yayılmışdır. Çünki həm rus dilində "устойчивое развитие", həm də ingilis dilində "sustainable development" sözləri daha çox "dayanıqlı inkişaf" mənasını verir. Əslində "sustainble" sözü digər mənalar: "dəstəklənən", "öz özünü dəstəkləyən", "dayanıqlı", "fasiləsiz", "möhkəmlənən", "qorunan" (sustain - möhkəmlətmək, dəstəkləmək; to be able - qabil olmaq) mənasında da işlədilir.

İlk dəfə "dayanıqlı inkişaf" ideyasına 1713-cü ildə Hans Karl Fon Karlovitsinin alman dilində nəşr etdirdiyi meşə elmlərinə həsr olunmuş "Meşə iqtisadiyyatı" adlı kitabında təsadüf edilir. O, sübut etmişdir ki, ağac bizim gündəlik çörəyə olan tələbatımız qədər vacib olacaq və ondan meşəçiliyin inkişafı və ağac emalı arasındakı balans saxlanılmaqla istifadə edilməlidir. Karlovitsinin "Bu səbəbdən biz iqtisadiyyatımızı elə təşkil etməliyik ki, qıtlıq problemindən əziyyət çəkməyək" kimi uzaqgörən düşüncələrinə söykənən və resurslardan daimi istifadə qanunu dayanıqlı inkişaf konsepsiyasının mərkəzi ideyası olmuşdur [4, səh.22].

Təbii resursların məhdudluğu, dünyada baş verən qloballaşma, əhali artımı, ətraf mühitin çirklənməsi, qlobal istiləşmə, eroziya, torpaq sürüşmələri, təbii fəlakətlər və s. bu kimi problemlər mövcud ekosistemin dayanıqlılığını təhlükə qarşısında qoyaraq, gələcək nəsillərin inkişafını məhdudlaşdırır. Bu prosesin qarşısını almaq üçün yalnız ekosistem və insan inkişafı idarəetmə proqramlarının hazırlanması kifayət deyildir. Bu baxımdan, dayanıqlı inkişafın istər qlobal və regional, istərsə də milli çərçivədə bir problem kimi öyrənilməsi, ölçülməsi və qiymətləndirilməsinə dair bir sıra elmi yanaşmalar, modellər və konsepsiyalar irəli sürülmüşdür.

İqtisadiyyatda dayanıqlı inkişaf sosial-iqtisadi münasibətlərin ən mühüm müvəffəqiyyət meyarı kimi xarakterizə olunur. Bu isə ilk növbədə təsərrüfat subyektlərinin iqtisadi maraqlarının məcmusu, makroiqtisadi göstəricilərin dinamikası, iqtisadiyyatın idarə olunması ilə bağlı fəaliyyət göstərən institutların imkanları, iqtisadi əlaqələrin səmərəli xarakter daşıması və s. kimi amillərlə bilavasitə bağlıdır [3, səh.14].

Sonuncu minillikdən etibarən “Dayanıqlıq” məfhumunun insan inkişafının əsas prinsipi olması dayanıqlı inkişafla bağlı bir sıra modellərin (“Üç sütun modeli”, “Dayanıqlı inkişafın kapital ehtiyatları modeli”, “Dayanıqlığın prizması modeli” və s.) inkişaf etdirilməsinə səbəb olmuşdur.

Bu modellərin ümumilikdə mahiyyəti ondan ibarətdir ki, dayanıqlı inkişaf, əsas etibarilə insan rifahının təmin edilməsi üçün təbii ehtiyatlar və ətraf mühitin mühafizəsinə dair kompleks proqramdır. Bu, insan inkişafı və dayanıqlı inkişaf konsepsiyaları arasındakı paralellikdən irəli gəlir. Belə ki, dayanıqlı inkişafın əsas məqsədi ətraf mühitə dəyən ziyanı aradan qaldırmaq, təbii ehtiyatlardan maksimum səmərəli istifadə edərək gələcək nəsillərin ehtiyat mənbələrini tükətməmək şərtilə bugünkü nəslin ehtiyacını təmin etməkdirsə, insan inkişafının əsas məqsədi isə insanların maddi firavanlığını təmin edəcək, onlara sağlam və yaradıcı həyat, yaşamaq imkanı verəcək zəngin bir siyasi, iqtisadi, sosial, mədəni və ekoloji şəraitin yaradılmasından ibarətdir.

Elmi texniki tərəqqinin və elmi texniki inqilabın təbiət-cəmiyyət münasibətlərində yaratdığı mənfi nəticələrin qarşısının alınması, qlobal ekoloji problemlərin həlli yolları və bəşəriyyətin inkişafının gələcək perspektivləri İtaliya biznesmeni və alimi A.Peççeyi tərəfindən “Roma klub”nun məruzələrində araşdırılmağa başlanılmışdır. “Roma klubu” (1968-ci il) müasir dövrün qlobal problemlərini öyrənən və tədqiq edən nüfuzlu və beynəlxalq miqyaslı qeyri-hökumət təşkilatıdır. Həmin klubun üzvü, ABŞ-ın Massaçuset Texnologiya İnstitutunun professoru J.Foresfer “Dünya dinamikası” kitabında (1971) əhali artımı, ərzaq problemi, təbiətin və ətraf mühitin çirklənməsi, bərpa olunmayan təbii sərvətlərdən istifadə həddini keçməsi, kapital qoyuluşu və s. məsələlərin riyazi modelləşdirməsini vermişdir [1, səh.91]. Klubun digər üzvlərinin məruzələrində qlobal və lokal məqsədlərin əlaqələndirilməsi, cəmiyyətin təşkili və idarə edilməsi, əhalinin maddi rifahının yaxşılaşdırılması, enerjidən istifadə, məişət və istehsalat tullantılarının zərərsizləşdirilməsi, təkrar emal və s. məsələlər ətraflı şərh olunmuşdur. “Roma klubu”na daxil olan tədqiqatçıların məruzələri bu gün dayanıqlı inkişaf anlayışının başa düşülməsində və onun təmin edilməsi ilə bağlı milli konsepsiyaların formalaşmasında müstəsna rol oynamaqdadır. Lakin həmin məruzələrin başlıca qüsuru ondan ibarət olmuşdur ki, onlar iqtisadi inkişafı təmin edən amilləri müəyyənləşdirərkən elmi texniki tərəqqinin inkişaf imkanlarını, yeni alternativ enerji növlərinin meydana gəlməsini və dövlət tənzimlənməsinin rolunu kifayət qədər nəzərə almamışlar.

BMT Baş katibinin təşəbbüsü ilə Norveçin Baş naziri *Qru Harlem Brundtlandın* rəhbərliyi ilə yaradılmış Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Komissiya tərəfindən 1987-ci ildə dərc edilmiş “Bizim ümumi gələcəyimiz” adlı məruzədə inkişafın cari tələblərinin gələcək nəsillərin ehtiyaclarını riskə atmadan ödənilməsi arqumentinə əsaslanan 1) gələcəyin ehtiyaclarını ödəmək naminə cari ehtiyaclar qurban verilməməlidir; 2) bəşəriyyətin iqtisadi gələcəyi təbiətin sərvətindən qənaətlə istifadədən, ətraf mühitin qorunmasından, bütövlükdə ekosistemin zənginliyindən asılıdır; 3) hazırkı dünyanın iqtisadi sistemi bir çox insanların, əsasən, kasıb əhalinin ehtiyaclarını qarşılamadığından dayanıqlı hesab edilmir; 4) yer kürəsinin ən kasıb əhalisinin iqtisadi vəziyyətini yaxşılaşdırmayanadək ətraf mühitin mühafizəsi mümkün olmayacaq; 5) gələcək nəslin öz ehtiyaclarını ödəməyə dair hüququ olduğu səbəbindən biz insanlar onların bu hüququnu həyata keçirməyə dair mümkün qədər imkanlar yaratmalıyıq, bacardığımız qədər dəstək olmalıyıq və əlimizdən gələn köməyi əsirgəməməliyik kimi beş məsələ beynəlxalq səviyyədə gündəmə gətirilmişdir [4, səh.25].

“Davamlı inkişaf” termini iqtisadi ədəbiyyatda ilk dəfə Q.Brundland istifadə etmişdir. Məhz onun fikri əsasında BMT tərəfindən qəbul olunmuş prinsipə əsasən “dayanıqlı inkişaf-gələcək nəsillərin tələbatlarının ödənilməsi imkanlarını təhlükə altına almadan müasir nəslin tələbatının ödənilməsini nəzərdə tutur” [3, səh.15]. Beləliklə, 1987-ci ildən başlayaraq ətraf mühit və inkişafa dair Beynəlxalq Komissiya (Brundtland komissiyası) tərəfindən “Dayanıqlı inkişaf” termini işlədilməyə başlanılmışdır [1, səh. 58].

1990-cı ildə təsis edilmiş Beynəlxalq dayanıqlı inkişaf institutu dayanıqlı inkişafa aşağıdakı tərifi vermişdir: “Dayanıqlı inkişaf ətraf mühit, iqtisadi səmərəlilik və xalqların rifahının birliyini ifadə edir” [5, səh.75].

Daha geniş mənada dayanıqlı inkişaf anlayışını aşağıdakı kimi ifadə etmək olar: Dayanıqlı inkişaf dəyişikliklər prosesi olub, burada təbii ehtiyatların istismarı, investisiya (sərmayə)

qoyuluşlarının istiqaməti, elmi-texniki tərəqqinin yönü, şəxsiyyətin inkişafı və quruluş dəyişiklikləri bir-biri ilə uzlaşmış halda insan tələbat və istəklərinin təmini üçün bugünkü və gələcək potensialı möhkəmlədir.

Akademik V.A.Kaptyuka görə dayanıqlı insan konsepsiyası, bəşəriyyətin idraklı şəkildə balanslaşdırılmış sosial-iqtisadi inkişafına və ətraf mühitin qorunmasına nail olmaq, həm texnoloji proses və həm də istehlakın səmərələşdirilməsi yolu ilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında iqtisadi dispariteti kəskin şəkildə azaltmaqdan ibarətdir.

Akademik N.N.Moiseyev hesab edir ki, dayanıqlı inkişafı biosfer və cəmiyyətin tarazlıq vəziyyətinə keçmə imkanını təmin edən fəaliyyətin həyata keçirilməsi kimi başa düşmək lazımdır [2, səh.132].

Akademik A.D.Ursula görə isə dayanıqlı inkişaf, ətraf mühiti dağıtmayan, fasiləsiz ictimai tərəqqini təmin edən, idarə olunan, dəstəklənən və nizamlanan inkişaf strategiyasıdır.

Beləliklə, dayanıqlı inkişaf strategiyasının mənası bəşəriyyətin qeyri-müəyyən uzun müddət var olması şərtlərini müəyyənləşdirməkdən ibarətdir. Bunun üçün insanların tələbatının elə şəkildə təmin olunması nəzərdə tutulur ki, fikrimizcə, bu, biosferin deqradasiyasına, gələcək nəsillərin maraqlarının sıxışdırılmasına gətirib çıxarmasın. Dayanıqlı inkişaf gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki dövrün ehtiyaclarını ödəyən inkişafdır [2, səh.133]. Dayanıqlı inkişafın bu izahı insanların ehtiyaclarının ödənilməsi və həyat səviyyəsinin yüksəldilməsi üçün inkişafın reallaşmasını, lakin bu zaman dünya iqtisadiyyatının indiki və gələcək ehtiyaclarını nəzərə alaraq, təbii resurslardan sui-istifadə edilməməsini nəzərdə tutur.

1992-ci ildə Rio-de-Janeyro şəhərində BMT-nin ətraf mühit və inkişaf məsələlərinə həsr edilmiş "Yer kürəsi sammiti" adlı konfransında "Gündəlik 21" sənədinin qəbulu dayanıqlı inkişafın qlobal çərçivədə konseptual əhəmiyyətini daha da gücləndirdi. Bu genişmiqyaslı sənəddə BMT-nin bütün proqramlarında inkişaf məsələlərinin ətraf mühitin qorunması ilə uyğunlaşdırılması zərurəti vurğulandı. "Gündəlik 21" sənədi müasir dövrün inkişaf problemlərini nəzərdən keçirərək beynəlxalq ictimaiyyəti növbəti yüzilliyin çağırışlarına hazır olmağa dəvət etdi.

1992-ci ildə Rio de-Janeyroda BMT-nin ətraf mühit və inkişaf üzrə keçirilən konfransı bu qlobal iqtisadi problemin mahiyyətinin dərk olunmasının vacib olduğunu müzakirə etdi və müasir cəmiyyətin dayanıqlı inkişafa keçmə strategiyasını qəbul etdi [6, səh.514-515].

Beləliklə, inkişaf və ekoloji tərəfdaşlıq məsələləri sahəsində ən yüksək səviyyədə siyasi öhdəliklər üzrə konsensus qəbul edildi və bu qlobal ekoloji balansın təmin edilməsi üçün beynəlxalq danışıqların ilk nümunəsi kimi tarixdə qaldı.

Dayanıqlı inkişafın dinamik xarakteri xüsusilə qeyd edilməlidir. Nə klassik iqtisad elmində, nə də marksist nəzəriyyədə iqtisadi inkişafda ekoloji məhdudlaşdırma məsələlərinə diqqət yetirilməmişdir. XX əsrin 70-ci illərindən başlayaraq ekoloji problemlər kəskin surətdə gərginləşdiyindən ona diqqət artmağa başlamışdır. Mahiyyətcə dayanıqlı inkişaf konsepsiyası mövcud problemlərə keyfiyyətcə yeni yanaşmadır. Bəziləri problemin siyasi həllini, digərləri isə iqtisadi həllini effektli hesab edirlər. Əslində isə dayanıqlı inkişaf konsepsiyası üç əsas baxışın birləşməsi nəticəsində yaranmışdır. Bunlar iqtisadi, sosial və ekoloji baxışlardır. Buna müvafiq olaraq dayanıqlı inkişafın üç əsas məqsədini müəyyən etmək olar: ekoloji tamlıq, ekoeffektlilik və ekoədalətlilik.

BMT-nin iştirakı ilə XX əsrin 90-cı illərindən etibarən ətraf mühitin mühafizəsi və dayanıqlı inkişafa dair bir sıra mühüm beynəlxalq sənədlər qəbul olunmuşdur. Bu sənədlərə 1992-ci ildə qəbul edilmiş "Bioloji müxtəliflik haqqında konvensiya", "İqlim dəyişməsi üzrə BMT Çərçivə Sənədi", bu çərçivə sənədinə əlavə 1997-ci ildə qəbul edilmiş və 2005-ci ildə qüvvəyə minmiş "İstixana effekti yaradan qazların emissiyasının məhdudlaşdırılması üzrə Kyoto Protokolu", "Gündəlik 21" sənədinin birbaşa tövsiyəsi ilə hazırlanmış və 1994-cü ildə Parisdə qəbul edilmiş "Səhralaşmağa qarşı mübarizə haqqında konvensiya", 1998-ci ildə qəbul edilmiş ətraf mühit məsələlərinə dair informasiyanın əldə edilməsi, qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakı və ədalət mühakiməsinə müraciət ilə bağlı BMT Avropa İqtisadi Komissiyasının "Orxus Konvensiyası"nı misal göstərmək olar.

Bazar iqtisadiyyatı şəraitində yeni müstəvidə baş verən sosial, iqtisadi və ətraf mühit prosesləri dayanıqlı inkişafın təmin edilməsi üçün müasir çağırışlar əsasında adekvat mexanizmlərin

hazırlanmasına, beynəlxalq tövsiyə, norma və standartları əks etdirən sənədlərin qəbuluna, habelə proqram və tədbirlərin həyata keçirilməsinə zərurət yaratmışdır. Bu məqsədlə 2000-ci ildə "Minilliyin Sammiti" çərçivəsində qəbul edilmiş Minilliyin Bəyannaməsi və Minilliyin İnkişaf Məqsədləri dayanıqlı inkişaf məsələlərinə və ekoloji prioritetlərə yeni nəfəs gətirdi. Belə ki, 2002-ci ildə Yohannesburq şəhərində keçirilən Dayanıqlı İnkişaf üzrə Ümumdünya Sammitinin yekun sənədi olan Yohannesburq Bəyannaməsi ilə ümumi inkişaf prosesində uğurlu qlobal addım kimi milli, regional və qlobal miqyasda dayanıqlı inkişafın "çətir məqsəd"ləri gündəmə gətirildi.

2012-ci ildə Rio-de-Janeyroda baş tutmuş "Rio+20: Dayanıqlı İnkişaf üzrə Konfrans"da BMT-yə üzv dövlətlərin dəstəyi ilə qəbul edilən və 2015-ci ildən sonrakı dövrün insan inkişafının təmin edilməsi prosesinin aydın praktiki icra mexanizmlərini müəyyənləşdirən "İstədiyimiz gələcək" adlı yekun sənəd Minilliyin İnkişaf Məqsədlərini əvəzləyəcək "Dayanıqlı İnkişaf Məqsədləri"nin hazırlanması ideyasına zəmin yaratdı. Beləliklə, BMT Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli müvafiq Qətnaməsi ilə (A/RES/70/1) (rəsmi olaraq 01.01.2016-cı ildə qüvvəyə minmişdir) dayanıqlı inkişaf sahəsində növbəti on beş il müddətinə insan həyatını dəyişmək və planetimizi qorumaqla qlobal inkişafın dayanıqlılığını təmin edən 17 məqsəd ətrafında 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı növbəti sənəd qəbul edilmişdir. Həmin sənədə görə dayanıqlı inkişaf məqsədləri aşağıdakı istiqamətləri əhatə edir: 1. Hər yerdə yoxsulluğun bütün formalarına son qoymaq; 2. Aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və təkmilləşdirilmiş qidalanmaya nail olmaq və dayanıqlı kənd təsərrüfatına dəstək olmaq; 3. Sağlam həyat tərzini təmin etmək və bütün yaş qrupları üçün rifahı yüksəltmək; 4. Əhatəli və bərabər keyfiyyətli təhsili təmin etmək və hamı üçün həyat boyu öyrənmə imkanlarını təbliğ etmək; 5. Gender bərabərliyinə nail olmaq, bütün qadın və qızlara səlahiyyət vermək; 6. Hamı üçün su, su kəməri və kanalizasiya sistemini təmin etmək, bunları səmərəli idarə etmək; 7. Hər kəs üçün münasib, etibarlı, dayanıqlı və müasir enerjidən istifadə imkanı yaratmaq; 8. Hamı üçün dayanıqlı, əhatəli və dayanıqlı iqtisadi artım, tam və məhsuldar məşğulluq, layiqli iş imkanı yaratmaq; 9. Dayanıqlı infrastruktur qurmaq, əhatəli və dayanıqlı sənayeləşməni dəstəkləmək və innovasiyanı stimullaşdırmaq; 10. Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq; 11. Şəhərləri və insanların yaşayış məskənlərini əhatəli, təhlükəsiz, dayanıqlı və davamlı etmək; 12. Dayanıqlı istehlak və istehsal strukturunu təmin etmək; 13. İqlim dəyişikliyi və onun təsirləri ilə mübarizə aparmaq üçün operativ surətdə tədbirlər görmək; 14. Dayanıqlı inkişaf üçün okean, dəniz və dəniz resurslarını qorumaq və onlardan səmərəli istifadə etmək; 15. Yerüstü ekosistemi mühafizə etmək, bərpa etmək və ondan səmərəli istifadəni təbliğ etmək, meşələri səmərəli şəkildə idarə etmək, səhralaşma prosesinə qarşı mübarizə aparmaq, torpaqların deqradasiyaya uğraması prosesini dayandırmaq və aradan qaldırmaq, biomüxtəlifliyin itirilməsini dayandırmaq; 16. Dayanıqlı inkişaf məqsədilə dinc və hamı üçün bərabər imkanlar yaradan cəmiyyəti dəstəkləmək, hər kəsə məhkəməyə müraciət etmək imkanı vermək və bütün səviyyələr üzrə səmərəli, məsuliyyətli və əhatəli müəssisələr yaratmaq; 17. Dayanıqlı inkişafın həyata keçirilmə vasitələrini gücləndirmək və qlobal tərəfdaşlığı canlandırmaq [7].

Artıq dünyanın əksər ölkələrinin dayanıqlı inkişaf proqramları olsa da, bu sahədə işlər "Dayanıqlı İnkişaf Məqsədləri" istiqamətində davam etdirilməkdədir. Ölkəmizdə "Dayanıqlı İqtisadi İnkişaf"ın aşağıdakı prinsiplər üzrə inkişaf etdirilməsi məqsədəuyğun hesab edilə bilər:

- iqtisadiyyatda məhsul istehsalı və xidmətlərin fasiləsiz artımı;
- istehsal potensialından səmərəli istifadə;
- ekstensiv inkişafdan intensiv inkişafa keçid, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqi;
- təsərrüfat fəaliyyətinin iqtisadi səmərəliliyinin dayanıqlı yüksəlişi;
- torpaq və su ehtiyatlarının mühafizəsi;
- ətraf mühitin mühafizəsi;
- cəmiyyət üzvlərinin həyat şəraitinin yaxşılaşdırılması;
- iqtisadiyyatın sahələri və regional qeyri-tarazlı inkişafının aradan qaldırılması;

Ölkəmizdə dayanıqlı inkişafla bağlı qarşıda duran ən mühüm problemlər aşağıdakılardan ibarətdir:

– qeyri-neft sektorunun kifayət qədər inkişaf etməməsi;
– güclü maliyyə dayanıqlığının olmaması;
– infrastruktur sisteminin tam formalaşmaması və onun müasir tələblərə cavab verməməsi;
– iqtisadiyyatın sahə və ərazi kəsimləri arasındakı disparitetin mövcudluğu;
– əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin təmin edilməsi, gəlirlərin indeksləşdirilməsi və işsizliyin qarşısının alınması ilə bağlı problemlər.

Dayanıqlı inkişaf istiqamətində dövlət siyasəti daha çox hüquqi və iqtisadi metodlarla, zəruri hallarda inzibati təsir mexanizmlərindən istifadə etməklə reallaşdırılmalıdır.

Beləliklə, dayanıqlı iqtisadi inkişafın təmin olunması ilə bağlı dövlətin qarşısında duran ən mühüm vəzifələri iki istiqamətdə təsnifləşdirmək mümkündür. Bunlardan birincisi, daxili sabitliyin və milli iqtisadiyyatın inkişafının dayanıqlılığının təmin edilməsi, ikincisi, xarici rəqabətin əlverişsiz təsirlərinin effektiv neytrallaşdırılması aid edilir [3, səh.16].

Ölkəmizdə “Dayanıqlı inkişaf üzrə gündəlik 2030” hədəflərinə nail olunmasının milli səviyyədə monitorinqini aparmaq üçün statistik potensialın gücləndirilməsi və informasiya bazasının genişləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir.

Ölkəmizdə dayanıqlı inkişaf mühüm iqtisadi-sosial-ekoloji-fəlsəfi Konsepsiyası olmaqla təbiət-cəmiyyət münasibətlərində yaranmış, olduqca geniş əhatəli gərginliyin, qeyri-tarazlığın iqtisadi və sosial-ekoloji nəticələrinin araşdırılması, müvafiq beynəlxalq səviyyəli məcburi tədbirlər kompleksinin həyata keçirilməsi ilə davam etdirilir. Bu konsepsiya bəşəriyyətin tarixində ən mütərrəqi, humanist və qlobal sivilizasiyaya inteqrasiya sahəsində yeni inkişaf konsepsiyalarından biri hesab edilir [6, səh.511-512].

İqtisadi inkişaf cəmiyyətin dayanıqlı, davamlı, fasiləsiz, sabit, uzunmüddətli inkişafının təmin olunması kimi başa düşülür və bəşəriyyətin ən müasir, mütərəqqi, gələcək nəsillərin tələblərini ödəyən, onların imkanlarını məhdudlaşdırmayan, insan potensialı və kapitalını, yeni biliklərin səfərbər olunmasını əsas şərt kimi qəbul edən, ətraf mühitin mühafizəsini və yaxşılaşdırmasını nəzərdə tutan, dünya iqtisadiyyatının uzunmüddətli inkişafı və onun vasitəsilə qlobal sosial-iqtisadi problemlərin həlli yollarına şərait yaradan bir konsepsiyadır.

Dayanıqlı iqtisadi inkişafın əsas mahiyyətini insanların tələbatlarını ödəməyə qadir olan və onların öz gələcək ehtiyaclarının ödəməsinə mane olmayan iqtisadi inkişaf və insan fəaliyyətinin idarə edilməsinin yeni forması təşkil edir. Bu tələblər isə yalnız ətraf mühitin qorunması, təbii sərvətlərdən və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi, bunun üçün isə yeni texnologiyaların yaradılması və onların istehsalatda geniş tətbiq olunması zəminində həyata keçirilir. Dayanıqlı iqtisadi inkişafda hər şey yalnız ölkə iqtisadiyyatının dayanıqlı inkişafına təminat verməli və zəmin yaratmalıdır.

Sənayeləşmənin miqyası və tempinin artması təbii mühitdə qlobal dəyişikliklərin baş verməsi ilə müşahidə olunur. XX əsrin ikinci yarsındakı texniki tərəqqi nəticəsində bu dəyişikliklər öz kuliminasiya nöqtəsinə çatmışdır.

Nəzərə almaq lazımdır ki, dayanıqlı inkişaf cəmiyyətin yalnız iqtisadi və ekoloji təhlükəsizliyi deyil, həmçinin siyasi, sosial inkişafda stabilliyidir. Müasir dövrdə dayanıqlı inkişaf, milli iqtisadiyyatın elə bir artımını nəzərdə tutur ki, onun sayəsində cəmiyyətin müasir tələbatlarını ödəyərkən gələcək nəsillərin artan tələbatların daha yaxşı ödəmək qabiliyyətini məhdudlaşdırmasın. Belə ki, ölkəmizin malik olduğu resurs potensialı, onlardan istifadə dərəcəsi, elmi-texniki tərəqqinin mövcud imkanları, eləcə də milli iqtisadiyyatın dinamik, tarazlı və səmərəli inkişafı dayanıqlı iqtisadi inkişaf modelinə keçidin problemlərinin araşdırılmasını təkidlə tələb edir.

Azərbaycanda bazar iqtisadiyyatının formalaşması, habelə postsovet dövründə ölkəmizin, əsasən, ekstensiv inkişafı, milli iqtisadiyyatın maraq və mənafelərə deyil, daha çox Ümumittifaq Əmək Bölgüsünün tələblərinə uyğun formalaşdırılması, ölkəmizdə dayanıqlı iqtisadi inkişafın təmin edilməsi problemlərinin yenidən həll edilməsini obyektiv zərurətə çevirmişdir. Araşdırmalar göstərir ki, müstəqillik dövründən bu günə kimi ölkədə mövcud iqtisadi inkişaf üç əsas mərhələdən keçmişdir: birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi tənəzzül dövrü; ikincisi, 1996-2005-ci illəri əhatə edən makroiqtisadi sabitlik və üçüncüsü, 2005-ci ildən başlayan dinamik iqtisadi inkişaf dövrü.

Dayanıqlı inkişaf cəmiyyətin sosial-iqtisadi həyatının bütün elementlərini əhatə edir və həyat

resurslarının qorunub saxlanılması, eyni zamanda ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın təmin olunması, texnogen sabitliyin təmin edilməsi üzrə kompleks tədbirləri də özündə ehtiva edir [3, səh.14].

Bazar iqtisadiyyatı şəraitində beynəlxalq təcrübə və mövcud reallıqlar əsasında milli iqtisadiyyatın dayanıqlı inkişaf probleminə elmi-praktiki cəhətdən yanaşmanın böyük əhəmiyyəti vardır. Belə ki, müasir dövrdə ölkəmizin dayanıqlı iqtisadi inkişafa keçidinin xüsusiyyətlərini araşdıraraq, onun göstəricilər sistemini müəyyənləşdirmək olduqca vacibdir. Azərbaycanda sosial-iqtisadi inkişafın mövcud vəziyyətini öyrənmək, dayanıqlı inkişafa keçidi təmin edən əsas amilləri aşkara çıxarmaq xüsusi ilə əhəmiyyətlidir.

Milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsində investisiya və innovasiya amilləri, iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən infrastrukturların səmərəliliyinin yüksəldilməsi və onların təkmilləşdirilməsi mühüm əhəmiyyətə malikdir.

Qloballaşma şəraitində dünyada bəşəriyyətin resurslara olan tələbatlarının durmadan artması, məhsul istehsalının getdikcə bahalaşması, dünyada baş verən qloballaşma proseslərinin məntiqi nəticəsi olaraq, iqtisadi, sosial, demoqrafik və ekoloji problemlərin ümumbəşəri xarakter daşımasına səbəb olmuşdur. Belə bir şəraitdə Azərbaycanda milli iqtisadiyyatın formalaşdırılması və inkişafı həlledici dərəcədə onun dayanıqlı inkişafından asılıdır.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, milli iqtisadiyyatın "Dayanıqlı İnkişaf"a keçidini təmin etmək üçün hər şeydən əvvəl ölkənin resurs potensialı indiki və gələcək nəsillərin maraq və mənafeləri nəzərə alınmaqla səmərəli reallaşdırılmalı, investisiyalara əsaslanan inkişaf modelindən innovasiyalı inkişaf modelinə keçid formalaşdırılmalıdır. Bütün bunlar öz növbəsində "Dayanıqlı İnkişaf"a keçidin başlıca yollarını, onun səviyyəsini xarakterizə edən makroiqtisadi göstəricilərin nəzəri və praktiki baxımdan sistemli öyrənilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, Dayanıqlı İnkişaf Konsepsiyası, belə bir sivil yanaşma tələb edir ki, iqtisadi sistemin və onun inkişaf modelinin xarakterindən asılı olmayaraq, elmi-texniki tərəqqinin inkişafı gücləndikcə bütün səviyyələrdə insanların dayanıqlı yaşayış prinsipləri gözlənilsin və ətraf mühitin tarazlığı pozulmasın. Araşdırmalar göstərir ki, dayanıqlı inkişaf kifayət qədər sosial məqsədlər ilə də xarakterizə olunur.

Son dövrdə Dayanıqlı İnkişafla bağlı aparılan nəzəri və əməli xarakterli tədqiqatların məntiqi nəticəsi olaraq dünyada tədricən daha optimist inkişaf modelləri və məruzələri meydana gəlmişdir. Dayanıqlı İnkişaf Konsepsiyası məntiqi olaraq planetin ehtiyatlarından səmərəli və qənaətlə istifadə edilməsini, təbii mühitin qorunub saxlanmasını, indiki və gələcək nəsillərin həyat şəraitinin yaxşılaşdırılmasını, insanların tələbatlarının optimal şəkildə ödənilməsini və bütün dünyada sülhün qorunmasına yönəldilmiş sosial-iqtisadi və ekoloji inkişaf tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur. Bu baxımdan, "Dayanıqlı İnkişaf" nəzəriyyəsi son illərdə ən çox tədqiq olunan aktual nəzəri, həm də bəşəriyyətin gələcəkdə mövcudluğunun praktiki məsələlərinin həllinin konseptual əsaslarını özündə birləşdirən bir problemə çevrilmişdir. Son onillikdə dünya iqtisadiyyatının inkişafı nəticəsində ekoloji böhran, başqa sözlə, təbiətlə cəmiyyətin qarşıdurması elə bir həddə gəlib çatmışdır ki, bu problemə biganə münasibət bəşəriyyətin mövcudluğunu şübhə altına ala bilər.

Dünya miqyasında dayanıqlı inkişafın təmin edilməsinin digər problemi bir çox ölkələrdə yaranan gərgin demoqrafik proseslərlə şərtlənir. Bundan başqa, ayrı-ayrı ölkələr üzrə bu amillərin sistemli təhlili göstərir ki, həmin problemlərin həlli imkanları iqtisadi inkişafın səviyyəsi və xarakterindən asılıdır.

Ölkənin iqtisadi potensialının "Dayanıqlı İnkişaf" baxımından qiymətləndirilməsi mahiyyət və struktur etibarilə mürəkkəb, eyni zamanda çox aspektli bir problemdir. Təcrübədə iqtisadiyyatın "Dayanıqlı inkişaf"ın mövcud vəziyyətini qiymətləndirmək üçün müxtəlif səviyyələri əhatə edən göstəricilər sistemindən və meyarlardan istifadə olunur. Lakin dayanıqlı inkişafın iqtisadi potensialının meyarları və metodoloji prinsipləri haqqında bu günə kimi vahid bir beynəlxalq standartlar mövcud deyildir. "Dayanıqlı İnkişaf"ın meyarları, hər şeydən əvvəl özündə iqtisadi, sosial və ekoloji problemlərin vəhdət halında həllinə və inkişafına əsaslanmalıdır. Həm də bu zaman elə bir inkişaf tipinin formalaşdırılması başa düşülməlidir ki, o, dəyişən şəraitə və tələbata daha effektiv

uyğunlaşmaq qabiliyyətinə malik olsun [2, səh.131-136].

Dünya ölkələrinin təcrübəsi göstərir ki, "Dayanıqlı İnkişaf"ın təmin edilməsi üçün ölkənin əldə olunmuş inkişaf səviyyəsi, potensialı, institusional bazası ilə yanaşı, milli iqtisadiyyatın mövcud reallıqlarına uyğun, düzgün iqtisadi strategiyanın seçilməsi çox zəruridir. Belə ki, son yüzillikdə beynəlxalq səviyyədə rəqabət üstünlükləri əldə etmiş ölkələrin təcrübəsinin sistemli təhlili göstərir ki, onların uğurunu təmin edən əsas amil, hər şeydən əvvəl, düzgün iqtisadi inkişaf modelinin müəyyənləşdirilməsi və reallaşdırılması mexanizmlərinin seçilməsi olmuşdur.

Hazırda qloballaşan dünyaya fəal inteqrasiya olunan Azərbaycan kimi ölkələr milli iqtisadiyyatın rəqabət mübarizəsinə davam gətirmək üçün birincisi, iqtisadi inkişafın prioritetlərini düzgün müəyyənləşdirməli, ikincisi, onların reallaşdırılmasının mövcud reallığa və imkanlara uyğun səmərəli üsul, vasitə və mexanizmlərini seçməlidir. Çünki inzibati amirlik sistemindən bazar sisteminə keçən ölkələrdə onun yeni iqtisadi sistemin tələblərinə uyğun səmərəli fəaliyyəti maddi amillərlə yanaşı, insanların şüur, təfəkkür, düşüncə tərzi, milli mentalitet və nəhayət, ölkədə formalaşdırılan iqtisadi siyasətin mövcud reallıqlara nə dərəcədə cavab verməsindən əhəmiyyətli dərəcədə asılıdır.

Son illərdə Azərbaycanda milli iqtisadiyyatın dayanıqlı və dinamik inkişafa keçidini təmin etmək üçün kompleks (iqtisadi, təşkilati, siyasi) şərait formalaşdırılmış, kifayət qədər iqtisadi və hüquqi baza yaradılmışdır. Müasir dövrdə ölkəmiz iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, onun gələcək inkişafı əhəmiyyətli dərəcədə bugünkü struktur siyasətin inkişaf xüsusiyyətindən asılı olacaqdır.

Milli iqtisadiyyatda baş verən müsbət dəyişikliklər elmi-texniki tərəqqinin inkişaf səviyyəsi ilə qarşılıqlı əlaqədə olan bir prosesdir. O, elmi-texniki tərəqqinin sürətləndirilməsinin mühüm şərti kimi çıxış edir. Bu baxımdan, ölkəmizdə elmi-texniki və struktur siyasətin formalaşdırılmasına elə çalışmaq lazımdır ki, o, bir tərəfdən Azərbaycanın malik olduğu bütün resurslardan səmərəli istifadə etməyə və ölkəmizin qarşısında duran sosial-iqtisadi problemlərin mümkün qədər optimal müddətdə həll etməyə şərait yaratsın və ən başlıca isə perspektivdə iqtisadi artımın imkanlarını məhdudlaşdırmasın [8, səh.37].

Respublikada uzun bir dövrü əhatə edən struktur siyasəti bir tərəfdən iqtisadi problemlərin həllini, digər tərəfdən Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını, iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsini, ən başlıcası isə dayanıqlı inkişaf problemlərinin həlli istiqamətlərini müəyyən etməklə ölkəmizdə qeyri-neft sektorunun inkişafının həyata keçirilməsini təmin edir.

Son illərdə xüsusi neft fondunun yaradılması, ondan istifadənin şəffaflığının təmin olunması, ölkənin iqtisadi təhlükəsizliyi nəzərə alınmaqla investisiyaların maliyyələşdirilməsində daxili və xarici mənbələrin optimal formada əlaqələndirilərək reallaşdırılmasında müstəsna dərəcədə əhəmiyyətə malik olmuşdur.

Qeyd etmək lazımdır ki, ÜDM-də məcmu investisiyaların, xüsusən xarici investisiyaların xüsusi çəkisi kəskin aşağı düşmüş, lakin daxili investisiyaların xüsusi çəkisi 13,4%-dən 26,3%-ə yüksəlmişdir. "Dayanıqlı İnkişaf"a maddi zəmin yaradılması üçün iqtisadiyyata yönəldilmiş investisiyaların strukturunda əsas kapitala yönəldilmiş investisiyaların dinamikası, habelə onun istehsal və qeyri-istehsal təyinatlı nisbətinin dəyişməsi milli iqtisadiyyatın istehsal güclərinin dəyərləndirilməsi baxımından əhəmiyyət kəsb edir. Belə ki, 2000-2017-ci illərdə Azərbaycanda əsas kapitala yönəldilmiş investisiyalar 12 dəfədən çox artmışdır. Bu illərdə neft sektoruna nisbətən qeyri-neft sektoruna investisiya qoyuluşunun üstün artması nəticəsində əsas kapitala yönəldilmiş investisiyaların strukturunda qeyri-neft sektorunun xüsusi çəkisi 48,1%-dən 75%-ə yüksəlmiş, neft sektorunun xüsusi çəkisi isə 51,9%-dən 28,2%-ə düşmüşdür. Bütün bu meyillər ölkəmizdə bazar iqtisadiyyatına keçidin ilkin mərhələsində neft sektoruna qoyulmuş külli-miqdarda investisiyaların əməli səmərə verməsinin mühüm nəticəsi kimi qiymətləndirilə bilər. Hazırkı dövrdə ölkəmizdə daxili mənbələr hesabına investisiya fəallığının artırılmasının ən başlıca maliyyə mənbələrindən biri müvafiq dövlət siyasəti vasitəsilə əhalinin malik olduğu yığımın əsaslı vəsait qoyuluşu prosesinə mümkün qədər maksimum cəlb olunması prosesi ilə bağlıdır.

Dünya təcrübəsi göstərir ki, (xüsusən Yaponiya, Almaniya) əhalinin əmanətlərini banklara cəlb etməklə onu investisiyanın çox böyük maliyyə mənbələrinə çevirmək olar. Azərbaycanın dünya iqtisadiyyatına fəal inteqrasiya olduğu müasir şəraitdə milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin

edilməsi məqsədilə investisiya siyasəti və milli innovasiya sisteminin yaradılması əsasında ölkəmizdə innovasiyalı iqtisadiyyatın inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, müasir dövrdə belə imkanlardan istifadə etməklə ölkədə dayanıqlı inkişafın iqtisadi problemlərini həll etmək və milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyini uzun müddətə təmin etmək mümkündür. Milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyi qiymətləndirilərkən xüsusi sosial göstəricilərdən də geniş istifadə olunması olduqca vacibdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, milli iqtisadiyyatın uzun müddətə iqtisadi təhlükəsizliyinin təmin edilməsi həlledici dərəcədə ölkədə sənaye, elmi-texniki və innovasiya siyasətinin xarakterindən birbaşa asılı olur. Bu prinsipial müddəanın dövlətin iqtisadi siyasətində nəzərə alınmaması perspektivdə ölkəmizin müstəqil və dayanıqlı inkişafını, xüsusən onun iqtisadi təhlükəsizliyini şübhə altına ala bilər. Ona görə də Azərbaycanda milli maraqların reallaşdırılması və dayanıqlı inkişafın təmin edilməsi innovasiya əsasında iqtisadiyyatın yenidən qurulmasını tələb edir. Qeyd etmək lazımdır ki, ölkəmizdə dayanıqlı inkişafın təmin edilməsində iqtisadiyyatın rəqabətqabliyyətlilik səviyyəsinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq miqyasda milli iqtisadiyyatın rəqabətqabliyyətliliyinin qiymətləndirilməsi zamanı 300-dən çox göstərici üzrə 100-dən çox qiymətləndirmə vəsaitlərindən istifadə olunur.

Ölkəmizdə milli iqtisadiyyatın rəqabətqabliyyətliliyini müəyyənləşdirərkən mövcud potensial, iqtisadi artım tempi, sənaye istehsalının səmərəliliyi və səviyyəsi, elmi-texniki nailiyyətlərin istehsala tətbiqi, ölkənin Beynəlxalq Əmək Bölgüsündə iştirak dərəcəsi, daxili bazarın həcmi və dinamikliyi, maliyyə sisteminin elastikliyi və dövlət tənzimlənməsinin iqtisadiyyata müdaxiləsinin səmərəliliyinin dərəcəsi və s. nəzərə alınmalıdır.

Hazırda Azərbaycanda rəqabət real olaraq daha çox ayrı-ayrı firma və şirkətlər arasında yaranır. Lakin hər bir firma və şirkət milli iqtisadiyyatın subyekti olduğuna görə mikroiqtisadi səviyyədə rəqabət qabiliyyətinin artırılması makroiqtisadiyyatın inkişafına müsbət təsir göstərir və ona görə də dövlət bütün səviyyələrdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında bilavasitə maraqlıdır.

Ölkəmizdə aparılan uğurlu islahatlar, iqtisadiyyata cəlb olunan investisiyalar və bu zaman infrastrukturların inkişafına verilən üstünlük onu göstərir ki, biz yaxın gələcəkdə "Yüksək gəlirli ölkələr" sırasına daxil ola bilərik. Bunun üçün isə ölkəmizdə hər bir şərait var: ilk növbədə, son 15 ildə görülmüş işlər, yaranmış potensial və təcrübə, ən başlıcası ölkəmizdə uzunmüddətli siyasi sabitlik, sosial və iqtisadi inkişaf. Bütün bunlar isə qarşıda duran strateji vəzifələri müvəffəqiyyətlə həll etməyə imkan verəcəkdir.

Beləliklə, demək olar ki, hazırda bəşəriyyət təbiətlə qarşılıqlı əlaqənin elə səviyyəsinə çatmışdır ki, hələ regional və qlobal səviyyədə ekoloji dəyişiklikləri saxlamaq mümkündür. Bunun üçün müxtəlif ölkələrin qüvvələrinin birləşdirilməsi, yaranmış vəziyyətin hərtərəfli tədqiqi, dayanıqlı iqtisadi inkişaf strategiyası əsasında vacib olan təcrübi tədbirlərin həyata keçirilməsi lazımdır.

Dayanıqlı inkişaf bir-biri ilə sıx bağlı olan iki mühüm anlayışı özündə ehtiva edir:

1) Tələbat anlayışı (bu isə əhalinin yoxsul təbəqəsinin mövcudluğu üçün olduqca zəruridir);

2) Məhdudlaşdırma anlayışı (bu texnologiyanın vəziyyəti və cəmiyyətin təşkili ilə şərtlənir), eyni zamanda ətraf mühitin indiki və gələcək nəsillərinin tələbatını ödəyə bilmək qabiliyyəti ilə əlaqələndirilir.

Dayanıqlı inkişafın əsas vəzifəsi insanın tələbat və istəklərinin ödənilməsi ilə ifadə olunur. Qeyd etmək lazımdır ki, dayanıqlı inkişaf bütün insanların bərabər səviyyədə ən zəruri tələbatlarının ödənilməsini tələb edir.

Bazar iqtisadiyyatının inkişaf etdiyi müasir dövrdə, hökumət tərəfindən sosial-iqtisadi infrastrukturların inkişafına göstərilən diqqət və qayğı ölkəmizdə bazar konyukturasına cavab verəcək, dayanıqlı inkişaf edən iqtisadi subyektlərin formalaşması üçün əlverişli şərait yaratmışdır. Belə bir şəraitdə milli iqtisadiyyatın müxtəlif sahələrində sürətli inkişaf dinamik xarakter almış, nəticədə ölkədə dayanıqlı inkişaf prosesləri başlamışdır.

**Nəticə**

Dayanıqlı iqtisadi inkişafın nəzəri əsaslarının tədqiqinin yekunu olaraq aşağıdakı nəticələrə gəlmək olar:

1. Dayanıqlı iqtisadi inkişaf Dayanıqlı (ekoloji, sosial və iqtisadi) inkişafın ayrılmaz tərkib hissəsidir.
2. Dayanıqlı iqtisadi inkişaf mahiyyətcə gələcək nəsillərin istifadəsini məhdudlaşdırmadan, mövcud resurslardan səmərəli istifadə edərək cəmiyyət üzvlərinin zəruri tələbatlarının ədalətli və bərabər səviyyədə ödənilməsini ehtiva edən, milli iqtisadiyyatın bütün sahələrinin dayanıqlı inkişafının təmin olunmasıdır.
3. Azərbaycanda milli iqtisadiyyatın dayanıqlı və dinamik inkişafa keçidini təmin etmək üçün kompleks (iqtisadi, təşkilati, siyasi) şərait formalaşdırılmış, kifayət qədər iqtisadi və hüquqi baza yaradılmışdır.
4. Azərbaycanda həyata keçirilən infrastruktur siyasəti iqtisadiyyatın dayanıqlı inkişafının təmin olunmasında mühüm rol oynayacaqdır.

**Həsən Məmmədov**
**Dayanıqlı iqtisadi inkişafın nəzəri əsasları**
**Xülasə**

Məqalədə Dayanıqlı iqtisadi inkişafın nəzəri məsələləri tədqiq olunmuşdur. “Dayanıqlı inkişaf” və “Dayanıqlı iqtisadi inkişaf” kateqoriyaları, onların mahiyyəti və məzmun elementləri izah olunur. Göstərilir ki, əvvəllər iqtisadi nəzəriyyədə iqtisadi inkişafın ekoloji məhdudlaşdırma məsələlərinə diqqət yetirilməmişdir. XX əsrin 70-ci illərindən başlayaraq ekoloji problemlər kəskin surətdə gərginləşdiyindən ona diqqət artmağa başlanmışdır.

Qeyd olunur ki, mahiyyətcə dayanıqlı inkişaf konsepsiyası mövcud problemlərə keyfiyyətcə yeni yanaşmadır. Bəziləri problemin siyasi həllini, digərləri isə iqtisadi həllini səmərəli hesab etsələr də, əslində dayanıqlı inkişaf konsepsiyası üç əsas baxışın birləşməsi nəticəsində yaranmışdır. Bunlar iqtisadi, sosial və ekoloji baxışlardır.

Göstərilir ki, dünyanın əksər ölkələrinin dayanıqlı inkişaf proqramları olsa da, bu sahədə işlər “Dayanıqlı İnkişaf Məqsədləri” istiqamətində davam etdirilməkdədir.

Ölkəmizdə “Dayanıqlı İqtisadi İnkişaf”ın prinsipləri və mövcud problemləri tədqiq olunur və dayanıqlı iqtisadi inkişafın təmin olunması ilə bağlı dövlətin tənzimləmə siyasətinin istiqamətləri üzrə təkliflər verilmişdir.

**Гасан Мамедов**
**Теоретические основы устойчивого экономического развития**
**Резюме**

В статье рассматриваются теоретические основы устойчивого экономического развития. Объясняется суть и содержательные элементы категорий «Устойчивое развитие» и «Устойчивое экономическое развитие». Обосновывается мысль, что раньше в экономической теории не уделялось внимания вопросам экологического ограничения экономического развития. Только начиная с 70-х годов XX века, когда резко обострялись экологические проблемы, им стали уделять внимание.

Отмечается, что по существу концепция устойчивого развития является новым подходом к существующим проблемам. Хотя одни считают эффективным политическое решение данной проблемы, а другие экономическое решение, на самом деле концепция развития создана в результате соединения трех основных подходов – экономического, социального и экологического.

Отмечается, что хотя большинство стран мира имеют программу устойчивого развития, работа в этой сфере продолжается в направлении Целей Устойчивого Развития.

В нашей стране исследуются принципы и существующие проблемы «Устойчивого

Экономического Развития» и определяются направления регулирующей политики государства, связанные с обеспечением устойчивого экономического развития.

**Hasan Mammadov**

**The theoretical basis of sustainable economic development**

**Summary**

The article focuses on the theoretical issues of the sustainable economic development. “Sustainable Development” and “Sustainable Economic Development” categories, their essence and content are explained. It is shown that, in the previous economic theory there was no paid attention to the issues of ecological limitation of economic development. Since the 70s of the XX century, environmental problems have sharply been intensified and attention has grown.

It is noted that, essentially the concept of sustainable development is a qualitatively new approach to the existing problems. While some have considered the problem to be a political solution, while others have considered the economic solution to be effective, in fact, the concept of sustainable development has emerged as a result of the combination of three main points. These are economic, social and environmental considerations.

It is noted that, although many countries in the world have sustainable development programs, the work in this area is being continued in the direction of “Sustainable Development Goals”.

In our country, the principles and existing problems of “Sustainable Economic Development” are being studied and regulatory policy directions of the state for sustainable economic development are identified.

**Ədəbiyyat**

1. İ.H.Alıyev, S.Y.Hüseynov, A.M.Əsədov. Milli iqtisadiyyat: Modernləşmə və davamlı inkişaf. Bakı: Avropa nəşriyyatı-2012
2. H.Ə.Məmmədov. Dayanıqlı inkişaf konsepsiyası və onun səciyyəvi cəhətləri // NDU, Elmi əsərlər. İctimai elmlər seriyası. Naxçıvan: Qeyrət nəşriyyatı-2014, № 9(65), səh.131-136
3. F.F.Mustafayev. “Transformasiya şəraitində makroiqtisadi proseslərin dövlət tənzimlənməsi problemləri”. İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı-2010.
4. R.Səfərov. Dayanıqlı inkişafın mahiyyəti və ona dair qlobal təşəbbüslərin qısa təhlili. Bakı, “Statistika xəbərləri”. Elmi-praktiki jurnal. № 3/2016, il 2, cild 3, iyul-sentyabr, səh.22-30.
5. Аткиссон А. Как устойчивое развитие может изменить мир. М.: Бином-2012
6. A.Ş.Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Monoqrafiya. Bakı: İqtisad Universiteti-2011
7. http://unazerbaijan.org/az/buklet-dayaniqli-inkisaf-m
8. Azərbaycan-2030:Minilliyin İnkişaf Məqsədlərindən Dayanıqlı inkişaf Məqsədlərinə doğru. Könüllü Milli Hesabat 2017. Bakı - 2017.

Məqalə redaksiyaya daxil olmuşdur: 10.04.2019
Təkrar işlənməyə göndərilmişdir: 17.04.2019
Çap üçün qəbul olunmuşdur: 16.05.2019

UOT: 338

DOI: 10.33870/1012-1211-2019-3-2498

# СОЦИАЛЬНОЕ ПРЕДПРИНИМАТЕЛЬСТВО–МИРОВАЯ ПРАКТИКА И ПУТИ РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ

***Юсиф Байрамов***
*Главный консультант Отдела статистики промышленности и строительства*
*Государственного Комитета по Статистике Азербайджанской Республики*
*AZ 1136, город Баку, проспект Строителей 81*
*e-почта: yusifb@azstat.org*

**Açar sözlər:** sosial sahibkarlıq, sahibkarlıq, biznes, sosial biznes, reytinq.
**Ключевые слова:** социальное предпринимательство, предпринимательство, бизнес, социальный бизнес, рейтинг.
**Keywords:** social entrepreneurship, entrepreneurship, business, social business, rating.

С каждым годом растет внимание к социальному предпринимательству. Данная сфера не только создает новые объекты экономической инфраструктуры, но и вовлекает в бизнес слабозащищенные слои за счет расширения границ платежеспособного спроса. Но, к сожалению развитие социального предпринимательства тормозится из-за отсутствия законодательных норм и недостатка информации о деятельности в данной сфере.

**Определение социального предпринимательства**

На сегодняшний день общепризнанного определения социального предпринимательства нет.

В общем виде - это предпринимательство, направленное на решение социальных проблем: трудоустройство граждан с ограниченными возможностями и незащищенных групп населения, возрождение культурных традиций, образование и просвещение, развитие института семьи, охрана окружающей среды и вторичная переработка отходов и т.д. Таким образом, если обычные предприниматели оценивают свою деятельность ориентируясь на чистую прибыль, то для социального предпринимателя успешность его деятельности это пройденные шаги в решении социальных проблем. Для социального предпринимателя сама прибыль является второстепенной целью и воспринимается как средство продвижения к достижению социальных целей организации.

Принципы социального предпринимательства были всегда, но как феномен в экономике-очень молодое. Первое упоминание термина «социальное предпринимательство» (англ. social entrepreneurship) и «социальный предприниматель» (англ. social entrepreneur) встречаются в англоязычных трудах в 1960-х годах XX века в США и уже в 1980-х стали широко употребительными во всем мире благодаря популяризации со стороны американского предпринимателя и менеджера Билла Дрейтона. Уже сегодня социальное предпринимательство занимает место в одном ряду с некоммерческими инициативами, венчурной филантропией, благотворительностью и корпоративной социальной ответственностью.

В 1980 году Дрейтон основал фонд «Ашока: новаторы для общества» [1] (Ashoka: Innovators for the Public), ставший первой организацией, целенаправленно занимающейся выявлением и поддержкой социальных предпринимателей по всему миру. К 2016 году количество членов-стипендиатов фонда достигло 3 000, среди них представители 89 стран. Фонд Ашока не пользуется государственным финансированием, все средства, по информации самого фонда, организация получает от западных благотворительных фондов и крупных частных жертвователей. В 1987 году опыт Дрейтона был впервые промасштабирован: по

модели фонда Ашока инвестор Эд Коуэн основал другой крупный фонд — Echoing Green.

В 1998 году швейцарский экономист, основатель и бессменный президент Всемирного экономического форума в Давосе Клаус Шваб и его супруга Хильда учредили «Фонд социального предпринимательства Шваба» для поддержки «мирового сообщества выдающихся социальных предпринимателей». Возглавляет «Фонд Шваба» бывший высокопоставленный чиновник ВОЗ Памела Хартиган. На 2007 год фонд обеспечил поддержу 72 социальным предпринимателям со всего мира. К 2016 году, по сведениям самого фонда, их число превысило 260. Ежегодно Фонд выбирает 20-25 социальных предпринимателей в рамках глобального конкурса «Социальный предприниматель года». Фонд проводит региональные экономические конференции, а также Всемирный экономический форум в Давосе, куда получают приглашения и социальные предприниматели.

Мировой опыт показывает, что подходы в сфере предпринимательства с течением времени меняются. Кроме того, все больше инвесторов инвестируют в социально ответственные компании. Для этого существуют целые системы инвестиционной инфраструктуры. Есть индексы, есть агентства, рейтинги на биржах, которые проводят отбор проектов и компаний которые хотят вкладывать в такие компании.

Социальное предпринимательство сочетает в себе социальную направленность деятельности и предпринимательский подход, то есть находится как бы на стыке предпринимательства и благотворительности, что делает социальное предпринимательство бизнес-решением социальной проблемы.

Социальная проблема, которую пытается своей деятельностью решить социальный предприниматель, это отправная точка его бизнеса. Нет проблемы - нет социального предпринимателя (а есть просто бизнес или социальный проект без предпринимательского подхода). Социальное предпринимательство - это баланс социальных целей и коммерческой составляющей, где деньги - не цель, но средство достижения этих социальных целей, позволяющие предпринимателю оставаться устойчивым и не зависимым от постоянных донорских вливаний.

Сегодня существуют образовательные программы, предлагающие программы в области социального предпринимательства. Например, Стенфордский Университет предлагает программы для социальных предпринимателей: Центр Социальных Инноваций (Center for Social Innovation) [2], HAAS Center for Public Service [3], Стенфордский центр филантропии и гражданского общества (Stanford Center on Philanthropy and Civil Society) [4].

**«Рейтинг лучших стран для деятельности социальных предпринимателей 2016»**

С каждым годом по всему миру растет число социально ориентированных организаций. Однако, существует крайне мало информации, по которой можно судить, какие страны действительно стимулируют социальное предпринимательство, а каким странам есть еще куда расти. Чтобы заполнить этот пробел Фонд агентства «Томсон Рейтер» в кооперации с Deutsche Bank, UnLtd и the Global Social Entrepreneurship Network с 9 июня по 15 июля 2016 года провели первую мировую экспертную оценку по вопросу степени комфортности стран для деятельности социальных предприятий (рисунок 1).

Фонд провел исследование в 44 странах с крупнейшими экономиками по рейтингу Всемирного Банка с целью узнать, какая страна создает наилучшие условия для социальных предпринимателей. В каждой из 44 стран, фонд сотрудничал примерно с 20 экспертами, связанные с социальным предпринимательством, включая ученых, предпринимателей, инвесторов, политических деятелей и вспомогательный персонал. Подобный размер выборки считается достаточным для того, чтобы обеспечить статистически достоверные данные с низким пределом погрешности.




Рисунок 1. Рейтинг стран для деятельности социальных предпринимателей, проведенный в 2016 году Фондом агентства «Томсон Рейтер» в кооперации с Deutsche Bank, UnLtd и the Global Social Entrepreneurship Network.

Согласно опросу, США названы лучшей страной для деятельности социальных предпринимателей. Канада и Великобритания заняли второе и третье, Сингапур и Израиль заняли четвертое и пятое место соответственно в рейтинге.

Венесуэла, Ирландия и Турция были признаны странами с наихудшей средой для ведения социального бизнеса, показав плохие результаты. 85% экспертов заявили о постоянном росте количества предприятий, успешно соединяющих решение социальных вопросов и получение прибыли, а также о сложности получении чётких статистических данных [5].

**Соединенные Штаты Америки (США)**

В США понятия «социальный предприниматель» и «социальное предприятие» стали обретать популярность примерно в 90-е годы XX века, в частности, в Гарвардской школе бизнеса в 1993 г. уже была создана структура «Social Enterprise Initiative» для исследования опыта социальных предприятий, а также обучения и консультирования социальных предпринимателей, желающих улучшить условия жизни своих сообществ. В настоящее время помощь социальным предпринимателям за рубежом со стороны государства – это константа. Это прямые инвестиции через различные фонды или правительственные программы, они есть во всех западных странах, однако есть и специфика. Сейчас в США социальное предпринимательство представляет собой доходный бизнес, направленный на оказание социальной помощи нуждающимся членам общества. В США действует программа «Деньги для успешных проектов». Правительство более активно финансирует проекты тех предпринимателей, деятельность которых самоокупаема и не требует дотаций [6].

Таким образом, социальное предпринимательство является ведущим трендом в американской экономике. В 2011 г. в США социальное предпринимательство было впервые названо четвёртым сектором экономики [7].

В США действуют две системы признания компаний социальными предприятиями:

1. Получение специального сертификата от некоммерческой организации «B Lab» [8], которая осуществляет признание факта ведения компанией социально-полезной деятельности и присваивает ей статус «B Corporation»;
2. Регистрация предприятия как низкодоходной компании (low-profit limited liability company – L3C) или как социальной корпорации (benefit corporation - BC), данная система появилась в некоторых штатах США в 2004-2014 гг.

L3C является гибридной формой предприятия частного сектора экономики, сочетающей в себе две основные цели – решение социальной проблемы и извлечение прибыли [9].

BC – коммерческая организация, целями которой являются получение прибыли и решение социально значимой задачи [10].

В реестре налогового ведомства США в 2016 г. таких предприятий насчитывалось уже более 140 тыс. Налоговых льгот этот статус не даёт, но позволяет получить возможность финансирования частными фондами, грантами из бюджета и заключения госконтрактов. В США, таким образом, финансированием и поддержкой социальных предприятий занимаются, в основном, негосударственные организации: социальное предпринимательство существует на гранты фондов и частные пожертвования [9].

На Европейском континенте социальное предпринимательство предоставляет собой динамично развивающийся сектор, посредством чего эффективно решаются общественные проблемы.

Учитывая все это разнообразие, измерить масштабы социально-предпринимательской активности в Европе — задача сложная, поэтому в обзоре содержится сравнительно мало солидных статистических данных. С уверенностью можно сказать лишь то, что количество социальных предприятий неуклонно увеличивается, хотя в процентном отношении они пока занимают несущественную долю национальных экономик [11].

Страны, в которых есть закрепленные законом статус или формы социальных предприятий (рисунок 2)

**Желтый цвет** — адаптированные кооперативы;
**Красный цвет** — адаптированные частные компании;
**Зеленый цвет** — юридический статус социальных предприятий;
**Синий цвет**— юридический статус социальных предприятий (в процессе разработки).




Рисунок 2. Страны, в которых есть закрепленные законом статус или формы социальных предприятий.

**Итальянская Республика**

В настоящее время в Италии активно действуют «социальные кооперативы». Если фирма ставит перед собой социальные задачи, а в её составе работает более 30% граждан из незащищённых слоёв населения, фирму признают социальным кооперативом и предоставляют налоговые льготы. В 2005 году в Италии насчитывалось более 7300 социальных кооперативов с 244000 занятых работников, а в 2011г. - более 12500 кооперативов примерно с 500000 работников. В 2011 году общий доход всех социальных кооперативов составлял около 10 млрд. евро. 16 % социальных кооперативов в год зарабатывали более 1 млн. евро, а 72,4 % - менее 500 тыс. В 2012 году в Италии насчитывалось более 17 тысяч таких предприятий [6].

После принятия в Италии закона о социальных кооперативах, её примеру последовали и в других странах Европы, где начали разрабатывать похожие законопроекты. Во-многом этому способствовали общеевропейский диалог и проведение совместных форумов. Так, закон Италии акцентировал внимание на потребности вовлечения заинтересованных сторон, прежде всего, социально уязвимых групп работников и клиентов, британский закон особое внимание уделил рыночным условиям работы социальных организаций – около 50% их дохода должно было быть получено на основе продажи товаров и услуг [12].

**Соединенное Королевство Великобритании и Северной Ирландии**

31 января 2013 году в Великобритании вступил в силу закон о социальном предпринимательстве который предоставляет более широкий спектр в сфере оказания государственных услуг.

Закон о государственных услугах (Закон о социальных благах (ценностях, стоимости)) [13] требует от местных органов власти и других уполномоченных государственных организаций для получения социального статуса предприятий, определения получения пользы общества, в качестве одного из ключевых критериев.

Согласно новому законодательству, именно социальные последствия и улучшение качества оказания государственных услуг для местных сообществ в первую очередь должны влиять на процесс организации и осуществления государственных закупок на местном уровне. Многие представители местных властей все чаще обнаруживают, что именно ориентация на социальную составляющую наряду с другими факторами, наилучшим образом влияет на эффективность государственных услуг в долгосрочной перспективе.

Закон требует от уполномоченных органов местной власти пользоваться услугами консультантов, экспертов, а также использовать прямые опросы граждан для лучшего понимания ожиданий людей от услуг конкретных государственных служб. Также, это привело к улучшению качества государственных услуг для местных сообществ.

Закон является одним из элементов целенаправленной политики правительства Великобритании по облегчению доступа к государственным контрактам для социальных предприятий. В ближайших планах правительства Великобритании также – создание Академии уполномоченных организаций, предоставляющих государственные услуги, для улучшения качества этих услуг – т.е. аутсорсинг гос. услуг [13].

Социальное предпринимательство для стран Скандинавии и Балтии относительно новый феномен, но несмотря на это с каждым годом растет число социальных организаций, которые занимаются разными социальными проблемами, предлагая устойчивые пути решения проблем в этом направлении.

**Латвийская Республика**

В Латвии закон о социальных предприятиях был принят 12 октября 2017 года и вступил в силу в апреле 2018 года. Этот закон гласит, что социальное предприятие — это компания с ограниченной ответственностью, имеющая специальный статус социального предприятия. Для получения этого статуса компания должна соответствовать определенным критериям, к примеру, основной целью деятельности предприятия должна быть позитивная социальная цель, а также должны иметься ограничения на распределение прибыли владельцам компаний. Прибыль должна либо реинвестироваться в деятельность компании, либо инвестироваться в достижение социальной цели [14].

До вступления закона в силу физические и юридические лица, осуществляли свою деятельность в социальном направлении на основе других правовых и организационных форм, таких как общественные организации (НПО), фонды, ассоциации, общества с ограниченной ответственностью (ООО) для достижений своих целей.

На данный момент есть правовой акт, регулирующий деятельность компаний с ограниченной ответственностью, находящихся в собственности ассоциаций людей с различными формами инвалидности: эти организации не платят какой-либо подоходный налог.

К сожалению, не проводились никакие исследования и нет никаких статистических данных, в которых были бы определены характеристики данной сферы.

Расчеты осложняются большим разнообразием правовых форм, которые могут принимать «социальные предприятия». Однако, по оценкам, в Латвии работает около 120-180 социальных предприятий. В ходе составления одного из докладов [15] в 2014 году было опрошено 1296 коммерческих организаций, и из их числа лишь 3% были отнесены к категории социальных предприятий — всего примерно 39 предприятий. Членами Латвийской ассоциации социального предпринимательства являются или вскоре станут 46 социальных предприятий.

Эти организации заняты в различных секторах: охрана окружающей среды, производство товаров, консалтинг, социальные услуги, благотворительные магазины, образование, информация, коммуникации, трудовая интеграция, медицинское обслуживание и т.д.

Помимо этого, социальные предприятия работают с различными социальными группами: одинокие матери, люди с ограниченной мобильностью или нарушениями зрения, пожилые люди, дети и молодежь, бывшие заключенные и члены их семей и т.д.

К сожалению, статистических данных о годовом обороте социальных организаций не имеется, но согласно исследованиям, которые проводились посредством «BIG DATA», годовой

оборот некоторых предприятий варьируется от нескольких тысяч до нескольких миллионов евро, в зависимости от размера организации.

Следует подчеркнуть, что большинство социальных предприятий — это относительно новые предприятия, которые были созданы от 3 до 7 лет назад, и на которых обычно работает не более пяти человек.

**Королевство Швеция**

Как указано в докладе «Карта социальных предприятий и их экосистем в Европе. Страновой доклад: Швеция» [16], в Швеции нет отдельной правовой формы организации деятельности «социального предприятия». Вместо этого социальные предприниматели создают кооперативы (хозяйственные ассоциации), некоммерческие ассоциации, акционерные компании, акционерные компании с ограничениями на распределение доходов, а также фонды. Наиболее часто социальные предприятия используют в этих целях кооперативы, некоммерческие ассоциации и акционерные компании, прописывая социальную цель в уставе.

Деятельность социального предпринимательства в социальной жизни в Швеции отслеживается на протяжении очень длительного времени. Однако терминология «социальное предпринимательство» и «социальная экономика» являются новыми и очень часто используется вместе с устоявшимися терминами как «некоммерческие организации», «кооперативы» и «организации гражданского общества».

Термин «социальное предприятие», как правило, связан с работой социальных предприятий трудовой интеграции (предприятий категории WISE от английского термина «work intergration social enterprise») или организаций, основанных на идеях. Это часть национальной политики в отношении организаций категории WISE и отсутствия общепризнанного определения социальных предприятий. Таким образом социальные организации трудовой интеграции (WISE) признаются на государственном уровне. Этот статут получают организации, целью деятельности которых является интеграция граждан в жизнь общества и помощь в выходе на рынок труда. Социальные предприятия трудовой интеграции независимы от государственных органов и обязаны реинвестировать денежные средства в сферу деятельности для достижения своих целей. Помимо этого, деятельность социальных предприятий трудовой интеграции регулируется законами, что и деятельность любого другого предприятия соответствующей правовой формы. Получить статус «социальное предприятие трудовой интеграции» является не возможным, однако муниципалитеты часто настаивают, чтобы этот статус у предприятий был для того, чтобы они имели право продавать муниципалитетам товары или услуги. Социальные организации, деятельность которых направлена на достижение других социальных целей, не получают особого поощрения со стороны государства.

В Швеции существует более 300 социальных предприятий трудовой интеграции, большинство из которых организованы в качестве трудовых социальных кооперативов с использованием правовой формы экономической ассоциации [16]. С 2007 года по 2015 год трудовая интеграция в социальном предпринимательстве выросло более чем вдвое. В социальных предприятиях трудовой интеграции трудоустроено около 2600 человек, и еще 6500 вовлекаются в работу, так как получают возможность проходить практику, устроиться на субсидируемое рабочее место, пройти стажировку и так далее.

В Швеции помимо социальных предприятий трудовой интеграции, информации о других видах социальных предприятий почти не имеется.

Согласно результатам исследований и данным доклада «Карта социальных предприятий и их экосистем в Европе. Страновой доклад: Швеция», почти все социальные организации тесно сотрудничают и финансируются государством. В течении трех последних лет корпоративный сектор проявляет повышенный интерес к социальным проектам и социальному предпринимательству в целом, так как обычный бизнес можно использовать во благо общества. В связи с этим, все часто организуются конференции и конкурсы, что способствует развитию социального предпринимательства в стране.

## Заключение

**Азербайджанская Республика**

Такого понятия, как «социальное предпринимательство» в Азербайджане пока что нет, но социальные проекты всегда были приоритетными и находились под контролем главы государства.

2016 год стал особенным годом в этом направлении. В качестве продолжения реформ, проводимых в данной области главой государства 23 сентября того же года при «ASAN xidmət» был создан проект «ABAD» [17]. Основной целью проекта является поддержка домохозяйств и развитие малого и среднего бизнеса, улучшение качества производимых ими товаров и услуг. Кроме того, «ABAD» помогает им разобраться во всех юридических вопросах и тонкостях ведения собственного бизнеса, например помогает мастерам, субъектам малого и среднего бизнеса, фермерам не только в реализации своей продукции, но и в доведении ее качества до мировых стандартов. Таким образом в центрах «ABAD» помогают рассчитывать себестоимость продукции, составить бизнес-план, просчитывают конъюнктуру рынка и т.д.

Этот проект был социально ориентированным и сыграл ощутимую положительную роль в экономике страны. Дальнейшее развитие в этом направлении даст огромный толчок по решению социальных вопросов в стране.

Учитывая опыт зарубежных стран в вопросе социального предпринимательства, можно выделить наиболее пять интересных сегментов, подходящих Азербайджану:

1. Особая организационно-правовая форма «социальное предпринимательство».

Наличие данной организационно-правовой формы в регистре позволит отслеживать их численность таких предприятий, занятость в данной сфере и т.д. Для развития концепции социального предпринимательства потребуется изучение опыта таких стран как США, Италия и Латвия.

2. Сертифицирование деятельности «социального предпринимателя» или «социальной организации» для получения финансирования за счет частных пожертвований, грантов, фондов. Примером может послужить сертификат «B Lab» в США.

3. Финансирование.

Финансирование является одним из важных элементов любого бизнеса, но учитывая социальность бизнеса нужны программы низкопроцентного кредитования социальных предпринимателей банками Азербайджана.

4. Развитие инфраструктуры.

Под инфраструктурой понимаются ресурсные и исследовательские центры, система обмена информацией и опытом, инкубаторы и многое другое.

5. Популяризация темы социального предпринимательства в интернете.

Интернет и социальные сети сегодня являются неотъемлемой частью нашей жизни и поэтому социальные сети могут быть платформой сотрудничества многих социальных предпринимателей. Сегодня интернет позволяет доносить свои идеи до широкой аудитории, тем самым привлекая инвесторов и начать бизнес практически без стартового капитала.

Влияние социального предпринимательства в мировой экономике растет, сегодня изучение концепции и развития социального предпринимательства в Азербайджане должно стать приоритетом, что в конечном итоге существенно повлияет на рейтинг страны во всех мировых бизнес рейтингах и, самое главное, будет ощутимым толчком в развитии в Азербайджане предпринимательства в целом.

**Yusif Bayramov**

**Sosial sahibkarlıq – dünya praktikası və Azərbaycanda inkişaf yolları**

**Xülasə**

Məqalədə “sosial sahibkarlıq” anlayışının tarixi və bu anlayışın dəqiqləşdirilməsində istifadə olunan müxtəlif yanaşmaların şərhi verilmişdir. Bundan başqa, “sosial sahibkarlıq” anlayışının qeyri-müəyyənliyi səbəbindən ümumilikdə, sahibkarlıq cəmiyyətində bu terminin və onunla bağlı olan

"sosial müəssisə" və "sosial sahibkar" kimi anlayışların formalaşmasına, həmçinin bu konsepsiyanın Azərbaycan cəmiyyətində formalaşması üçün şəraitin yaradılmasına diqqət yetirilməsinin zəruriliyi qeyd olunur. Məqalədə bu sahədə əldə olunmuş praktiki təcrübələrin, vərdişlərin, nailiyyətlərin nümunələri və dövlətlərin reytinqləri verilmiş, həmçinin sosial sahibkarlığın Azərbaycanda inkişaf etdirilməsi üsulları nəzərdən keçirilmişdir.

**Юсиф Байрамов**

**Социальное предпринимательство - мировая практика и пути развития в Азербайджане**

**Резюме**

В статье описывается история «социального предпринимательства» и приводится обзор практики разных стран. Кроме того, в силу неоднозначности понятия «социального предпринимательства», отмечается необходимость уделения должного внимания формированию этого термина и связанных с ним таких понятий как «социальное предприятие» и «социальный предприниматель» в предпринимательском обществе, а также создания условий для формирования этой концепции и в Азербайджанском обществе тоже. В статье приведены практические примеры опытов, навыков, достижений и рейтингов государств в этой сфере, а также предложены пути развития социального предпринимательства в Азербайджанской Республике.

**Yusif Bayramov**

**The social entrepreneurship - world practice and trends of development in Azerbaijan**

**Summary**

The article describes the history and the various approaches of clarifying the concept of "social entrepreneurship". Moreover, due to the ambiguity of the concept of "social entrepreneurship", there is noted the necessity to pay a special attention to the formation of this term and the related concepts of "social enterprise" and "social entrepreneur" in the society, as a whole, at the same time to create conditions for the formation of this concept in Azerbaijan also. In article are given case studies, skills, achievements and ratings of the governments involved in this field; also analyzed the trends of development of social entrepreneurship in the Republic of Azerbaijan.

**Литература**

1. Фонд «Ашока: новаторы для общества» (Ashoka: Innovators for the Public) – https://www.ashoka.org/
2. Центр Социальных Инноваций (Center for Social Innovation) – https://www.gsb.stanford.edu/faculty-research/centers-initiatives/csi/
3. HAAS Center for Public Service – https://haas.stanford.edu/
4. Стенфордский центр филантропии и гражданского общества (Stanford Center on Philanthropy and Civil Society) – https://pacscenter.stanford.edu/
5. «Рейтинг лучших стран для деятельности социальных предпринимателей. 2016» – http://poll2016.trust.org/
6. Гришина Я. С. Сравнительно-правовое исследование социального предпринимательства в странах Америки и Европы – Вестник Пермского университета. Юридические науки. – 2012 - №2
7. Егорова Е. Н. Современные тенденции государственного и корпоративного управления. – М.: 2008.
8. Сертификат от некоммерческой организации «B Lab» – https://www.bcorporation.net/
9. Приложение к газете «Коммерсант деньги», 2016 – https://www.kommersant.ru/doc/2927483

10. Вайнер В. Опыт развития социального предпринимательства в США. – М.: Центр рекламных исследований Grand Prix, 2014. – 57 с.
11. Европейская комиссия – https://www.ec.europa.eu
12. Social Enterprise, Social Innovation and Social Entrepreneurship in Italy: A National Report // сайт «EFESEIIS» – http://www.fp7-efeseiis.eu/national-report-italy/
13. Великобритания; Закон о социальных благах (ценностях, стоимости) – http://www.legislation.gov.uk/ukpga/2012/3/enacted
14. Латвия; Закон о социальных предприятиях – http://www.ej.uz/SElaw_Latvia
15. Латвия; Министерство социального обеспечения (2014), Koncepcija «Par sociālās uzņēmējdarbības ieviešanas iespējām Latvijā» (TA-1807) – http://www.LM.gov.lv/upload/aktualitates/NULL/lmkonc_271014_su_1_1807.pdf
16. Европейская Комиссия. (2015). Карта социальных предприятий и их экосистем в Европе. Доклад по стране: Швеция
17. http://EC.Europa.eu/Social/keyDocuments.jsp?advSearchKey=socentcntryrepts&Mode=advancedSubmit&langI&langId=EN (http://sofisam.SE/VAD-AR-Sociala-foretag/skapar-arbete.HTML)
18. ABAD – http://abad.gov.az/about

Məqalə redaksiyaya daxil olmuşdur: 02.05.2019
Təkrar işlənməyə göndərilmişdir: 14.05.2019
Çap üçün qəbul olunmuşdur: 31.05.2019

"Statistika xəbərləri, № 3/2019"
İl 5, Cild 3, İyul-sentyabr, səh. 84-91

UOT 338.512; 638.153
DOI: 10.33870/1012-1211-2019-3-2499

# DÜNYA İQTİSADİYYATININ QLOBALLAŞMASI ŞƏRAİTİNDƏ SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN MARKETİNQ STRATEGİYALARI

***Rəşad Məmmədov***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Marketinq ixtisası üzrə magistrantı*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: mammadov.rashad93@gmail.com*

**Açar sözlər:** firma, sahibkarlıq fəaliyyəti, marketinq, strategiya, qloballaşma, iqtisadiyyat, inkişaf, ətraf mühit.
**Ключевые слова:** фирма, предпринимательская деятельность, маркетинг, стратегия, глобализация, экономика, развитие, окружающая среда.
**Keywords:** firm, entrepreneurship activity, marketing, strategy, globalization, economy, development, environment.

Yaşadığımız iqtisadi şəraitdə rəqabətin daima dəyişdiyi və ağırlaşdığı mühitdə sahibkarlıq fəaliyyətinin səmərəli təşkil edilməsi müasir marketinq strategiyalarının istifadəsi problemini qarşıya qoyur. Bununla əlaqədar sahibkarlığa cəlb olunan insanlar- marketoloqlar və menecerlər ən azı həmin marketinq strategiyaları, onların üstün və mənfi cəhətləri haqqında məlumatlı olmalı, eləcə də tətbiqi qaydalarını mükəmməl bilməlidirlər.

Əlavə olaraq, marketinq strategiyalarının səmərəli planlaşdırılması və istifadə edilməsi üçün hər bir şirkət öz rəqibləri və rəqabət mühitlərinə dair geniş məlumat toplamalı və bizneslə bağlı hər bir qaranlıq qalan məqama aydınlıq gətirməyə çalışmalıdırlar. Beləliklə, müasir iqtisadi şəraitdə, sahibkarlıq fəaliyyətinin rəqabətqabliyyətliyini təmin etmək üçün öncə marketinq prinsiplərinə uyğun firmaların (biznes subyektlərinin) maliyyə - iqtisadi göstəricilərindən tutmuş, cəmi məhsul - əmtəə istehsalı, rəqiblər, rəqabət, bazar, qiymətlər, satış kanallarını və məhsulların irəlilədilməsi problemləri və s. ətraflı təhlil edilməlidir. Burada söhbət klassik iqtisadi araşdırmalarla yanaşı, müasir marketinqdə geniş istifadə edilən müxtəlif metodika, metod və üsullardan gedir. Hazırda əsasən onların birindən – SWOT[1]- təhlil (analiz) adlandırılan metodundan istifadə edilməsi müşahidə edilir. Beləliklə, sahibkarlıqda marketinq strategiyaların müəyyənləşdirilməsinin ilk mərhələsi olan SWOT təhlil zamanı firmanın imkanları, zəif və güclü cəhətləri, onlara qarşı yönəldiləcək həmlələr və qarşılarına çıxacaq təhlükələr təhlil edilir (şəkil 1).




Şəkil 1. SWOT - təhlilin əsas komponentləri (istiqamətlər üzrə əhatə dairəsi) [3, səh.156]

[1] SWOT- ingilis dilindən götürülmüş dörd söz birləşməsinin baş hərflərini Strengths, Weakness, Opportunities və Threats özündə cəmləşdirir, dilimizə tərcümə etdikdə bu sözlər Güclü, Zəif tərəflər, İmkanlar və Təhlükələr mənasını verir.

Qeyd edildiyi kimi, SWOT təhlil vasitəsilə firmanın bazarda qarşılaşacağı çətinliklər və onun inkişafı üçün yaranacaq imkanlar, həmçinin onun zəif və güclü tərəfləri aşkar edilir. Təhlükə və imkanlar makromühit və müəssisədən kənar makromühit amilləri ilə, zəif və güclü tərəflər isə müəssisədaxili amillərlə əlaqədardır. Bu təhlilin məqsədi firmanın güclü tərəflərindən rəqiblərin zəif cəhətlərinə qarşı istifadə edilməsi, rəqabət mübarizəsində öz imkanlarından istifadə və təhlükələrdən müdafiə olunması üzrə tədbirlər hazırlamaqdır.

Təhlükə və imkanların təhlilində ən vacib və mürəkkəb iş onların detallaşdırılmış mənbələri və istiqamətlərinin düzgün təyin edilməsi və qiymətləndirilməsidir. Bu onunla əlaqədardır ki, son illərdə istehsalçı və istehlakçı davranışlarını tədqiq edən marketinq menecmenti psixologiyası sahəsində aparılan tədqiqatlar firma rəhbərləri tərəfindən bir çox hadisə və proseslərin düzgün dəyərləndirə bilmədiklərini üzə çıxarmışdır. Həqiqətən də əksər son qərarlara imza atan sahibkarlar və ya onların nümayəndələri informasiyadan istifadə olunması və qərarların qəbul edilməsi prosesində məlumatların əhəmiyyətini həddən artıq şişirdir, digər halda isə onların əhəmiyyətini ümumiyyətlə qiymətləndirmir, bəzi problemlərə isə ya təhlükə yaradan, ya da yeni imkanlar açan problem kimi baxır.

Stateji marketinqin tələbinə görə sahibkarlıq sahələrində çalışan analitiklər biznesdəki imkan və təhlükələri, makro və mikromühit amilləri ilə yanaşı, müəssisənin özü ilə bağlı olan amilləri də təhlil etməlidirlər. Bununla sahibkarlıq sahəsi olan müəssisə əsasən özünün güclü cəhətləri və zəif tərəflərini təhlil etmiş olur. Müəssisənin güclü tərəflərinə rəqiblərlə mübarizədə rəqabət üstünlüyü əldə etməyə imkan verən amillər, zəif tərəflərinə isə bazar mövqeyini, rəqabət üstünlüyünü itirməyə səbəb ola bilən amillər aiddirlər. Təhlükələr və imkanların təhlilində olduğu kimi burada da müəssisənin güclü və zəif cəhətlərini xarakterizə edən amillərin siyahısı tutulur, onların hər biri menecerlər və ekspertlər tərəfindən qiymətləndirilir. Müəssisənin güclü cəhətləri onun imkanlarından istifadə etməklə qarşıya çıxan təhlükələri aradan qaldırmağa imkan verir.

Strateji marketinqin planlaşdırılması prosesində hər bir məhsul və yaxud bir məhsul çeşidi üzrə bazar strategiyasının tərtib edilməsi nəzərdə tutulur. Ayrı-ayrı fəaliyyət istiqamətləri və məhsullar üzrə işlənib hazırlanan marketinq strategiyaları olduqca müxtəlifdir. Buna baxmayaraq, iqtisadi ədəbiyyatlarda həmin strategiyalar azı üç qrupa bölünür [1, səh.290]:

1. Xərclər üzrə liderlik strategiyası;
2. Diferensiallaşdırma strategiyası;
3. Təmərküzləşmə strategiyası.

Xərclər üzrə liderlik strategiyasında müəssisə bazara çıxarmaq istədiyi məhsulun həm satışının həcmini, həm də bazar payını artırmaq məqsədilə onun qiymətini aşağı salmağa, bu məqsədlə məhsulun istehsalına və satışına çəkilən xərcləri azaltmağa çalışır, bu zaman müəssisə marketinq tədbirlərinin həyata keçirilməsinə o qədər də diqqət yetirmir.

Diferensiallaşdırma strategiyasında müəssisə rəqabət üstünlüyü əldə etmək üçün qiymət amilindən deyil, məhsulun istehlakçı üçün mühüm əhəmiyyət kəsb edən istehlak xüsusiyyətlərini təkmilləşdirmək, ona yeni istehlak xüsusiyyətləri vermək hesabına onu istehlakçıların tələbinə uyğunlaşdırmaq strategiyasından istifadə etməyə çalışır. Bu zaman müəssisə məhsulu və onun istehlak xüsusiyyətlərini və digər parametrlərini istehlakçıların tələbatına uyğun olaraq diferensiallaşdırır. Diferensiallaşdırma strategiyasını həyata keçirmək üçün müəssisə səmərəli marketinq kompleksini işləyib hazırlayır, məhsul istehsalında daha mütərəqqi texnikadan və texnologiyadan istifadə edir, məhsulun keyfiyyətini və ona xidmətin səviyyəsini yüksəldir, xarici görünüşünü yaxşılaşdırır və s.

Təmərküzləşmə strategiyasında isə firma özünün marketinq fəaliyyətini bir və ya bir neçə subseqmentlərdə cəmləşdirir, həmin subyektlər üçün məhsul istehsal edir. Nəticədə, müəssisə istehlakçıların tələbinə daha çox uyğun gələn məhsul istehsal etməyə, daha səmərəli marketinq strategiyası və proqramları hazırlamağa və həyata keçirməyə nail olur. Bu strategiyanın tətbiqi müəssisələrə daha yüksək mənfəət əldə etməyə imkan verir.

Qloballaşma istehlakçıların tələbatında, alış motivlərində və davranış tərzində, texnika və texnologiyanın tətbiqinə, rəqabət şəraitində ciddi dəyişikliklər yaradır. Bu da öz növbəsində firmaları yeni məhsul yaratmağa və bazara çıxarmağa sövq edir. Lakin hər hansı yeni bir məhsul bazara

çıxarılarkən öz-özünə müvəffəqiyyət qazana və bazar mövqeyi əldə edə bilməz.

Məhsul bazara çıxarılarkən və həyat dövranının mərhələlərini keçərkən müəssisələr düzgün marketinq strategiyaları tətbiq etməyə çalışırlar. Məhsulun həyat dövranının müxtəlif mərhələlərindən keçməsi müəssisələrin qarşısında müxtəlif vəzifələr qoyur. Birincisi, müəssisələr hər bir məhsulun həyat dövranının hansı mərhələsində olmasını daima araşdırır, qiymətləndirir və ona uyğun olaraq müvafiq marketinq strategiyaları tətbiq edirlər. İkincisi, hər bir məhsul istənilən halda böhran mərhələsinə gəlib çatır və bu da müəssisələri xüsusi marketinq strategiyaları tətbiq etməyə sövq edir.

Məhsulun həyat dövranının mərhələlərində aşağıdakı marketinq strategiyaları tətbiq edilir:

*Məhsulun bazara çıxarılma mərhələsində* məhsul satışının həcmi az, artım tempi isə nisbətən zəif olur. Bu mərhələdə müəssisələr ya heç mənfəət əldə etmir, ya da əldə edilən mənfəətin həcmi çox az olur. Məhsulun bölüşdürülməsi və satışı, reklam və satışın həvəsləndirilməsi üzrə xərclərin səviyyəsi yüksək olur. Yeni məhsulun bazara çıxarılması zamanı müəssisə bir neçə marketinq strategiyasından birini seçə bilər və marketinq kompleksinin əsas elementləri-məhsulun qiyməti, bölüşdürülməsi, irəlilədilməsi və keyfiyyəti üzrə yuxarı və ya aşağı hədləri müəyyənləşdirə bilər. Məsələn, bazara yeni məhsul çıxaran müəssisə yüksək qiymət və aşağı xərclərlə stimullaşdırma strategiyasını, yəni qaymağın yavaş-yavaş yığılması taktikasını tətbiq edə bilər. Bu strategiyanı o vaxt tətbiq etmək mümkün olur ki, potensial alıcıların əksəriyyəti məhsul haqqında kifayət qədər məlumata malik olsunlar və məhsulu yüksək qiymətə almağa hazır olsunlar.

Bəzən müəssisələr yeni məhsula aşağı səviyyədə başlanğıc qiymət müəyyənləşdirirlər və satışın intensiv stimullaşdırması tədbirlərini həyata keçirirlər. Bu taktika *bazara sürətlə daxilolma strategiyası* adlandırılır və bazarın sürətlə zəbt edilməsinə, yüksək bazar payına nail olunmasına imkan yaradır. Belə strategiyanın tətbiq olunması o vaxt məqsədəuyğun hesab edilir ki, bazarın böyük və potensial alıcılarının qiymət amilinə münasibəti yüksək hissiyatlı olsun. Bu zaman rəqiblər tərəfindən sərt, əks tədbirlərin həyata keçirilməsi ehtimalı da nəzərə alınmalıdır. Bəzi hallarda müəssisələr bazara zəif sürətlə daxilolma strategiyasından da istifadə edirlər. Bu taktikanın mahiyyəti ondan ibarətdir ki, aşağı qiymət siyasəti zəif stimullaşdırma tədbirləri ilə müşayiət olunur, məhdud maliyyə resursları geniş miqyasda stimullaşdırma tədbirlərini həyata keçirməyə imkan vermir.

Bazara çıxarılan yeni məhsula kifayət qədər tələbat formalaşdıqdan və o istehlakçılar tərəfindən qəbul edildikdən sonra həyat dövranının *artım* mərhələsinə daxil olur. Bu mərhələdə satışın həcmi sürətlə artır, müəssisənin əldə etdiyi mənfəətin məbləği çoxalır. Müəssisələr məhsulun həyat dövranının artım mərhələsini uzunmüddətli etmək üçün bir neçə strategiyadan istifadə edirlər. Bu mərhələdə marketinq kompleksinin dəyişdirilməsi, qeyri-ənənəvi satış bazarlarına çıxma, bazarın genişləndirilməsi, məhsulların modifikasiyası, xərclərin səviyyəsinin aşağı salınması və s. strategiyalardan istifadə edilir.

Məhsulun həyat dövranının yetkinlik (stabillik) mərhələsində satışın həcminin artım tempi aşağı düşür. Müəssisələr satışın həcmini və bazar payını eyni səviyyədə saxlamaq və artım tempinin aşağı düşməsinin qarşısını almaq məqsədilə diversifikasiya strategiyasından, məhsulların istehlak xüsusiyyətlərinin təkmilləşdirilməsi strategiyasından istifadə edirlər. Bu mərhələdə reklam və satışın həvəsləndirilməsi tədbirlərinin genişləndirilməsi strategiyasından da istifadə edilir. Yetkinlik mərhələsində rəqiblər qiyməti aşağı salmağa, reklam və satışın həvəsləndirilməsində çəkilən xərcləri artırmağa, məhsullarını təkmilləşdirməyə cəhd göstərirlər.

**Bazarın dəyişdirilməsi**. Bu mərhələdə firmalar mövcud məhsulların satışını genişləndirməyə, yeni istehlakçılar əldə etməyə, yeni bazar sistemində fəaliyyət göstərməyə çalışırlar.

**Məhsulun dəyişdirilməsi**. Firma həmçinin məhsulun istehlak xüsusiyyətlərini təkmilləşdirməyə, keyfiyyətini yüksəltməyə, məhsula yeni istehlak xüsusiyyətlərini verməyə, onun rəqabətqabliyyətliliyini yüksəltməyə çalışırlar ki, yeni istehlakçıları məhsula cəlb etsinlər.

**Marketinq kompleksinin dəyişdirilməsi**. Marketinq üzrə mütəxəssislər marketinq kompleksinin ayrı-ayrı elementlərini dəyişdirməklə satışın həcmini artırmağa çalışırlar. Məsələn, qiymət elementlərini dəyişdirməklə, yəni qiyməti aşağı salmaqla reklam və satışın həvəsləndirilməsi tədbirlərini genişləndirməklə alıcıların sayını çoxaltmaqla satışın həcmini artırmağa çalışırlar.

**Böhran mərhələsi**. Bu mərhələdə satışın və mənfəətin məbləğinin sürətlə azalması prosesi

baş verir. Satışın həcminin azalması bir çox səbəblərdən, o cümlədən texniki tərəqqi, istehlakçıların tələbatının dəyişməsi, rəqabətin güclənməsi və s. səbəblər üzündən baş verə bilər. Məhsulu böhran mərhələsində olan firmalar həmin məhsulla bağlı çox böyük çətinliklərlə qarşılaşırlar. Bazar mövqeyi zəifləmiş məhsula himayədarlıq etmək müəssisəyə olduqca baha başa gəlir. Böhran mərhələsində firmalar “biçim” və ya “ləğvetmə” strategiyasından, qiymətin aşağı salınması strategiyasından, reklam və satışın həvəsləndirilməsi tədbirlərinin dayandırılması strategiyasından və s. istifadə edirlər.

Firmaların tətbiq etdikləri strategiyaların bir istiqaməti də onların inkişaf istiqamətlərinin inkişaf strategiyalarının müəyyən edilməsidir. Firmaların inkişaf strategiyaları, əsasən, iki istiqamətdə müəyyənləşdirilir [2, səh. 195-219]:

1) Müəssisədaxili inkişaf strategiyası;
2) Müəssisədən kənar bizneslərin ələ keçirilməsi strategiyası.

Müəssisədaxili inkişaf strategiyasından mövcud bazarlarda inkişaf imkanları tükənmədiyi, mövcud biznes fəaliyyəti və ya məhsul istehsalı müəssisəni, biznes vahidini təmin etdiyi halda istifadə olunur. Bu zaman müəssisə və ya biznes vahidi mövcud bazara yeni və ya mövcud məhsula çıxmağı və yaxud da yeni bazara mövcud məhsullarla çıxmağı planlaşdıra bilər. Bu variantlardan asılı olaraq intensiv inkişaf strategiyasının aşağıdakı formalarından istifadə oluna bilər [1, səh.295].

**Bazara nüfuzetmə strategiyası**. Bu strategiya mövcud bazarlara ənənəvi məhsulların çıxarılması nəzərdə tutulduğu halda tətbiq edilir. Bu strategiya aktiv marketinq siyasəti sayəsində istehsal edilən ənənəvi məhsulların mövcud bazarlarda satışının həcmini və (və ya) bazar payını artırmaq məqsədi ilə həyata keçirilir.

**Yeni bazarlara çıxma strategiyası**. Bu strategiya müəssisənin mövcud məhsullarının yeni bazarlara çıxarılmasını və yeni bazar seqmentinin ələ keçirilməsini nəzərdə tutur. Yeni bazarlara çıxmaq üçün müəssisə mövcud məhsulunu institusional bazarlarla yanaşı, istehlakçı bazarlarına və ya əksinə istehlakçı bazarlarında satdıqları məhsulları institusional bazarlara da çıxara bilər, yeni regionlarda və ya ölkələrdə onun satışını təşkil edə bilər, əlavə bölüşdürmə və satış kanalları yarada bilər. Həyata keçirilən bu tədbirlər isə məhsul satışının həcmini artırmağa imkan verir.

**Yeni məhsul hazırlanması strategiyası**. İntensiv inkişaf strategiyasının bu formasında müəssisə mövcud bazarlar üçün yeni məhsul (məhsullar) hazırlanması siyasətini yeridir. Bu məqsədlə müəssisə biznes vahidi mövcud məhsulların yeni modellərini  hazırlayır, ya indiyə qədər istehsal etmədiyi məhsul istehsalını və ya yeni biznes fəaliyyəti təşkil edir, yaxud da yeni, mütərəqqi texnologiya əsasında tamamilə orijinal yeni məhsul hazırlayır.

**Müəssisədən kənar biznesin həyata keçirilməsi strategiyası** yeni bazarlara yeni biznes fəaliyyəti və məhsullarla çıxılmasını nəzərdə tutur. Bu strategiyadan müəssisədaxili inkişaf imkanları tükəndiyi və ya bu imkanların cəlbedici olmadığını, habelə ələ keçirilməsi nəzərdə tutulan biznes fəaliyyəti müəssisəyə yüksək mənfəət əldə etməyə imkan verdiyi halda istifadə edilir.

Sahibkarlıq fəaliyyətinin qloballaşması marketinq konsepsiyasından istifadənin zəruriliyini artırır, marketinq strategiyasının formalaşmasına çox ciddi təsir göstərir. Belə ki, qloballaşma firmaların daxili bazarlarda fəaliyyət imkanlarını genişləndirir, strateji marketinqin tətbiqi xüsusiyyətlərini daha qabarıq şəkildə büruzə verir, uzunmüddətli perspektivə yönələn marketinq strategiyalarını tətbiq etməyə imkan yaradır.

Strateji marketinqin yeni, müasir xüsusiyyətləri qloballaşmadan irəli gələn bir sıra məsələlərlə, o cümlədən marketinq strategiyasından istifadənin aktivliyinin yüksəlməsi, innovasiyayönümlülüyünün güclənməsi, inteqrasiya olunmuş marketinq konsepsiyasından istifadə, bazar tədqiqatlarının strukturunun təkmilləşdirilməsinə üstünlük verilməsi, ictimaiyyətlə əlaqə metodlarından və proqramlarından aktiv istifadə olunması, firmanın maraqlarının cəmiyyətin və istehlakçıların maraqları ilə daha yaxından əlaqələndirilməsi və uzlaşdırılması və s. əlaqədardır.

Qloballaşmanın əsas prinsipi milli bazarların qarşılıqlı əlaqəsinin və asılılığının güclənməsinin nəticəsi kimi meydana çıxır. Müasir dövrdə strateji marketinqin aktivliyinin yüksəlməsi texniki tərəqqinin sürətli inkişafı, əmtəə bazarlarında bolluq yaranması ilə də sıx əlaqədardır. Eyni zamanda məhsul bazarlarında rəqabətin kəskinləşməsi, məhsul çeşidinin genişlənməsinə, daima

təkmilləşməsinə və marketinq strategiyalarının formalaşmasına təsir göstərir, onlardan istifadənin zəruriliyini artırır.

İnformasiyayönümlülük marketinq konsepsiyasının əsas prinsiplərindən biri olmaqla qloballaşma şəraitində daha geniş tətbiq olunur. Bu da əsasən əmtəə bazarlarında rəqabətin kəskinləşməsi, istehlakçıların tələbatının alış motivlərinin daima dəyişməsi, elmi-texniki tərəqqinin sürətli inkişafı, istehlakçıların məhsulların keyfiyyətinə və xüsusiyyətlərinə tələbinin yüksəlməsi ilə əlaqədardır. Eyni zamanda qeyd etmək lazımdır ki, müasir dövrdə istehlakçılar qiymət amilindən daha çox məhsulun keyfiyyətinə istehlak xüsusiyyətlərini, mal alışının rahatlığına, servis xidmətinin mövcudluğuna və səviyyəsinə daha çox diqqət yetirirlər.

İnteqrasiya olunmuş marketinq kommunikasiyasından istifadə olunması və bu prosesin getdikcə sürətlənməsi də qloballaşma ilə birbaşa əlaqədardır. Belə ki, inteqrasiya olunmuş marketinq kommunikasiyasından, əsasən, iri firmalar, transmilli şirkətlər istifadə edirlər. Bu zaman məhsul siyasətinin qiymətləndirilməsi, əmtəənin irəlilədilməsi strategiyaları bir-biri ilə əlaqəli, kompleks şəkildə tətbiq olunurlar ki, bu da həmin istiqamətlərdə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmağa imkan verir.

Qloballaşma firmaların marketinq kompleksinin formalaşmasına və bu zaman tətbiq edilən strategiyalara olduqca ciddi təsir göstərir. İlk növbədə strateji məqsədlərin müəyyənləşdirilməsinə diqqət yetirilir. Müəssisələrin sahibkarlıq fəaliyyəti qloballaşdıqca onların qarşısında qoyulan strateji məqsədlər də ciddi surətdə dəyişilir.

Son illərdə marketinq konsepsiyasından istifadənin nəzəri əsasları və praktikası göstərir ki, firmalar sadə bir strategiyadan, “stimul-reaksiya” metodundan istifadə etməyə daha çox üstünlük verirlər və bunun da əsas mahiyyəti ondan ibarətdir ki, məhsul satışının dövriyyəsi azalır, reklam tədbirləri genişləndirilir və bu zaman anbarlarda məhsul yığını çoxalarsa və satış azalırsa, qiymət aşağı salınır. Lakin rəqabətin gücləndiyi müasir bazarlarda bu cür sadə metodlardan istifadə etməklə marketinq fəaliyyətinin həyata keçirilməsi də o qədər yüksək nəticələr əldə etməyə imkan vermir [4, səh.175-210].

Marketinq strategiyalarının qeyd olunan tərzdə müəyyənləşdirilməsi və onların səmərəliyinin qiymətləndirilməsi firmalara daha səmərəli strategiyanı seçməyə və tətbiq etməyə imkan verir.

Ölkə iqtisadiyyatının qloballaşması xarici iqtisadi fəaliyyətin inkişafını təmin etməklə yanaşı, həm də firmaların daxili marketinq fəaliyyətinin genişlənməsinə zəmin yaradır, onun strategiyalarının formalaşmasına çox ciddi təsir göstərir. Qloballaşma keçən əsrin sonlarından başlayaraq, ictimai həyatın bütün sahələrini əhatə edən dünyəvi bir prosesə çevrilmişdir. Ölkələrin iqtisadi açlığının güclənməsi, azad ticarət zonalarının yaradılması, milli ticarət rejimlərinin və kapital axınlarının liberallaşdırılması, Transmilli şirkətlərin (TMŞ) sayının və rolunun sürətlə artması, qlobal maliyyə sisteminin və ümumdünya informasiya şəbəkəsinin (internet) formalaşması və s. dünya iqtisadiyyatının qloballaşmasını xarakterizə edir.

Qloballaşma prosesində iqtisadi inkişafın proqressiv amilləri kimi kapital, elmi-texniki tərəqqinin nailiyyətləri və istehsal amillərinin intellektuallaşdırılması çıxış edir. Təbii resurslar və işçi qüvvəsi isə arxa plana keçir. Nəticədə, beynəlxalq istehsal və ticarət əlaqələrinin güc mərkəzlərinin yüksək texnoloji, elmtutumlu və informasiya məhsullarının, həmçinin dünya iqtisadiyyatının özəyini təşkil edən qlobal ölkələrin istehsalı üzrə ixtisaslaşdığı maliyyə, idarəetmə, informasiya və digər növ xidmətlərin istehsalı səthinə keçidi müşahidə olunur.

Belə bir şəraitdə ölkədə fəaliyyət göstərən firmaların fəaliyyətində ciddi dəyişikliklər baş verir, onların istehsal-satış imkanları genişlənir, əmtəə bazarlarında rəqabət daha da kəskinləşir, bu da firmaları marketinq konsepsiyasından daha səmərəli istifadə etməyə sövq edir. Nəticədə firmaların həm ümumi marketinq strategiyasının, həm də ayrı-ayrı fəaliyyət istiqamətləri və elementlər üzrə strategiyalarının formalaşmasında ciddi dəyişikliklər baş verir.

Qloballaşma ölkə iqtisadiyyatının ümumi inkişafına təsir göstərən ən vacib amillərdən biri kimi çıxış edir, bir tərəfdən müəssisələrin istehsal imkanlarının genişlənməsinə, əhalinin pul gəlirlərinin artmasına zəmin yaradır, digər tərəfdən istehlakçıların məhsulun keyfiyyətinə, istehlak xüsusiyyətlərinə olan tələbinin yüksəlməsinə gətirib çıxarır. Bütün bunlara uyğun olaraq istehsalçı

müəssisələr öz istehsal texnologiyalarını, məhsullarını təkmilləşdirməyə səy göstərirlər. Alıcıların tələbatının, istehsal texnologiyasının, rəqabət şəraitinin daima dəyişdiyi bir şəraitdə firmaların bazar müvəffəqiyyəti yeni məhsulların hazırlanması və bazara çıxarılmasından birbaşa asılı olur. Müəssisələr məhsul çeşidinin genişləndirilməsi və təkmilləşdirilməsi strategiyalarından daha çox istifadə etməyə maraqlı olurlar. Eyni zamanda qeyd etmək lazımdır ki, hətta yeni məhsul bazara müvəffəqiyyətlə çıxarıldıqda belə firmalar onunla bağlı düzgün strategiyalar tətbiq etməyi bacarmalıdırlar.

Qeyd edildiyi kimi, qloballaşma milli iqtisadiyyatların dünya iqtisadiyyatına inteqrasiyası ilə müşayiət olunur. İnteqrasiyanın nəticəsi olaraq istehsalın və maliyyə resurslarının təmərküzləşməsi baş verir. Qloballaşmanın əsas hərəkətverici qüvvələri kimi elmi-texniki tərəqqi Transmilli şirkətlər, beynəlxalq iqtisadi təşkilatlar qeyri-bərabər mübadilə xarakterinə malik olan qlobal rəqabətin dəyişilməsinə və kəskinləşməsinə təkan verir. Əmtəə bazarlarında rəqabətin kəskinləşməsi isə firmaları məhsulların irəlilədilməsini təmin edən kompleks stimullaşdırma tədbirlərini genişləndirməyə, bu istiqamətdə tətbiq edilən strategiyaları daha da təkmilləşdirməyə sövq edir. Qloballaşma müəssisələrin qiymət strategiyalarına da ciddi sürətdə təsir göstərir. Qiymət strategiyasının formalaşması isə bazarın tipindən, rəqabət şəraitindən, iqtisadiyyatın inkişaf səviyyəsindən, məhsulun həyat dövranının mərhələlərindən asılı olaraq baş verir.

Qloballaşma sahibkarları daha geniş miqyasda fəaliyyət göstərməyə sövq edir, onları beynəlxalq bazarlara çıxmağa həvəsləndirir. Bununla belə əgər ölkədaxili bazar geniş imkanlara malikdirsə və kifayət qədər mənfəət əldə etməyə imkan verirsə, onda xarici bazarlar onları o qədər də maraqlandırmır. Eyni zamanda qeyd etmək lazımdır ki, müasir dövrdə qloballaşma strateji marketinqin yeni bir xüsusiyyəti kimi çıxış edir, firmaları qlobal marketinqə üstünlük verməyə sövq edir. Həmçinin qloballaşma şəraitində firmalar xarici bazarlara çıxmaq haqqında qərar vermədikləri hallarda belə qloballaşmanın təsirini çox ciddi surətdə hiss edirlər. Belə ki, ölkədaxili fəaliyyətlə məşğul olan sahibkarlar ölkə bazarlarına daxil olan xarici firmaların təsirinə məruz qalırlar. Əmtəə bazarlarında rəqabət kəskinləşir, bu da müəssisələri daha rəqabətqabliyyətli olmağa, marketinq kompleksinin elementləri: məhsul, qiymət, bölgü və satış kanalları, reklam və satışın həvəsləndirilməsi üzrə tətbiq etdikləri strategiyaları təkmilləşdirməyə sövq edir.

Yerli firmalar qloballaşmanın tələblərinə uyğun olaraq məhsullarını təkmilləşdirməyə, onları daha rəqabətqabliyyətli etməyə, məhsul çeşidini genişləndirməyə, yeni məhsul yaratmağa çalışırlar. Ümumiyyətlə, qloballaşma şəraitində firmaların məhsul siyasətində və strategiyalarında ciddi dəyişikliklər baş verir.

Qloballaşma firmaların qiymət strategiyalarına da təsir göstərir. Firmalar çevik qiymət siyasəti həyata keçirməyə, ən səmərəli qiymətqoyma metodlarından istifadə etməyə çalışırlar. Qiymət vasitəsilə firmalar bazar mövqelərini gücləndirməyə, məhsullarını rəqabətqabliyyətli etməyə, satışın həcmini çoxaltmağa çalışırlar. Ümumiyyətlə, düzgün qiymət siyasəti yürütmək, daha səmərəli qiymət strategiyasını hazırlamaq və həyata keçirmək olduqca çətin və mürəkkəb bir məsələdir və qloballaşma şəraitində qiymətqoyma prosesi daha da mürəkkəbləşir.

Məhsulların bölgü və satış kanallarının təşkili və onun təkmilləşdirilməsi məsələləri də qloballaşma şəraitində daha qabarıq şəkildə özünü büruzə verir. Firmalar bölgü kanallarının səmərəliliyini yüksəltmək istiqamətində zəruri tədbirlər həyata keçirməyə səy göstərirlər. Çünki bu şəraitdə məhsul çeşidini genişləndirmək, satışın həcmini artırmaq, bu məqsədlə yeni bölgü kanalları dəyişmək, onları daha da təkmilləşdirmək lazım gəlir. Qloballaşma firmaların reklam və satışın həvəsləndirilməsi istiqamətində tətbiq etdikləri strategiyalara da ciddi təsir göstərir. Bu bir neçə istiqamətdə özünü büruzə verir. Birincisi, qloballaşma əmtəə bazarlarında rəqabətin güclənməsinə səbəb olur, bu isə öz növbəsində reklam və satışın həvəsləndirilməsi tədbirlərinin genişləndirilməsini tələb edir. İkincisi, qloballaşma məhsul çeşidinin genişlənməsini və təkmilləşdirilməsini tələb edir. Bu da reklam və satışın həvəsləndirilməsi tədbirlərinin xarakterinin dəyişməsinə səbəb olur. Üçüncüsü, reklam və satışın həvəsləndirilməsi metodlarında dəyişikliklər baş verir.

## Nəticə

1. Müasir zamanda dünya iqtisadiyyatında gedən qloballaşma prosesləri firmaların marketinq strategiyasının formalaşmasına ciddi təsir göstərdiyi danılmaz faktdır. Bunu nəzərə alaraq, cəmi bazar subyektləri bu yeni şəraitində ətrafda baş verən dəyişiklikləri gündəlik izləməli, öz cari fəaliyyətlərini bu dəyişikliklərə uyğun qurmağa çalışmalıdırlar.

2. Qloballaşma şəraitində ətrafda baş verənləri düzgün dəyərləndirmək üçün sahibkarlar hər bir müstəqil iqtisadi qurum kimi mötəbər marketinq informasiya sistemi yaratmalı və obyektiv və tam məlumatlar əsasında öz iqtisadi vəziyyəti, üstün və mənfi cəhətləri, rəqibləri və rəqabət problemlərini SWOT – təhlil apararaq qiymətləndirməyi bacarmalıdırlar.

3. Dünya iqtisadiyyatının qloballaşması sahibkarları daima genişlənən rəqabət mühitinə cəlb etməklə onları daima hərəkət etməyə, elmdə və təcrübədə innovasiyaları axtarıb tapmağa, daha geniş miqyasda fəaliyyət göstərməyə sövq etməklə ölkələrinin hərbi-strateji və cəmi insanların sosial-iqtisadi problemlərinin həllinə öz töhfələrini verməlidirlər.

**Rəşad Məmmədov**

**Dünya iqtisadiyyatının qloballaşması şəraitində sahibkarlıq fəaliyyəti və onun marketinq strategiyaları**

**Xülasə**

Məqalədə firmaların sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində marketinq strategiyalarından istifadənin əhəmiyyəti və rolundan bəhs edilir, marketinq strategiyalarının formalaşması xüsusiyyətləri və tətbiqi üsulları göstərilir, SWOT – təhlil əsasında firmanın imkanları, zəif və güclü tərəfləri, bazar şəraitlərinin öyrənilməsi tövsiyə edilir. Strateji marketinq planlaşdırılması prosesində məhsul çeşidi və ya hər bir məhsul üzrə bazar strategiyasının hazırlanması qeyd edilmişdir. Məhsulun həyat dövranının mərhələlərindən və onların xüsusiyyətlərindən asılı olaraq fərqli marketinq strategiyalarının tətbiq olunması göstərilmişdir. Qeyd edilmişdir ki, dünya iqtisadiyyatının qloballaşması firmaların fəaliyyətində strateji menecment və marketinq konsepsiyasından istifadənin zəruriliyini artırır.

**Рашад Мамедов**

**Маркетинговые стратегии и предпринимательская деятельность в условиях глобализации мировой экономики**

**Резюме**

В статье отмечается важность и роль использования маркетинговых стратегий в осуществлени и предпринимательской деятельности фирм. Указаны особенности формирования и методы применения основных маркетинговых стратегий. В предпринимательской деятельности рекомендуется использование SWOT-анализа, раскрывающее возможности фирмы, ее слабые и сильные стороны, в рыночных условиях. В процессе планирования стратегического маркетинга освещается рыночная стратегия по ассортименту продукции или отдельно по каждой продукции. В зависимости от этапов жизненного цикла продукции и их особенностей, обосновывается применение соответствующих маркетинговых стратегий. Было отмечено, что глобализация мировой экономики повышает необходимость использования концепции стратегического менеджмента и маркетинга в деятельности фирм.

**Rashad Mammadov**

**The marketing strategies and activities of entrepreneurship in a globalizing world economy**

**Summary**

The article notes the importance and role of the use of marketing strategies in entrepreneurship activity of firms. Features of formation and methods of application of the basic marketing strategies are presented. In business activity the use of SWOT-analysis is recommended which reveals possibilities of firms, its strengths and weaknesses, market conditions. Strategic marketing planning process

highlights the market strategy for the range of products or separately for each product. Depending on the phases of the life cycle of products and their features the application of appropriate marketing strategies is appealed. It was noted that globalization of the world economy increases the need for use the concept of strategic management and marketing in business activity.

## Ədəbiyyat

1. A.T.Məmmədov. Marketinqin əsasları. Dərs vəsaiti.İdeal print. Bakı: “İqtisadiyyat Universiteti nəşriyyatı” 2007.
2. Кревенс, Дэвид, И. Стратегический маркетинг, 6-е издание: Пер. с англ. М: Издательский дом «Вильямс»-2008.
3. А.П.Панкрухин. Маркетинг: учеб. Для студентов, обучающихся по специальности«Маркетинг»/ А.П. Панкрухин. 6-изд.,стер. М.: Издательство «Омега-Л», 2011.
4. Р.А.Фатхутдинов. Стратегический маркетинг. 4-е изд. СПб.: Санкт-Петербург, 2006.

Məqalə redaksiyaya daxil olmuşdur: 23.05.2019
Təkrar işlənməyə göndərilmişdir: 31.05.2019
Çap üçün qəbul olunmuşdur: 07.06.2019

"Statistika xəbərləri, № 3/2019"
İl 5, Cild 3, İyul-sentyabr, səh. 92-100

# *2019-cu İLİN BİRİNCİ YARISININ YEKUNU ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR*

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2019-cu ilin yanvar-iyun ayları, faktiki | 2019-cu ilin yanvar-iyun ayları 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə | Məlumat üçün 2018-ci ilin yanvar-iyun ayları 2017-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi Daxili Məhsul, milyon manat** | **37 825,2** | **102,4** | **101,3** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 22 300,6 | 103,2 | 102,0 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **3 828,1** | **101,5** | **100,4** |
| **Sənaye məhsulu, milyon manat** | **23 567,8** | **101,8** | **101,0** |
| o cümlədən qeyri neft-qaz sənayesi | 5 801,7 | 115,7 | 108,8 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **6 131,6** | **94,6** | **85,9** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 3 772,7 | 105,1 | 121,5 |
| ondan qeyri neft-qaz sənayesinə | 607,2 | 80,2 | 172,8 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **3 675,8** | **113,0** | **107,6** |
| o cümlədən: bitkiçilik | 1 773,6 | 125,6 | 114,6 |
| heyvandarlıq | 1 902,2 | 102,9 | 102,5 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **112,1** | **101,6** | **101,1** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **967,3** | **101,5** | **101,5** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **999,8** | **115,8** | **104,6** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **17 977,9** | **102,8** | **102,5** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **4 090,1** | **101,5** | **102,5** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **10 496,1** | **106,4** | **127,6** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **10 951,0** | **115,0** | **116,2** |
| **Dövlət büdcəsinin kəsiri, milyon manat** | **454,9** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **27 355,8** | **106,6** | **109,1** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **2 768,6** | **105,7** | **108,1** |

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin banklardakı əmanətləri, 2019-cu il 01 iyul vəziyyətinə, milyon manat** | **8 736,3** | **107,7** | **117,4** |
| **Kredit qoyuluşları, 2019-cu il 01 iyul vəziyyətinə, milyon manat** | **13 482,6** | **111,4** | **87,2** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 1 486,5 | 85,2 | 96,4 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **585,2** | **108,2** | **103,7** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **102,5** | **103,0** |
| **Əhalinin sayı, 2019-cu il 01 iyul vəziyyətinə, min nəfər** | **10 019,6** | **100,8** | **100,9** |
| **Xarici ticarət dövriyyəsi[1], mlyn. ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **16 866,2** | **115,2** | **136,7** |
| **müqayisəli qiymətlərlə** | **x** | **106,5** | **102,6** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 9 850,6 | 98,6 | 136,8 |
| müqayisəli qiymətlərlə | x | 100,4 | 102,1 |
| ondan **qeyri neft-qaz ixracı** | | | |
| faktiki qiymətlərlə | 979,1 | 115,7 | 115,0 |
| müqayisəli qiymətlərlə | x | 111,1 | 104,7 |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 7 015,6 | 150,5 | 136,7 |
| müqayisəli qiymətlərlə | x | 119,6 | 103,7 |

**Qeyd:**

[1] Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

## ÜMUMİ DAXİLİ MƏHSUL İSTEHSALI

milyon manat

| | Yanvar-iyun | | 2019-cu ilin yanvar-iyun ayları 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | 2019 | 2018* | |
| **Ümumi Daxili Məhsul** | **37825,2** | **36897,5** | **102,4** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2125,0 | 1840,7 | 113,1 |
| Sənaye | 16875,8 | 17277,3 | 102,9 |
| o cümlədən: mədənçıxarma sənayesi | 14376,5 | 15025,3 | 101,6 |
| emal sənayesi | 2042,6 | 1814,8 | 113,5 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 387,7 | 371,6 | 102,8 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 69,0 | 65,6 | 107,4 |
| Tikinti | 2213,9 | 2437,0 | 88,8 |
| Ticarət və nəqliyyat vasitələrinin təmiri | 3748,6 | 3575,0 | 102,8 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2358,3 | 2344,6 | 102,5 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 972,3 | 927,3 | 103,3 |
| İnformasiya və rabitə | 660,5 | 570,2 | 115,8 |
| Digər sahələr | 5466,7 | 4999,7 | 101,8 |
| Məhsula və idxala xalis vergilər | 3404,1 | 2925,7 | 101,8 |
| ÜDM-in deflyatoru | 100,1 | x | x |

*2018-ci ilin aylıq göstəriciləri dövrün yekun məlumatları əsasında dəqiqləşdirilmişdir.

## MALİYYƏ MƏNBƏLƏRİ ÜZRƏ ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏR

| | 2019-cu ilin yanvar-iyun aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **6131,6** | **94,6** | **100,0** |
| o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri | 3476,5 | 101,6 | 56,7 |
| Bank kreditləri | 418,2 | 43,9 | 6,8 |
| Büdcə vəsaitləri | 1698,3 | 107,3 | 27,7 |
| Büdcədənkənar fondların vəsaitləri | 89,1 | 107,9 | 1,4 |
| Əhalinin şəxsi vəsaiti | 427,8 | 106,3 | 7,0 |
| Sair vəsaitlər | 21,7 | 51,3 | 0,4 |

## İQTİSADİYYATIN SAHƏLƏRİ ÜZRƏ ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏRİN DƏYƏRİ

| İqtisadiyyatın sahələri | 2019-cu ilin yanvar-iyun aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **6131,6** | **94,6** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **206,4** | **107,0** | **3,4** |
| **Sənaye** | **2966,1** | **81,2** | **48,4** |
| o cümlədən: | | | |
| Mədənçıxarma sənayesi | 2269,0 | 81,3 | 37,0 |
| Emal sənayesi | 334,3 | 126,7 | 5,5 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 171,5 | 90,7 | 2,8 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 191,3 | 46,7 | 3,1 |
| **Tikinti** | **1328,4** | **102,6** | **21,7** |
| ondan yaşayış evlərinin tikintisi | 587,7 | 123,7 | 9,6 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **26,4** | **147,3** | **0,4** |
| **Nəqliyyat və anbar təsərrüfatı** | **897,2** | **108,1** | **14,6** |
| o cümlədən: | | | |
| nəqliyyat | 896,4 | 108,2 | 14,6 |
| poçt və kuryer fəaliyyəti | 0,8 | 45,4 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **36,5** | **4,2 d.** | **0,6** |
| **İnformasiya və rabitə** | **141,7** | **2,2 d.** | **2,3** |
| ondan rabitə | 138,9 | 2,2 d. | 2,3 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **6,7** | **175,4** | **0,1** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **7,7** | **9,9 d.** | **0,1** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **35,3** | **17,6 d.** | **0,6** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **44,7** | **160,6** | **0,7** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **190,1** | **108,3** | **3,1** |
| **Təhsil** | **123,6** | **168,6** | **2,0** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **66,9** | **70,6** | **1,1** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **16,4** | **45,1** | **0,3** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **37,5** | **5,0 d.** | **0,6** |

## PƏRAKƏNDƏ TİCARƏT DÖVRİYYƏSİNİN MƏHSULLAR ÜZRƏ STRUKTURU

| | 2019-cu ilin yanvar-iyun aylarında satışdan gəlir, milyon manatla | 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **17 977,9** | **102,8** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 8 944,9 | 102,5 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 3 236,5 | 103,0 |
| elektrik malları və mebellər | 1 063,1 | 102,9 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 139,7 | 104,3 |
| əczaçılıq və tibbi mallar | 236,7 | 104,5 |
| avtomobil yanacağı | 990,0 | 101,8 |
| digər qeyri-ərzaq məhsulları | 3 367,0 | 103,4 |

## İQTİSADİYYATA KREDİT QOYULUŞU

| | 2019-cu il iyulun 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Kredit qoyuluşları – cəmi** | 13482,6 | 111,4 |
| o cümlədən: qısamüddətli | 2651,3 | 112,1 |
| uzunmüddətli | 10831,3 | 111,2 |
| Ödəmə vaxtı keçmiş kreditlər | 1486,5 | 85,2 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, faizlə | 11,0 | x |

## DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

| | İcra, milyon manat | | 2019-cu ilin yanvar-iyunu 2018-ci ilin yanvar-iyununa nisbətən, faizlə |
|---|---|---|---|
| | 2019-cu ilin yanvar-iyun ayları | 2018-ci ilin yanvar-iyun ayları | |
| **Gəlirlər – cəmi** | **10496,1** | **9860,4** | **106,4** |
| o cümlədən: Fiziki şəxslərin gəlir vergisi | 430,2 | 480,2 | 89,6 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 1302,6 | 1124,5 | 115,8 |
| Torpaq vergisi | 21,1 | 24,0 | 87,9 |
| Əmlak vergisi | 99,1 | 84,9 | 116,7 |
| Əlavə dəyər vergisi | 2376,7 | 1990,7 | 119,4 |
| Sadələşdirilmiş vergi | 174,6 | 222,0 | 78,6 |
| Aksiz | 422,3 | 333,4 | 126,7 |
| Yol vergisi | 55,8 | 53,7 | 103,9 |
| Mədən vergisi | 60,6 | 63,4 | 95,6 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 562,2 | 502,3 | 111,9 |
| Digər daxilolmalar | 4990,9 | 4981,3 | 100,2 |

## DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

| | İcra, milyon manat | | 2019-cu ilin yanvar-iyunu 2018-ci ilin yanvar-iyununa nisbətən, faizlə |
|---|---|---|---|
| | 2019-cu ilin yanvar-iyun ayları | 2018-ci ilin yanvar-iyun ayları | |
| **Xərclər – cəmi** | **10951,0** | **9524,3** | **115,0** |
| o cümlədən:<br>Ümumi dövlət xidmətləri | 1998,7 | 1605,7 | 124,5 |
| ondan:<br>beynəlxalq təşkilatlara üzvlük haqqı | 106,7 | 133,8 | 79,7 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq orqanları | 660,2 | 574,4 | 114,9 |
| Təhsil | 966,6 | 996,3 | 97,0 |
| Səhiyyə | 378,7 | 312,5 | 121,2 |
| Sosial müdafiə və sosial təminat | 1484,1 | 1205,0 | 123,2 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 131,5 | 113,5 | 115,9 |
| İqtisadiyyatın maliyyələşdirilməsi | 3012,9 | 2733,9 | 110,2 |
| o cümlədən:<br>mənzil və kommunal təsərrüfatı | 105,8 | 152,0 | 69,6 |
| kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 304,5 | 208,0 | 146,4 |
| sənaye, tikinti və faydalı qazıntılar | 2393,3 | 2169,9 | 110,3 |
| nəqliyyat və rabitə | 89,3 | 80,5 | 110,9 |
| yanacaq və enerji | 2,6 | 2,6 | 100,0 |
| iqtisadi fəaliyyət | 117,4 | 120,9 | 97,1 |
| Digər xərclər | 2318,3 | 1983,0 | 116,9 |
| **Profisit/kəsir(-)** | **-454,9** | **336,1** | **-** |

## NƏQLİYYAT SEKTORUNDA YÜK DÖVRİYYƏSİ

| | 2019-cu ilin yanvar-iyun aylarında | 2018-ci ilin müvafiq dövründə | 2018-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **43 792,4** | **44 273,0** | **98,9** |
| o cümlədən:<br>Dəmir yolu | 2 403,5 | 2 144,0 | 112,1 |
| Dəniz | 1 655,5 | 2 277,5 | 72,7 |
| Hava | 443,6 | 445,8 | 99,5 |
| Boru kəməri | 32 051,6 | 32 344,0 | 99,1 |
| neft kəməri | 28 602,4 | 29 659,5 | 96,4 |
| qaz kəməri | 3 449,2 | 2 684,5 | 128,5 |
| Avtomobil | 7 238,2 | 7 061,7 | 102,5 |

## NƏQLİYYAT SEKTORUNDA SƏRNİŞİN DÖVRİYYƏSİ

| | 2019-cu ilin yanvar-iyun aylarında | 2018-ci ilin müvafiq dövründə | 2018-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **15 542,6** | **15 684,8** | **99,1** |
| o cümlədən:<br>Dəmir yolu | 239,5 | 218,5 | 109,6 |
| Dəniz | 3,9 | 3,1 | 125,8 |
| Hava | 1 969,9 | 2 345,4 | 84,0 |
| Metro | 1 286,6 | 1 306,1 | 98,5 |
| Avtomobil | 12 042,7 | 11 811,7 | 102,0 |
| avtobus | 11 291,1 | 11 080,6 | 101,9 |
| taksi | 751,6 | 731,1 | 102,8 |

## AZƏRBAYCANIN TƏRƏFDAŞ ÖLKƏLƏRLƏ XARİCİ TİCARƏT GÖSTƏRİCİLƏRİ*
### (yanvar-iyun ayları)

min ABŞ dolları

| Ölkələrin adı | Dövriyyə | İdxal | İxrac |
|---|---|---|---|
| **Cəmi** | **16994658,7** | **7015632,9** | **9979025,8** |
| o cümlədən:<br>İtaliya | 2984358,0 | 178451,9 | 2805906,1 |
| Türkiyə | 1911214,4 | 677400,6 | 1233813,8 |
| Rusiya Federasiyası | 1381524,4 | 1004069,5 | 377454,9 |
| Çin | 1277079,8 | 592562,9 | 684516,9 |
| İsveçrə | 1082570,9 | 1009053,5 | 73517,4 |
| Almaniya | 899633,2 | 331511,2 | 568122,0 |
| Hindistan | 690308,0 | 64039,6 | 626268,4 |
| İsrail | 577387,1 | 31729,9 | 545657,2 |
| İspaniya | 459727,5 | 33226,7 | 426500,8 |
| Amerika Birləşmiş Ştatları | 420888,0 | 411863,2 | 9024,8 |
| Kanada | 415170,7 | 390616,0 | 24554,7 |
| Ukrayna | 402714,7 | 215912,3 | 186802,4 |
| Fransa | 392990,3 | 135328,2 | 257662,1 |
| Çexiya | 353474,2 | 21566,1 | 331908,1 |
| Gürcüstan | 348620,4 | 32386,5 | 316233,9 |
| Birləşmiş Krallıq | 344570,5 | 113650,0 | 230920,5 |
| İran İslam Respublikası | 313644,6 | 290627,3 | 23017,3 |
| Avstraliya | 243521,9 | 203528,7 | 39993,2 |
| Portuqaliya | 218262,0 | 4922,2 | 213339,8 |
| Avstriya | 149580,3 | 32093,0 | 117487,3 |
| Tailand | 142370,0 | 22298,4 | 120071,6 |
| Yaponiya | 142305,7 | 97953,8 | 44351,9 |
| Xorvatiya | 136289,6 | 1441,5 | 134848,1 |
| Qazaxıstan | 135776,8 | 124213,3 | 11563,5 |
| Niderland | 127659,1 | 71339,6 | 56319,5 |
| Digər ölkələr | 1443016,6 | 923847,0 | 519169,6 |

*Gömrük məlumatı

## İXRAC OLUNAN MÜHÜM NÖV MƏHSULLAR

| Malların adı | 2019-cu ilin yanvar-iyun aylarında | | 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| Təzə tərəvəz, min ton | 163,9 | 153258,1 | 103,1 | 101,7 |
| Təzə meyvə, ton | 97349,7 | 136662,2 | 131,3 | 142,1 |
| Kartof, ton | 61555,5 | 26785,5 | 92,6 | 90,5 |
| Çay, ton | 701,5 | 4501,0 | 98,4 | 93,4 |
| Bitki yağları, ton | 3192,8 | 3138,8 | 64,8 | 74,0 |
| Marqarin, qida üçün yararlı digər qarışıqlar, ton | 1270,5 | 1346,8 | 134,5 | 141,9 |
| Şəkər, ton | 25462,2 | 11186,7 | 122,3 | 90,3 |
| Meyvə və tərəvəz konservləri, ton | 3225,5 | 4211,7 | 110,5 | 114,8 |
| Meyvə və tərəvəz şirələri, ton | 5644,0 | 6311,1 | 137,9 | 122,6 |
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl | 231,5 | 2997,4 | 72,7 | 74,8 |
| Tütün, ton | 2951,5 | 6443,6 | 1,9 d. | 128,1 |
| Bentonit gili, ton | 81672,8 | 4509,6 | 111,1 | 107,3 |
| Xam neft, min ton | 15833,2 | 7671234,3 | 116,7 | 110,4 |
| Xam neft, min ton (ARDNŞ və ABƏŞ-in məlumatlarına əsasən) | 15641,0 | 7389303,0 | 96,2 | 91,4 |
| Reaktiv mühərriklər üçün və digər məqsədlər üçün kerosin, min ton | 111,2 | 67594,8 | 57,0 | 66,3 |
| Ağır destilyatlar və ya digər məqsədlər üçün qazoyllar, min ton | 399,4 | 190769,4 | 121,3 | 110,1 |
| Maye qaz, ton | 37553,1 | 8171,8 | 67,3 | 87,7 |
| Təbii qaz, milyon kubmetr | 5664,6 | 1047680,8 | 1,8 d. | 1,8 d. |
| Təbii qaz, milyon kubmetr (ARDNŞ və ABƏŞ-in məlumatlarına əsasən) | 5979,7 | 1201171,9 | 133,2 | 1,6 d. |
| Neft koksu, min ton | 117,3 | 11648,3 | 90,9 | 145,0 |
| Polietilen, ton | 53030,8 | 44892,6 | 101,1 | 89,2 |
| Pambıq lifi, ton | 51548,6 | 74893,7 | 2,9 d. | 2,6 d. |
| Pambıq ipliyi, ton | 6001,7 | 14602,1 | 150,3 | 147,3 |
| Qara metallardan borular, ton | 5771,2 | 3887,2 | 19,2 | 16,3 |
| Qara metallardan yarımfabrikatlar, ton | 23965,2 | 10112,0 | 2,3 d. | 2,3 d. |
| Emal olunmamış alüminium, ton | 18232,0 | 34052,9 | 87,6 | 77,1 |

## İDXAL OLUNAN MÜHÜM NÖV MƏHSULLAR

| Malların adı | 2019-cu ilin yanvar-iyun aylarında | | 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| İribuynuzlu heyvan əti, ton | 4361,5 | 13771,0 | 108,8 | 113,4 |
| Quş əti və onun əlavə məhsulları, ton | 17256,3 | 18561,2 | 114,0 | 111,0 |
| Kərə yağı, digər süd yağları və pastaları, ton | 6525,2 | 32556,8 | 97,6 | 82,5 |
| Kartof, ton | 91442,3 | 23866,1 | 113,6 | 116,7 |
| Təzə tərəvəz, ton | 15893,6 | 8129,1 | 139,2 | 131,8 |
| Təzə meyvə, ton | 63251,1 | 61746,4 | 102,4 | 114,4 |
| Çay, ton | 6230,3 | 23993,2 | 101,7 | 100,4 |
| Buğda, min ton | 576,5 | 130159,7 | 107,0 | 137,2 |
| Bitki yağları, ton | 65295,9 | 49717,3 | 100,9 | 88,8 |
| Xam şəkər və şəkər, min ton | 144,2 | 54540,1 | 2,5 d. | 2,4 d. |
| Siqaretlər mlyn, ədəd | 2479,3 | 40272,3 | 58,4 | 72,5 |
| Sement və sement klinkerləri, ton | 16275,1 | 3426,8 | 67,3 | 59,7 |
| Mineral gübrələr, min ton | 178,6 | 60099,3 | 110,5 | 136,9 |
| Polietilen, ton | 22403,4 | 26110,5 | 115,1 | 103,5 |
| Rezin şinlər, min ədəd | 920,8 | 32887,5 | 105,8 | 118,4 |
| Polad prokatı, min ton | 146,4 | 109025,4 | 103,6 | 104,2 |
| Qara metallardan çubuqlar, ton | 68214,6 | 37940,7 | 94,7 | 86,6 |
| Qara metallardan künclüklər, ton | 17876,5 | 13034,8 | 124,8 | 102,9 |
| Qara metallardan borular, ton | 89442,4 | 125755,5 | 97,7 | 80,0 |
| Məişət kondisionerləri, min ədəd | 138,8 | 33043,8 | 1,9 d. | 1,9 d. |
| Məişət soyuducuları, ədəd | 12684,0 | 3043,1 | 90,1 | 79,4 |
| Paltaryuyan maşınlar, ədəd | 86980 | 17731,2 | 101,2 | 117,2 |
| Hesablama maşınları,blok və qurğuları, min ədəd | 244,8 | 35363,8 | 123,6 | 119,4 |
| Minik avtomobilləri, ədəd | 16965 | 234921,0 | 2,0 d. | 1,6 d. |
| Avtobuslar, ədəd | 101 | 5975,7 | 1,7 d. | 146,8 |
| Yük avtomobilləri, ədəd | 1593 | 25065,1 | 1,6 d. | 1,6 d. |
| Oturacaq,ofis, mətbəx, yataq və digər mebellər, min ədəd | 368,1 | 32975,7 | 111,9 | 92,0 |

***BEYNƏLXALQ ƏMƏKDAŞLIQ***

# DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN SƏDRİ TAHİR BUDAQOV PARİSDƏ KEÇİRİLƏN AVROPA STATİSTİKLƏRİ KONFRASINDA İŞTİRAK ETMİŞDİR

26-28 iyun 2019-cu il tarixlərində Fransanın paytaxtı Parisdə Avropa Statistikləri Konfransının 67-ci plenar sessiyası keçirilmişdir. Konfransda ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil etmişdir.




Konfrans rəsmi statistikanın modernizasiyası istiqamətində yeni çağırışlar və qarşıya çıxan problemlərin həlli yolları, rəsmi statistika məqsədləri üçün yeni məlumat mənbələrinin və imkanların müəyyənləşdirilməsi, informasiya sistemlərinin idarə olunmasına yanaşmalar, dayanıqlı inkişaf məqsədləri ilə müəyyən edilmiş hədəflər üzrə statistik məlumatların əldə edilməsi üçün yol xəritələrinin hazırlanması və digər mühüm məsələlərin müzakirəsinə həsr edilib.

Sessiyada həmçinin işçi qruplar və ekspertlər tərəfindən statistikanın ayrı-ayrı sahələri üzrə aktual məsələlərə həsr edilmiş məruzələr təqdim edilib, BMT-nin Avropa İqtisadi Komissiyasının 2018 və 2019-cu illər üzrə Statistika Proqramının icra vəziyyəti, habelə 2020-ci il üzrə qarşıya qoyulmuş vəzifələri və əldə ediləcək nəticələri əhatə edən növbəti proqram haqqında məlumat verilib.

Səfər zamanı Dövlət Statistika Komitəsi ilə tərəfdaş ölkələrin statistika qurumları arasında mövcud əlaqələrin genişləndirilməsi və qarşılıqlı əməkdaşlıq perspektivlərinin müzakirə edilməsi də nəzərdə tutulmuşdur.

"Statistika xəbərləri, № 3/2019"
İl 5, Cild 3, İyul-sentyabr, səh. 102-103



# DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ ÜZRƏ MİLLİ MƏLUMATLANDIRMA PORTALININ TƏQDİMAT MƏRASİMİ KEÇİRİLMİŞDİR

İyulun 2-də "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təşəbbüsü və BMT-nin İnkişaf Proqramının Azərbaycan Nümayəndəliyinin dəstəyi ilə yaradılmış Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə Milli Məlumatlandırma Portalının təqdimat mərasimi keçirilib.




Təqdimat mərasimində Baş Nazirin müavini, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, Dövlət Statistika Komitəsinin sədri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının üzvü Tahir Budaqov, Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai və İnkişaf Proqramının (UNDP) ölkəmizdəki rezident nümayəndəsi Alessandro Frakassetti çıxış ediblər.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanına əsasən, Baş Nazirin müavini Əli Əhmədovun sədrliyi ilə Dövlət Statistika Komitəsi də daxil olmaqla aidiyyəti dövlət orqanlarının təmsil olunduğu Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Şuranın fəaliyyəti səmərəli təşkil edilib, bu istiqamətdə qarşıda duran vəzifələr konkretləşdirilib, 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlər və onlara dair göstəricilər, milli səviyyədə DİM-ə nail olunmasına dair icra və hesabatlıq mexanizmi müəyyən edilib, ölkədə qəbul edilən dövlət proqramları və strategiyalar DİM ilə uzlaşdırılıb. Sözügedən Fərmandan irəli gələn tapşırıqlar ölkəmizdə dayanıqlı inkişaf sahəsində aparılan islahatların başlıca istiqamətləri üzrə təkanverici rol oynayır.

Məlum olduğu kimi, BMT tərəfindən dayanıqlı inkişaf sahəsində müəyyən edilmiş 17 məqsəd və 169 hədəf üzrə irəliləyişin ölçülməsi milli statistika məlumatlarına əlyetərliliyin təmin edilməsini tələb edir. Bu da öz növbəsində DİM üzrə göstəricilər barədə keyfiyyətli statistika məlumatlarının vaxtlı-vaxtında təqdim edilməsi sahəsində milli innovativ təşəbbüslərin irəli sürülməsinə zəmin yaratmışdır. Bu baxımdan DİM üzrə əldə ediləcək nailiyyətlərin mütəmadi izlənilməsi, məlumatların müasir texnoloji vasitələrlə daha effektiv üsullarla kütləvi şəkildə istifadəçilərə çatdırılması informasiya yayımının müasir tələblər səviyyəsində təşkilinə zəmin yaradır. Bu kontekstdə statistik potensialın gücləndirilməsi əsas vəzifələrdəndir. DİM-ə nail olunması ilə əlaqədar statistik

məlumatların, habelə ölkə üzrə hazırlanmış hesabatların geniş istifadəçi kütləsinə açıqlanması milli statistik məlumat bazası və internet portalın yaradılmasını qaçılmaz etmişdir. Portalın funksional imkanları bütün maraqlı tərəflər üçün DİM üzrə milli səviyyədə şəffaf monitorinq və qiymətləndirmənin aparılmasına imkan verəcək. Bununla yanaşı, Portal milli statistika sistemindən qlobal statistika sisteminə rəsmi statistika məlumatlarının ötürülməsində virtual körpü rolunu oynayacaq.

Sonra Dövlət Statistika Komitəsinin Dayanıqlı inkişaf statistikası şöbəsinin müdiri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yanında Monitorinq və qiymətləndirmə üzrə İşçi qrupun rəhbəri Rasim Səfərov Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının təqdimatını həyata keçirib.

Azərbaycan və ingilis dillərində olan vahid milli onlayn məlumat mənbəyi DİM sahəsində maarifləndirmə, qabaqcıl təcrübələr, həyata keçirilən tədbirlər və baş verən yeniliklər barədə ictimaiyyətin, o cümlədən dövlət qurumları, özəl sektor, elm və təhsil müəssisələri, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, regional və beynəlxalq təşkilatların məlumatlandırılması üçün əlverişli informasiya mühiti yaradacaqdır. Portal vasitəsi ilə hər bir məqsəd, hədəf və onlara dair göstəricilər barədə ətraflı məlumatlara rahat çıxış imkanı təmin ediləcək. Bu informasiya resursundan istifadə etməklə qlobal məqsəd, hədəf və göstəricilər, DİM üzrə milli prioritetlər, mövcud hüquqi çərçivə, icra mexanizmləri, sosial, iqtisadi və ekoloji sahələrdə həyata keçirilən dövlət proqramları, strategiyalar, mühüm tədbirlər, hesabatlar, nəşrlər və elmi tədqiqat işləri ilə mütəmadi tanış olmaq olduqca əlverişlidir.

“Statistika xəbərləri, № 3/2019”
İl 5, Cild 3, İyul-sentyabr, səh. 104-106

# “ƏHALİNİN SİYAHIYAALINMASI: DAYANIQLI İNKİŞAF ÜÇÜN MÜHÜM İNFORMASİYA MƏNBƏYİ” MÖVZUSUNDA YAZI MÜSABİQƏSİ ELAN EDİLMİŞDİR

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə ölkənin aparıcı kütləvi informasiya vasitələrinin təmsilçiləri Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəhbərliyi ilə görüşüb, qurumun fəaliyyəti ilə yaxından tanış olublar. Tədbirdə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, KİVDF-nin icraçı direktoru Vüqar Səfərli, eləcə də ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri iştirak ediblər.



Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov media nümayəndələrini salamlayaraq qarşıdan gələn Milli Mətbuat Günü münasibətilə təbrik edib, onlara peşə fəaliyyətlərində uğurlar arzulayıb. Fondun təşkilatçılığı ilə artıq ikinci dəfədir ki, aparıcı media rəhbərlərinin komitə rəhbərliyi ilə görüşdüyünü diqqətə çatdıran T.Budaqov belə tədbirlərin qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini xüsusi qeyd edib.

Komitə sədri, həmçinin vurğulayıb ki, görüşün təşkilində məqsəd əhalinin siyahıyaalınması prosesi ilə bağlı media nümayəndələrinə və ümumən ictimaiyyətə dolğun informasiya vermək, onları görülmüş və görüləcək işlərlə bağlı geniş məlumatlandırmaqdır: “Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən, cari il oktyabrın 1-10-da Azərbaycan Respublikasında əhalinin növbəti siyahıyaalınması keçiriləcək. Fərmanın icrasının təmini məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” 2016-cı il 16 dekabr tarixli Qərarı ilə Dövlət Statistika Komitəsinə, eləcə də aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müvafiq tapşırıqlar verilib. Cari ildə “Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının hazırlanıb keçirilməsi üzrə təqvim planı”na uyğun olaraq, əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsini və onun keçirilməsini, yekunlarının işlənməsini, nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsində Siyahıyaalma qrupu yaradılıb”.

Tahir Budaqov bildirib ki, prosesin mütərəqqi dünya təcrübəsi əsasında, mükəmməl formada aparılması üçün ölkəmizdə akkreditə olunmuş beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin Əhali Fondunun, Uşaq Fondunun, İnkişaf Proqramının, Qaçqınlar üzrə Ali Komissarlığının, Beynəlxalq

Əmək Təşkilatının, Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndələri ilə görüşlər keçirilib, əhalinin siyahıyaalınması ilə bağlı əməkdaşlıq istiqamətləri müəyyən edilib.

Komitə sədri qeyd edib ki, siyahıyaalma vərəqəsi ölkə üzrə ev təsərrüfatlarının və ailələrin sayına, yaşayış binaları və evlərinə, yaşayış üçün istifadə edilən digər tikililərə dair ətraflı məlumatların əldə olunmasına imkan verəcək: “Sorğu vərəqəsində isə siyahıya alınacaq hər bir şəxsin cinsi, yaşı, doğulduğu yer, vətəndaşlığı, milli (etnik) mənsubiyyəti, ana dili və sərbəst danışdığı dillər, ailə vəziyyəti, siyahıyaalma anında olduğu yerdə daimi və ya müvəqqəti yaşaması, təhsil səviyyəsi, gəlir mənbələri, məşğulluq vəziyyəti, əlilliyi, əhalinin ölkədaxili yerdəyişməsinin və xarici miqrasiyanın səbəbləri və sair mühüm göstəricilər üzrə suallar öz əksini tapıb. Siyahıyaalma vərəqəsində 6 sual, sorğu vərəqəsində isə altsuallar da daxil olmaqla 46 sual nəzərdə tutulub. Məşğulluq sahəsində milli qanunvericiliyə və Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmiş beynəlxalq metodologiyalara əsaslanaraq sorğu vərəqəsinə işçi qüvvəsini, həmçinin potensial işçi qüvvəsini, əhalinin məşğulluğunu, o cümlədən özünüməşğulluğunu, işsizliyini, iqtisadi qeyri-fəallığını və öz şəxsi istehlakı üçün mal istehsalı ilə məşğul olanları müəyyən edən bir sıra suallar daxil olunub. Bu suallar əsasında iqtisadi və inzibati rayonlar üzrə peşə və vəzifələr, iqtisadi fəaliyyət növləri, cins və yaş bölgüsündə işçi qüvvəsinə dair əldə olunacaq məlumatlar ölkədə əmək ehtiyatlarının istifadəsinin əhatəli qiymətləndirilməsinə və əmək bazarında mövcud vəziyyəti daha geniş təhlil etməyə imkan verəcək”.

O, görüşdə əvvəlki siyahıyaalmadan fərqli olaraq sorğu vərəqəsinə ilk dəfə olaraq daxil edilmiş əlilliyə dair suallar ölkədə sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraitinə, təhsilinə və məşğulluğuna, habelə siyahıyaalma çərçivəsində toplanan digər göstəricilərə dair məlumatların əldə edilməsinə imkan yaradacağını bildirib: “Əhalinin siyahıyaalınmasının məlumatlarının elektron məlumat sisteminə daxil edilməsi, işlənməsi və yekunların əldə edilməsi məqsədi ilə məsələ qoyuluşu, çıxış cədvəllərinin nümunələri, kodlaşdırma soraqçaları və siyahıyaalma ilə bağlı müvafiq proqram təminatı hazırlanıb”.

T.Budaqov vurğulayıb ki, əhalinin siyahıyaalınması ilə bağlı ictimaiyyətin məlumatlandırılması məqsədilə təşviqat materialları (baner, plakat və videoçarxlar) hazırlanıb. Plakat və banerlərin yerləşdirilməsi üçün yerli icra hakimiyyətlərinə müraciət edilib və onların dislokasiyası müəyyən edilib: “Hazırlanmış videoçarxlar televiziya kanallarında və aparıcı elektron media vasitələrində, eyni zamanda Bakı Metropoliteninə və Dövlət Reklam Agentliyinə məxsus monitorlarda yayımlanır. Dövlət Statistika Komitəsi mütəxəssislərinin əhalinin siyahıyaalınmasına aid müxtəlif mövzularda məqalələri “Xalq qəzeti”ndə dərc edilib”.

Komitə sədrinin sözlərinə görə, proses başa çatdıqdan sonra siyahıyaalma materialları Siyahıyaalma qrupuna təhvil veriləcək, sonrakı mərhələdə bu proses üçün işə qəbul ediləcək operatorlar vasitəsilə məlumatların elektron məlumat sisteminə daxil edilməsi, proqram təminatı vasitəsi ilə yoxlanılması prosesi başlanacaq və bu 2020-ci ili əhatə edəcək: “Siyahıyaalma məlumatlarının emalı, əldə edilmiş çıxış cədvəlləri əsasında məcmuələrin nəşrə hazırlanması 2021-ci ildə, siyahıyaalmanın yekunlarına dair məcmuələrin nəşr olunması və istifadəçilərə çatdırılması isə 2022-ci ilin birinci yarısında nəzərdə tutulub”.

KİVDF-nin icraçı direktoru Vüqar Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də dövlət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsi məqsədinə xidmət edən birgə tədbirlərin, o cümlədən fərdi jurnalist yazıları müsabiqələrinin təşkilinin fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. Bildirib ki, Dövlət Statistika Komitəsində təşkil olunmuş sayca ikinci görüş KİV-lərlə komitə arasında əməkdaşlığın daha da dərinləşdirilməsi, ictimaiyyətin əhalinin siyahıyaalınması prosesi ilə bağlı görüləcək işlər barədə dolğun şəkildə məlumatlandırılması baxımından vacib əhəmiyyət kəsb edir.

V.Səfərli öz çıxışında əhalinin siyahıyaalınmasının hər bir ölkənin sosial-iqtisadi inkişaf hədəflərinin düzgün müəyyənləşdirilməsi və bir sıra problemlərin həlli baxımından vacib əhəmiyyət kəsb edən proses olduğunu qeyd etdi. İcraçı direktor əhalinin siyahıyaalınması prosesinin mahiyyətinin ictimaiyyətə dolğun şəkildə çatdırılması və əhalinin maarifləndirilməsi baxımından KİV-lərin də

üzərinə mühüm vəzifələrin düşdüyünü bildirərək jurnalistləri bu məsələyə həssaslıqla yanaşmağa çağırıb.

O, bildirib ki, prosesin ayrı-ayrı mərhələləri barədə ictimaiyyətin dolğun şəkildə məlumatlandırılması və peşəkar jurnalist əməyinin stimullaşdırılması məqsədilə KİVDF-nin və Dövlət Statistika Komitəsinin birgə təşkilatçılığı ilə iyulun 22-dən oktyabrın 22-dək "Əhalinin siyahıyaalınması: dayanıqlı inkişaf üçün mühüm informasiya mənbəyi" mövzusunda birgə fərdi jurnalist yazıları müsabiqəsinin keçirilməsi nəzərdə tutulur. Burada məqsəd həm də əhalinin növbəti siyahıyaalınması ilə bağlı maarifləndirmə tədbirlərinə töhfə vermək, prosesin sosial-iqtisadi əhəmiyyəti barədə ictimaiyyəti məlumatlandırmaq və təşviqat işlərini stimullaşdırmaqdır.

Daha sonra görüş diskussiya formatında davam etdirilib, komitə sədri media rəhbərlərini maraqlandıran sualları ətraflı cavablandırıb.

***AZƏRBAYCANIN STATİSTİKA TARİXİ SƏHİFƏLƏRİNDƏN***

## ƏLİYEV İSGƏNDƏR MƏMMƏD TAĞI OĞLU *(anadan olmasının 120 illiyinə)*



İsgəndər Əliyev Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 23 oktyabr 1929-cu il tarixli qərarı ilə Mərkəzi Statistika İdarəsinə rəis təyin edilmiş və 05.10.1932-ci il tarixədək bu vəzifədə çalışmışdır.

İsgəndər Əliyev 22.08.1899-cu ildə Bakı şəhərində anadan olmuşdur. O, 1918-20-ci illərdə eser partiyasının, 1920-ci ildən 1937-ci ilin iyun ayına qədər Kommunist Partiyasının üzvü olmuşdur. Azərbaycan SSR Ticarət Komissarı, Mərkəzi Statistika İdarəsinin rəisi və Dövlət Plan Komitəsinin sədri vəzifələrini tutmuşdur.

Statistika orqanlarının plan orqanları ilə əlaqəsini gücləndirmək məqsədilə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Azərbaycan SSR-nin Xalq Komissarları Şurasının 1930-cu il 5 may tarixli qərarı ilə Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin funksiyaları Azərbaycan SSR Dövlət Plan Komissiyasına verilir və onun tərkibində xüsusi iqtisadi statistika bölməsi yaradılır. Həmin bölmənin strukturu sədrdən, sənaye statistikası, kənd təsərrüfatı statistikası, sosial statistika, əmək və məişət statistikası, balans statistikası və əsaslı tikinti statistikası qruplarından ibarət olmuşdur. Bu birləşmənin bir sıra müsbət amilləri ilə yanaşı, mənfi tərəfləri də olmuşdur. Belə ki, birləşmə nəticəsində müayinələrin keçirilməsinə və statistikanın metodoloji məsələlərinə diqqət zəifləmiş, statistika orqanlarının mərkəzləşdirilməsi pozulmuş və statistikanın əsas vəzifəsi yalnız planlaşdırmaya xidmətdən ibarət olmuşdu. Bunları nəzərə alaraq 1932-ci ildə İqtisadi Statistika bölməsi SSRİ hökumətinin qərarı ilə Azərbaycan Xalq Təsərrüfatı Uçotunun Mərkəzi İdarəsinə (XTUMİ) çevrilərək Dövlət Plan Komissiyasının tərkibində qalmaqla Zaqafqaziya Xalq Təsərrüfatının Uçotu İdarəsinə tabe edilir. Xalq Təsərrüfatı Uçotunun Mərkəzi İdarəsinin yaradılması bütün uçot və statistika işinin mərkəzləşdirilməsinin gücləndirilməsinə, idarədaxili statistikanın rolunun artırılmasına xidmət edirdi. XTUMİ bütün uçot və statistika işinə mərkəzləşdirilmiş rəhbərlik edən müstəqil orqan sayılırdı. Onun qərarı bütün idarələr və təşkilatlar üçün məcburi sayılırdı və yalnız onun icazəsi ilə hesabat formaları qüvvəyə minirdi, bütün uçot və statistika proqramları işlənib hazırlanırdı. Elə həmin ildə xalq təsərrüfatı uçotunun rayon və şəhər müfəttişlikləri şəbəkəsinin yaradılmasına başlanılır və bu dövlət statistikasının möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edirdi.

İ.Əliyevin rəhbərliyi ilə cari statistika üzrə təcili hesabatlar, müəssisə və təşkilatların illik hesabatlarının işlənməsi təşkil edilmiş, mal anbarlarının, 1932-ci ildə isə sənaye avadanlıqlarının, heyvandarlığın, pərakəndə ticarət şəbəkələrinin və ticarət kadrlarının siyahıyaalınması və kolxozçu ailələrinin büdcə müayinəsi həyata keçirilmişdir. Xidmətlərinə baxmayaraq, İ.Əliyev 15 may 1937-ci ildə burjua-millətçiyönümlü təşkilatın üzvü kimi SSRİ Xalq Daxili İşlər Komissarlığı tərəfindən həbs edilmişdir.

02 yanvar 1938-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Səyyar Sessiyasının qərarı ilə İ.Əliyev Azərbaycan SSR Cinayət Məcəlləsinin 64-cü (hərbi qiyam, həmin məqsədlə mərkəzdə və yerlərdə hakimiyyətin qəsb olunması), 69-cu (əksinqilabçı məqsədlərlə dövlət sənayesinin, nəqliyyatın, ticarətin və pul tədavülünün və s. işinin pozulması), 70-ci (terror aktlarının törədilməsi) və 73-cü (əksinqilabi fəaliyyət) maddələri ilə təqsirli bilinərək güllələnməyə məhkum edilmiş və hökm həmin gün icra olunmuşdur.

06 iyun 1956-cı ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Əliyev İsgəndər Məmməd Tağı oğlu haqqında SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Səyyar Sessiyasının 02 yanvar 1938-ci il tarixli qərarını ləğv etmiş, əməlində cinayət tərkibi olmadığına görə işin icraatına xitam verilmişdir.

Korrektor: Arzu Salmanova

Çapa imzalanmışdır: 21.08.2019